

Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Təalanın buyurduğu bizim yolumuzdur.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 06 (59) 2018

## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Tərcüməçi-redaktor:** Ayxan Həsənov
**Texniki redaktor:** Raman Dadaşov

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16.
Telefon: (+99412) 492-65-23
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA


**RƏSMİ GUŞƏ**

Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib........................................................5

Prezident İlham Əliyev ABŞ-ın tanınmış din xadimlərini qəbul edib......................................7

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı......................................................................8

**BAXIŞ BUCAĞI**

*Ceyms Cons, (Nəriman Qasımoğlu)* – Adəm oğlu və yer kürəsinin gələcəyi: xristian yepiskopla müsəlman alimi arasında yazışmalar..........................................................9

*Şölət Zeynalov* - Fəlsəfə və bilik: davamlı insan inkişafının hərəkətverici qüvvəsi kimi........21

*Sadiq Mirzəyev* - Terror, din və siyasət: ikili standartlar və reallıqlar ...................................31

**CƏMİYYƏT VƏ DİN**

*Əlirza Qafarov* – İslamda qəza və qədər anlayışı....................................................................43

*Könül Əhmədova* – İslam mədəniyyətində birgəyaşayış ənənəsi...........................................51

*Fariz Əhməd* – Məhəmməd peyğəmbər – lider kimi.................................................................58

*Sevinc Həsənova* – Dövlət idarəçiliyində rəhbərin fərdi psixoloji xüsusiyyətləri....................64

**ARAŞDIRMA**

*Fuad Nurullayev* – Baba Nemətullah Naxçıvaninin "Fəvatihul-ilahiyyə" əsərinin Qurani elmlərdəki yeri..........................................................................................70

*Sevda Hüseynova* – Orduda gənclərin sosiallaşması prosesində din amili..............................79

*Səbinə Nemətzadə* - Osmanlı dövlətinin rəsmi xətt növləri və türk suverenliyinin rəmzi olan "tuğra"...........................................................................................................86

*Rauf Quluzadə* – İran mühacirət ədəbiyyatı.............................................................................93

**TARİXƏ PƏNCƏRƏ**

*Nailə Süleymanova* – Səlcuqlu dövrünün yazılı abidələri.......................................................99

*Səbuhi İbrahimov* – Ermənilərin Naxçıvanda törətdikləri soyqırımına dair bəzi tarixi əlyazma salnamələri.........................................................................................104

*Sara Hacıyeva* – Orta əsrlər dövründə Naxçıvanda bazarların inkişafı.................................110



www.scwra.gov.az
e-mail: redaksiya@scwra.gov.az

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli Lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur", - deyən Ulu Öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi və Vətəninə qayıtdı. Bu qayıdış isə daha möhtəşəm oldu. Ulu Öndər xalqımızı öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi. Bu şəxsiyyət Ulu Öndərin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevdir.

# PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN TANINMIŞ DİN XADİMLƏRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib.

Abraham Kuper hələ sovetlər dövründə Azərbaycanda olarkən xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən dini icmaların azad fəaliyyəti üçün şəraitin yaradıldığının şahidi olduğunu deyib. Ravvin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirib və müstəqillik dövründə bu meylin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə bir ailə kimi dostluq şəraitində yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev onların Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini deyib. Dövlətimizin başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2015-Cİ İL 21 OKTYABR TARİXLİ 654 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BÜDCƏSİNDƏN MALİYYƏLƏŞDİRİLƏN, FƏALİYYƏT SAHƏLƏRİNƏ UYĞUN OLARAQ AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ VƏ FİZİKİ ŞƏXSLƏRİNƏ QRANT VERƏ BİLƏN QURUMLARIN SİYAHISI"NDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126; 2016, № 12, maddə 2068; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların Siyahısı"na aşağıdakı məzmunda 7-2-ci və 7-3-cü hissələr əlavə edilsin:

"7-2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

7-3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

# ADƏM OĞLU VƏ YER KÜRƏSİNİN GƏLƏCƏYİ: XRİSTİAN YEPİSKOPLA MÜSƏLMAN ALİMİ ARASINDA YAZIŞMALAR



**Ceyms CONS,**
*Liverpul Yepiskopu 1998-2013*

*Bu yazını ingiliscədən tərcümədə təqdim edirəm.* Məqalənin əsli beynəlxalq xristian icması *SPCK və Nyu Yorkda təsis edilmiş müstəqil çap şirkəti SAGE-nin ildə altı sayını buraxdığı məşhur "Theology" ("Teologiya") jurnalında dərc edilib. Müəllif 1998-2013-cü illərdə Liverpul şəhərinin yepiskopu olmuş, İngiltərənin populyar ilahiyyatçısı **Ceyms Consdur** (James Jones). 2016-cı ildə o, "kimsəsizlərə və ədalət naminə* göstərdiyi *xidmətlərə* görə" *Kraliça tərəfindən "Cəngavər" tituluna layiq görülüb. Bu titulla Böyük Britaniya qarşısında müxtəlif xidmətlərinə* görə *ingilis zadəganları orta əsrlərdən bəri təltif olunurlar.*

**Nəriman QASIMOĞLU,**
*ADA Universitetinin professoru*

***AÇAR SÖZLƏR:*** *ekologiya, məhv, Bibliya, Quran, İnsan Oğlu.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *экология, облитерация, Библия, Коран, Сын Человеческий.*
***KEY WORDS:*** *ecology, obliteration, Bible, Qur'an, Son of Man.*

Əgər qeyd etsək ki, Yer kürəsi indiyəcən misli görünməmiş həddə təhlükə altındadır, heç də mübaliğəyə yol verməyərik. Gələcək taleyimizə təsir edə biləcək səbəblərin başında iki amil dayanır. Birincisi planetin ekoloji tarazlığının insan tərəfindən pozulması prosesi və potensialı ilə əlaqəlidir. Tarixdə də heç rast gəlinməyib ki, bəşəriyyət nə zamansa ekoloji tarazlığın pozulmasında hazırda olduğu kimi hansısa rol oynasın. Vaxtilə təbiətin kövrək qurbanları olan bizlər indi ətraf mühit üzərində hökmranlığını sürdürən qorxunc müstəbidə

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

çevrilmişik. Görəsən, elə bir dövr gələcəkmi ki, gələcəyimizin təbiətlə mükəmməl harmoniya içində olmasına şahidlik edə bilək? Məsələnin peyğəmbərcəsinə izahı iyirmi beş il əvvəl Uels Şahzadəsinin dilindən səsləndirilib.[1]

İkinci amil isə ən kəskin təhlükələrin mümkünlüyünə aiddir ki, bu, dinlərarası gərginliklə şərtlənir. Məsələ xüsusən İslamla yəhudi-xristian ənənələri arasında tarixən mövcud olmuş münasibətlərdən və bu münasibətlərin müasir tarixi uzantısı kimi İslamla Qərb sivilizasiyası arasında davam edən müşküllərə aiddir. Bu məqamda özəlliklə problematik olan məsələ ondan ibarətdir ki, bəziləri Quran və Bibliyanı, bu iki qüdsal mətni Yerin kataklizmik məhvinə dair təsəvvürləri dəstəkləmək üçün də istifadə edirlər.

Mətləbin həddən ziyadə sadələşdirilməsi riskinə yol verilərək Xristianlıqla İslam müəyyən mənada bir-birinin əleyhinə yönəldilir. Hər biri qiyamət dağıntılarını nəzərdə tutan təsəvvürlər sistemi kimi təqdim edilir. Və hər biri geosiyasi baxımdan da xeyli təsirə malikdir. Digər yandan, onun da şahidi olursan ki, Amerikada siyasi istiqamətə malik, müqəddəs mətni hərfən və müəyyən məqsədlərinə müvafiq mənada təfsirləyən Bibliya hərəkatı fəaliyyətdədir və bu hərəkat Yer kürəsinin sonucda bəlalı taleyini peyğəmbərliyin və gələcək gerçəkliyin bəyanı qismində görür. Eləcə də Yaxın Şərqdə Quranın hərfən və müəyyən məqsədlərə müvafiq tərzdə təfsirlənməsilə oxşar təsəvvürləri təbliğ edən hərəkat fəaliyyət göstərir.

Yer kürəsinin təhlükəsiz gələcəyi naminə olduqca vacibdir ki, Bibliya və Quranın müqəddəs mətnləri üzərində xristianlarla müsəlmanların birgə çalışmalarının yeni yolları aransın.

Bunu bəyan edərkən bir məsələdən çıxış edirəm. Söhbət hazırda bəzilərinin çətin təsəvvür edə biləcəyi dostluqdan, yəni mənimlə, İngiltərədə xristian yepiskopu olan birisi ilə Azərbaycanda fəaliyyət göstərən müsəlman alimi Nəriman Qasımoğlu arasındakı dostluqdan gedir. Bu dostluğun yaratdığı məhrəm bir ab-havada da biz Adəm oğlu və Məryəm oğlu İsanın Yer kürəsinin keçmişi, indisi və gələcəyindəki rolu haqqında öz aramızda dəfələrlə müzakirələr aparmışıq.

Hərçənd Yerin gələcəyi ilə bağlı fikirlərimiz bizə ümumiləşən nəzəri bir zəmin bəxş edir, İslamla Xristianlıq arasında, təbiidir ki, başlıca fərqlərdən də danışmaq lazım gəlir. Dialoq və dostluq motivlərini ən yaxşı tərzdə irəlilətməyin yolu bu fərqlərin gözardı edilməsindən deyil, car çəkilməsindən keçir. Özünün "*Müsəlman İsa*" [1] kitabında Tarif Xalidi Quran və hədislərdə İsa haqqında gedən və müsəlman ədəbiyyatında əsrlərcə yer alan deyimləri bir araya gətirib. Bununla belə, Xalidi iki prinsipial fərqi qeyd etməkdən də çəkinmir ki, bunlar İsanın

1 Müəllif burada Uels Şahzadəsi Zati-Alilərinin 1993-cü ildə Oksford Universitetinin Sheldonia teatr binasında, İslami Araşdırmalar Mərkəzində etdiyi məşhur nitqini xatırladır. Uels Şahzadəsi "İslam və Qərb" başlıqlı həmin məruzəsində İslam dininin bəşəriyyətin tərəqqisini amaclayan mahiyyəti və mənəvi potensialından, İslam-Xristianlıq dialoqunun metodoloji əsaslarından söz açmış, dinlərarası yaxınlaşmanın mexanizminə dair öz fikirlərini ifadə etmişdir.

çarmıxa çəkilməsi və üçlük doktrinası ilə bağlıdır. Müəllif yazır: "İsanın çarmıxa çəkilməsini inkar etməklə Quran faktiki olaraq onun yəhudilər tərəfindən qətlini də inkar etmiş olur, peyğəmbərliyinin təsdiqi prosesinin bir hissəsi olaraq onu Tanrıya doğru ucaldır və beləliklə, onu Qurandakı ümumi peyğəmbər tipologiyasına uyğunlaşdırır. Quranda və ümumilikdə müsəlman təsəvvüründə İsanın həyatını ucalıqda əlamətləndirən məqam məhz bu yüksəlişdir, çarmıxa çəkilmə deyil" [1, s.15]. Başqa sözlə, Qurandakı İsa əhvalatını gəlişdirən mətləb teoloji səbəblə şərtlənir.

Xalidinin müəyyənləşdirdiyi ikinci fərq "Quranın üçlük doktrinasını üçtanrılığın əlaməti kimi qəti şəkildə qınaması" [1, pp.13ff] ilə əlaqəlidir. Bu yönümdə ən dramatik parça Tanrının İsanı istintaq təriqi ilə sorğuya tutmasıdır. Müvafiq ayədə İsa inkar edir ki, nə zamansa "Tanrıdan başqa mənə və anama da iki ilah olaraq tapının" demiş olsun (5:116). Xalidi bunu Kilsə tarixinin erkən çağlarında İsanın təbiətinə və politeizmin rədd edilməsi zərurətinə dair baş vermiş mübahisələrə nəzəri münasibət bağlamında təqdim edir. İnkar etmək olmaz ki, xristian doktrinası və etikasının gəlişməsi təkrarlanan proses olub və bu proses davam etməkdədir. Xalidi Yaxın Şərqin Quran və hədis ənənəsini o bölgədə mövcud olmuş xristian icmaları ilə əlaqədə və onlara münasibət ifadəsi müstəvisində təqdim edir. Bununla belə, bir xristian inanclısının həyatı və etiqadında mərkəzi yer tutan bu iki xristian müddəası xristian-müsəlman dialoquna istənilən anda problem yaradır. Bəziləri hesab edirlər ki, dialoqa nail olmaq üçün həddindən artıq uzun bir yol keçməlisən. Məndən ötrü isə mövcud fərqlər ona çağırışdır ki, anlaşmaq üçün əlavə məsafələr də qət etməlisən, çünki elə bilirəm, dostluğun qarşılığı düşmənçiliyin nəticəsindən daha sanballı mükafat vəd edir.

Bəzi hallarda mən *Həvarilərin işləri*[2] fəslinin 17-ci bölümündə Müqəddəs Paulun təqdim etdiyi modelə əsaslanmışam. Həmin parçada Afinanın Aeropaq təpəsində onun fərqli etiqadları olan insanlarla təmasından danışılır. O, tanımadığı Tanrını ehmal etmək və təmasda olduğu insanların xurafatlarını kiçiltmək əvəzinə, öz davranışını onların baxışlarına uyğunlaşdırır, eləcə də həqiqi dialoq kontekstinə uyğun olaraq Yer kürəsinin gələcəyində İsanın rolunu bəyan edir. Və hətta bu gözəl ifadəni – "O kəsdə ki, biz yaşayırıq, hərəkətdəyik və varlığımızı sürdürürük" (28-ci ayə) – İbrahimin Tanrısına da aid olaraq işlədir. Çoxları heç bilmirlər ki, bu sözlər öz mənşəyi etibarilə Zevsə aiddir. Mühafizəkar Paul bu məqamda özünün comərd xislətdə olduğunu, etiqadlar arasında anlaşma körpüsünün salınması məsələsində yaradıcı potensialını nümayiş etdirir. Nəriman Qasımoğlu ilə söhbətləşmələrimiz də belə bir səxavət potensialı olan həqiqi inancdan yararlanır.

*"İsa və Yer"* başlıqlı kiçik həcmli kitabımı nəşr etdirəndən sonra yazıma iki müsəlmanın ifadə etdiyi münasibətdən mütəəssir oldum. Birincisi Liverpulda məscid Şurasının sədri Əkbər Əlinin münasibəti idi. Deyirdi kitabda razılaşmadığı heç bir fikrə rast gəlməyib. İkinci münasibəti Nəriman ifadə etmişdi. O, "Azerbaijani Studies" ("Azərbaycanşünaslıq") jurnalında

2 İncilə daxil olan fəsil.

dərc etdirdiyi tədqiqatında İsa Məsihin Yer kürəsi ilə əlaqəsinə dair mənim dəlillərimi yaradıcı bir tərzdə incələmişdi.

Kitabımın yazılmasına təkan verən əsas səbəb belə bir suala sadə və birmənalı cavab axtarmaq idi: İsa Yer haqqında nə isə deyibmi? Ətraf mühit haqqında məlumatları artdıqca təbiətin qorunması müzakirələrinə qoşulan xristianlar başlıca olaraq Köhnə Əhd-dəki *Yaradılış* və *Nəğmələr* fəsillərinə, eləcə də Paulun yazılarına istinad etmişlər. Və indinin özündə də çoxsaylı dəlillərini məhz bu istiqamətdə irəli sürməkdədirlər. Məni isə qayğılandıran bu olub ki, görəsən, İncillərdə, İsanın deyimlərində necə, hansısa dəlillərə rast gəlmək olarmı ki, ətraf mühit məsələlərinə dair xristian baxışının özülünü bunlara əsaslanaraq gəlişdirəsən?

Biritaniyanın baş ravvini olmuş Lord Səklə bir dəfə söhbətləşirdik. Mənə xatırlatdı ki, İsanın özünə seçdiyi adlar içində onun missiyasını, fəaliyyətini və kimliyini hər şeydən yaxşı nişan verən bir ad "İnsan Oğlu" olub və bu da ibranicə "Ben Adam", yəni "yerdən, torpaqdan yapılmış birisinin övladı" deməkdir. Biz xristianlar İsaya doğru olaraq Rəbb, Xilaskar, Məsih, Tanrı Oğlu kimi sitayiş edirik, o isə özünə təvazökarcasına "Yerin Övladı" deyirmiş. Elə bilirəm, indiki nəsil bunu xalis vəhy qəbilindən məlumat kimi qəbul etməlidir. O indiki nəsil ki, Yerin gələcəyindən ötrü əndişə keçirir və cari böhranımızın həllinə cavab verən bir etiqad axtarışındadır. Biz Yer adlanan elə fövqəladə bir orqanizmin hissələriyik ki, bu orqanizm sanki nəyin bahasına olur olsun, çalışır özünü zədələməkdən sığortalansın və sözün geniş anlamında xilasa möhtacdır; və bizim üçün bunu da aşkarlamaq heyrətamizdir ki, dünyanın nəhəng dinlərindən birinin banisi bizə söz deyərkən özünün Yerlə simbiotik əlaqəsindən çıxış edir.

İkinci tapıntıdan isə lap silkələnmiş kimi oldum. İsanın təlimində Yerlə bağlı məqam axtarışına çıxarkən bunu Rəbb Duasının[3] məhz məğzində tuta bildim: "Sənin iradən göydə olduğu kimi Yerdə də yerinə yetsin". Axı necə olub bunu indiyədək nəzərimdən qaçırmışdım? Demə, Tanrı səltənəti, əslində, İsanın baxışına görə, göylə yerin birgəliyində imiş.

Üçüncü tapıntı İsanın bir sıra deyimləri ilə bağlı idi. Bu deyimlərdə özünü "Yerin Övladı" adlandırır və eyni məzmunda da Yerdən söz salır. Bunlardan biri Mattanın İncilindədir (12:40): "Necə ki, Yunus balinanın qarnında üç gün, üç gecə qalmışdı, eləcə də İnsan Oğlu/Yer Övladı Yerin ürəyində olacaq". Əhvalatın şərhi belədir ki, "Yer Övladı" Yerə salınandan əvvəl Yer titrəmişdi və onun cismi Yerdən yüksələndə Yer yenə titrəmiş oldu. Yer İsanın çarmıxa çəkilməsi və təkrar dirilməsinə sakit qalmamışdı. Yer bununla baş verən hadisənin daha yaxşı şərhçisi oldu, nəinki yalnızca bir dəfə cırılmış olan məbəd örtüyü[4].

---

3 Xristianlıqda ən çox yayılmış duadır.

4 İncildə qeyd edilir ki, İsa çarmıxda ruhunu tapşıran zaman Qüdsdə yəhudilərin müqəddəs mərkəzi hesab edilən məbədin örtüyü başdan ayağa cırılıbmış. Nəql edilir ki, yalnız ən yüksək rütbəli yəhudi din xadimi həmin örtüyün arxasına keçə və orada Tanrı hüzuruna daxil olaraq İsrail övladlarının suçlarının bağışlanması üçün iltimas edə bilərmiş. Hadisə yəhudilərin qurbankəsmə ilə müşayiət olunan "Pesax" (yəhudilərin firon istibdadından, köləlikdən xilasını simvolizə edən bayram) günlərinə təsadüf edibmiş. Bunu Xristianlıqda ümumən belə şərh

Bu məqamda mənim sadəcə toxunmaq istədiyim odur ki, bizim Yerlə münasibətimizə dair narahatlığımız artan bir vaxtda təkcə Köhnə Əhdə, Paulun məktublarına müraciət etməməli, İsanın öz təliminə də üz tutmalı, onun və bizim Yerlə hansı əlaqədə olmağımıza dair dəllilərin əldə edilməsi naminə müvafiq müqəddəs mətnləri arayıb araşdırmalıyıq.

Deməli, bir gün gördüm poçtuma "Azerbaijani Studies" jurnalının iki sayı (13-cü cild, 3-cü və 4-cü buraxılışları ISSN 1027 – 3875) daxil olub. Jurnal saylarını vərəqlədiyim həmin gün bir müsəlman aliminin – Nəriman Qasımoğlunun məhz bunu həyata keçirdiyinin böyük heyranlıq və duyğusallıqla şahidi oldum. Qasımoğlu qələmə aldığı "Təbiətə dair ruhsal oxu: Bibliya və Quranda ekoteologiya uyğunluqları" araşdırmasında təbiətə bəslədiyi sevginin onda necə baş qaldırmasından yazır, bunu Qasım Qasımzadənin poeziyasından aldığı impulslarla, Azərbaycan təbiətinə naxış vuran Abşeronun əncir-üzüm bağları, Xəzərin qumlu sahilləri, Kəlbəcər, Şuşa, Qubadlı dağları və meşələrində keçirdiyi günlərlə əlaqələndirir [2, (3), p.17]. Quranı Azərbaycan türkcəsinə çevirdiyi müddətcə onu da anladığını vurğulayır ki, Tanrı "təbiəti qoruma altına alınma tədbirlərinin həyata keçirilməsində davranış etikasına aid müqəddəs təlim"i necə təlqin edir [ 2, (3), p.17].

Qasımoğlu etiraf edir: təəssüf ki, bir sıra müsəlman alimlərinin cəhdlərinə baxmayaraq müsəlmanların əksəriyyəti ekoloji məsələlərə həssas münasibət bəsləmir [2, (3), p.18]. Bunu kilsə haqqında da demək olar.

Qasımoğlu öz araşdırmasında bir-birimizlə paylaşdığımız yazılara da münasibətini ifadə edir və bunların biri haqqında belə deyir: *"Ceyms Cons eskatologiya və teologiya arasında, yəni Yer kürəsinə nə olacaq deyə nələri düşünürük mətləbi ilə Yer kürəsinə münasibəti hazırda hansı davranışlarımızla sürdürürük məsələsi arasında paralellər apararaq bildirir ki, bəzi adamların baxışlarını, əslində qiyamət dağıntılarını nəzərdə tutan teologiya gəlişdirir. Bu o deməkdir ki, bir gün dünyanın hansısa nəhəng kosmik dağıntılara düçar olacağına inanırsansa, indi baş verənlərə biganə qala bilərsən. Yəni sən sadəcə yalnız öz ruhunun axirətdə qurtuluşuna nail olmaq ovqatına köklənəcək, bu zaman da dünya həyatındakı öhdəliklərini boş buraxacaqsan. Digər yandan, bu,* həm də o deməkdir ki, dünyanın gözlənilən faciəli sonluğunu tezləşdirməli olduğumuza bəzi adamlar hətta inanırlar da… Hərçənd Bibliya gələcək haqqında danışarkən mövcudluğun həm davamı, həm də sonluğu kimi söz açır, müqəddəs mətnin ümumi təlqini budur ki, Tanrı hər zaman iş başındadır deyə Öz yaratdığını daha çox qoruyub saxlayır, yeniləyir və dəyişir, nəinki məhv edir. Rəbb Duasının qayəsində *"Tanrı iradəsinin göydə olduğu kimi, Yerdə də yerinə yetməsi"ni hədəf seçən bir yalvarış dayanır. Bu, mahiyyətcə göyün, necə deyərlər, yerə endirilməsi üçün edilən bir duadır. Gələcəyə dair Bibliya baxışı onu təlqin edir ki, göylə Yer birləşik olacaq.*

*Quranın Azərbaycan türkcəsinə tərcümə müəllifi kimi mən onu da əlavə edərdim ki, bu*

---

edirlər: məbəd örtüyünün Tanrı iradəsilə cırılması o faktı rəmzləndirir ki, bəşəriyyətin Tanrıdan ayrı tutulması İsanın ali səviyyədə qurban edilməsi ilə aradan qaldırılıb.

*şərhlər müvafiq Quran ayələri ilə tam uyarlıq içindədir. O ayələrlə ki, axirətlə dünya həyatı dini düşüncə və təcrübədə tarazlaşdırılmanı tələb edir və iman gətirənləri Tanrı qarşısında bu duada bulunmağa səsləyir: "Rəbbimiz! Bizə dünyada da gözəllik ver, axirətdə də. Qoru bizi od əzabından". İnananlar bu duanı faktiki olaraq gündəlik namazlarında ifadə edirlər. Quran mətni dünyanın sonunu gətirəcək qiyamət gününü daim düşünənləri və bu barədə sorğulayan şəxsləri səciyyələndirərkən bildirir ki, beləəri bu düşüncə və hərəkətləri ilə dünyanın sonluğunu sanki tələsdirirlər. Quran belələrini imansızların siyahısında görür: "Soruşurlar: "Din günü nə zaman olur?" O gün od üstündə yandırılırlar. Dadın yandırılmanızı. Bu zatən o nəsnə ki, siz özünüz bunu tələsdirirdiniz". James Jones haqlı olaraq deyir: "Xiristianlıq içində dini görüşləri qiyamət dağıntılarını nəzərdə tutan teologiya üzərində gəlişmiş insanların olduğu kimi, müsəlmanlar arasında da gələcəyi Yer kürəsinin məhvi kimi qavrayanlar var. Belədirsə, və belələrini "yoxluqçular" adlandırıb deyə bilərəmsə ki, bu "yoxluqçular" Xristianlıq və İslamda hakim mövqedə olmaqla mənsub olduqları mədəniyyətlərə teoloji etiqadları üzərində qərarlaşan bir siyasi dünyagörüşü də sirayət etdirirlər, deməli, biz ən sərt və ağır ölçülərdə eskatoloji bir ssenari ilə üz-üzəyik. Elə də çox təxəyyül tələb etmir düşünəsən ki, əgər dünyamız Yer kürəsinin nəhayətdə dağılmasını vəd edən dini-siyasi ideologiyalar arasındakı mübarizənin əsiri durumuna düşərsə, bizim hamımıza nələr üz verər..."* Məhz bu məqamda əlavə edərdim ki, aid olduğu dindən asılı olmayaraq ekoteologiya bəşəriyyətin həqiqi qurtuluşu üçün gərəkli vasitələrdən biri kimi nəzərdən keçirilməlidir*"* [2, (3), p. 20].

Qasımoğlu fikirlərinə davam edərək bildirir ki, *"biz dinlərin mümkün mənəviyyat potensialını ətraf mühitin qorunmasına yönəlik fəaliyyətlərin xidmətində tutmalı, bununla da ekoloji böhranın həllinə yardım etməliyik"*. Və asanlıqla etiraf edir ki, o biri dünyada qurtuluş vəd edən din insan varlıqlarını planetin *"qayğısına qalmaqdan uzaq tutmuşdur"*. Daha sonra onu da qəbul etdiyini bildirir ki, *"təbii aləmdə və yaradılış prosesində ilahi yaradıcılıq təcəllilərinin ehmalı ona sövq etmişdir ki, insanlıq vəhy prosesini bütövlükdə yanlış anlamalı olmuşdur"* [2, (3), p.23]. Qasımoğlu Tomas Berriyə istinadən hamımızı ona çağırır ki, *"təbii aləmə yadlaşma ruhiyyəsindən təbii aləmlə məhrəmlik ruhiyyəsinə"* [3, p.128] keçid edək. Və bəyan edir ki, bəşəriyyət təbiətin bir hissəsidir, ondan ayrı deyil. Xristian və yəhudi ekoteoloqları Bibliyanın "*Yaradılış"* fəslində ifadə olunan "hakimlik" anlayışını "bəndənin ağalığı" kimi yozurlar. Qasımoğlu onların bu mövqeyi ilə səsləşən fikrini irəli sürərək Quranın "idarəçilik prinsipi"nə əsaslanır və ayələrin birindən belə bir nümunəni təqdim edir: "Yer üzündə bir xəlifə var edəcəm" söyləmişdi Rəbbin…" (2: 30).

Qasımoğlunun tədqiqatının mənə görə ən maraqlı yönlərindən biri odur ki, müəllif mənim İsanı "İnsan Oğlu/Adəm Övladı" kimi səciyyələndirməyimi və İsanın bu müstəvidə təqdimatı onun Yerlə münasibəti barədə nələri öyrədir məsələsini ciddi şəkildə təhlil edir, diqqəti Rəbb Duasına və "göyün yerə endirilməsi" çağırışıma diqqət çəkir: *"Göyün yerə endirilməsinə çağırış Quranın bir ayəsində də eşidilir. O ayədə ki, söhbət Tanrının müəllifi*

*olduğu yaradılışa imanla yoğrulu bəsirətin vacibliyindən gedir. İnanclı insanlara bu bəsirət o mətləbi anlamaqdan ötrü vacib bilinir ki, göylərlə ruhi-mənəvi bağlılıq duyğusu dərin ibtidai mənşəyi etibarilə göylərin nə zamansa Yerlə mövcud olmuş fiziki birliyindən qaynaqlanır: "Məgər o dananlar görməzmiydilər, bitişikdi göylərlə yer, Biz ayırdıq onları. Hər canlı nəsnəni sudan yaratdıq. Yenəmi inanmaq bilməyir onlar?" (21: 30)[2,* (3), *p.26]. Rəbb Duasında göylərlə yerin bitişikliyinə dair xəbərlənməsi mahiyyətcə ilkin yaradılışın vahidliyinə gedib çıxır. O zamana ki, "bitişikdi göylərlə yer, Biz ayırdıq onları".*

İsanın özünü "İnsan Oğlu/Yer Övladı" adlandırması mətləbinə toxunan Qasımoğlu bu adla Quranın İsanı Məryəmoğlu olaraq təqdimi arasında paralel aparır: *"İnsan Oğlu" kimliyi ilə İsa Məsihin Quran təqdimi arasında oxşarlığı da müşahidə etmək olduqca maraqlıdır. İsanın bir növ insan mənşəli olduğunu bildirən "İnsan Oğlu" ifadəsi Quran yozumunda "Məryəmoğlu" kimi təmsil olunur. Bu, ətraf mühitə xoş münasibət aşılamaq strategiyası baxımından da önəmli səslənir. Belə ki, söhbəti bu məqamda İsanı Tanrının göndərdiyi Müqəddəs Ruhdan doğmuş Bakirə Məryəm vasitəçiliyi ilə 'ilahiliyin yerə endirilməsi' fikrinə yönəltmək mümkün görünür [ 2,* (3), *p.27].*

Qasımoğlu diqqəti eyni zamanda İsanı açıq-aşkar Adəmlə əlaqələndirən bir Quran ayəsinə də yönəldir: "İsa Tanrı qatında Adəm kimi..." (3:59). Tanrı "bütün nəsnələrin təbiəti"ni məhz Adəmə aşkarlayıb. Adəm "Hami"dir, 'Xəlifə'dir və 'Tanrı təmsilçisi'dir (2:30). Adəm və törəmələri həm də Yer üzünü irsən bir-birinə ötürənlərdir" (6:165) [2, (3), p.27].

Bütün bunlar göstərir (söhbət yalnız üzdə olanlardan gedir) ki, İsanın ikinci Adəm qismində obrazı müsəlmanlarla xristianlara yeni və fərqli səviyyədə dialoq təklif edir. Üçlük doktrinası və İsanın ilahi mənşəyini apriori mübahisələndirmək əvəzinə bizlərə vacibdir ki, öncə Bibliya və Quranda Yerlə davranış etikasını nəzərdən keçirək və bundan sonra baxaq ənənələrimiz bizlərə "Adəm Övladı", "Məryəm Övladı" İsa və onun Yerin keçmişi, indisi və gələcəyi haqqında nələri söyləyir. Xristianlar bunu Üçlüyə və İsanın ilahi mənşəyinə imandan imtinaya çağırış kimi qəbul etməməlidirlər. Bu sadəcə ona dəvətdir ki, nəzərlərimizi uca ehkamların dağ silsiləsindən çəkək və fikir yamaclarında müsəlman dostlarımızla yanaşı addımlayaq. Kim bilir, belə olan təqdirdə hər iki din mənsubları üfüqdə hansı yeni nəsnələri görə bilərlər.

Qasımoğluna məhz bu ruhda məktub yazdım və ümid etdim, o, aşağıda sadaladığım beş sual ətrafında daha əhatəli təhlilini təqdim edəcək (öz tədqiqatında bu məsələlərə artıq qismən toxunmuşdu):

1. İslamda İsaya İnsan Oğlu kimi istinad edən hansı mətnlər mövcuddur?
2. Dünyanın sonu məsələsinə dair islami baxışda İsanın rolu nədən ibarətdir?
3. Xristianlıqda dünyanın sonu barədə iki baxış mövcuddur. Bir qism xristianlar dünyanın məhvi teologiyasına inanırlar. Hesab edirlər ki, Tanrı öz səltənətini bərqərar etməzdən öncə Yer kürəsini məhv edəcək. Digərləri isə bərpa teologiyasına inanır və o fikirdədirlər

ki, Tanrı Öz səltənətinin gəlişi vasitəsilə Yer kürəsini yeniləyəcək. İslamda necə, bu iki əks fikri vurğulayan müddəalar varmı?

4. Quranla hədislər Yerin yenilənməsi və yenidən yaradılması haqqında nələri öyrədir?
5. Yeni Əhddə İsa bizə Rəbb Duasını təlim edir. Həmin ifadələrdə dua edirik ki, Tanrı iradəsi göylərdə olduğu kimi Yerdə də həyata keçsin. İslamın düşüncə tarixində elə fikirlər yer alıbmı ki, bunlar Tanrı yaradılışına və Yerin qorunmasına qayğılı münasibət tələb edən İsanın rolundan bəhs etsin?

Onun cavablarını belə xülasələndirərdim:

Birincisi, Qasımoğlu inanır ki, "İnsan Oğlu" ifadəsi bir mənada İsanın Quran ayələrində insan başlanğıclı varlıq olduğunun dəlili kimi istifadə edilən "Məryəm Oğlu" adına nisbət kimi də götürülə bilər. Bu mənada o, ana xətti ilə "Adəm Övladı" sayıla bilər. Bibliya kimi Quran da İsanı "kiçicik insan suçlarına sahib başqa peyğəmbərlərdən, o cümlədən Məhəmməd peyğəmbərdən fərqli olaraq hər hansı suçdan xali birisi" qismində nəzərdə keçirir.

Qasımoğlu, həmçinin İsanın "Tanrı Sözü" statusunda kimliyini vurğulayan İncillərlə Quran arasında paralellər aparır: *"İsa Məsih Məryəmoğlu Tanrı elçisi, Onun Məryəmə atdığı* Öz sözü, Onun Özündə*n bir Ruh" (4:171). Necə ki, "İnsan/Yer Oğlu"nun İncillərdəki deyimləri onun göylərlə yer arası sürdürdüyü missiyaya işarə edir, eləcə də Quranın İsaya nisbətdə "Məryəm Oğlu" və "Tanrı Sözü" təyinləri onun insanla İlahi varlıq arasında vasitəşilik bağını səciyyələndirir. Bu, İsanın "Tanrı Sözü" təyinatına Yəhyanın verdiyi şəhadətlə uzlaşır: 'Nə yaradılmışsa, onsuz yaradılmamış" (Yəhyanın İncili, 1.3).*

İkincisi, Qasımoğluya görə, *"ənənəvi müsəlmanların şüurunda İslam peyğəmbərləri arasında İsa yeganə birisidir ki, onun sağ olması mübahisələndirilmir və bu, İslam mətnlərində "Saat" (bu söz təkrar dirilmə, hesab günü mənasında işlənir) termini ilə istinad edilən dünyanın sonu barədə təsəvvürdə onun rolu ilə əlaqələndirilir."*

Qasımoğlu Qurandan belə bir sitat gətirir: "…Ey Isa, heç şəksiz, Özümə ucaldaram, dananlardan təmizlərəm, ardınca düşənləri qiyamətədək danmış kimsələrdən üstün qılaram..." (3:55). Və deyir: "İsanın ikinci gəlişi barədə daha çox hədislərdə danışılır və bu da "Saat"ın, eləcə də İsanın Yer üzündə hakimliyinin əlaməti kimi qəbul edilir. Hərçənd nə Quran, nə hədislər İsanın dünyanın sonunda oynayacağı rolun ayrıntılarına varır, ancaq hər iki qaynaqda o, Yer üzünün gələcək tarixində açıq-aydın eskatoloji bir şəxs kimi görülür.*"*

İncillər, *Məktublar* və *Vəhy Kitabı* da "bütün nəsnələrin təkrar yaradılışında" (Matveyin İncili, 19:27) "İnsan Oğlu/Adəm Övladı"nın rolu barədə xeyli təsəvvürlər və rəmzlər təqdim edir. İfadələrdən biri də budur: "İnsan Oğlu özünün şöhrət taxtında əyləşəndə bütün nəsnələrin yenilənməsi zamanı mən sizə həqiqətən deyəcəm..." (Matveyin İncili, 19:28).

Tanrı yaradılışına biganə qalmayan xristianlarla müsəlmanlardan ötrü gerçəkdən geniş imkanlar var ki, İsanın bu rolunu birlikdə öyrənsinlər.

Üçüncüsü, Qasımoğlu bəyan edir: *"Yerin yeniləncəyinə inanan bir sıra islahatçı*

*müsəlman alimləri istisna olmaqla, müsəlmanların böyük çoxluğunun inancı qiyamət dağıntılarını nəzərdə tutan teologiyaya əsaslanır. Ənənəvi təsəvvür belədir ki, Tanrı lütfünün səltənəti bu dağıntılar bitib qurtarandan sonra yenilənmiş bir kainat sistemində, möminlərin yaşayacağı axirətdə, yeni bir yerdə bərqərar olacaq".*

Bu, bir teoloji baxışdır ki, iki min il ərzində Kilsə, eləcə də hazırda Bibliyanı hərfi mənada anlayan icmalar tərəfindən paylaşılır. Bu təsəvvür K.S.Luisin qələmə aldığı "Nariniada son döyüş" əhvalatlarının[5] bitdiyi səhnələri xatırladır. Nəzərə alaq ki, müsəlman alimləri arasında Quranı və hədisləri daha çox məcazlara söykənərək təfsir edənlər sayca az olsalar da, mövcuddur. Bu faktın özü göstərir ki, axır zaman təbiətinə dair təsəvvürlər ətrafında İslamın da, Xristianlığın da daxilində dialoq üçün imkanlar və bu imkanların Yerin həm gələcəyi, həm indisi üçün müəyyənləşməli olan davranışların perspektivi var. Quran da (6: 165), Bibliya da (Matveyin İncili, 5.5) Tanrı hikmətlərinin ardınca gedən inanclıları Yerin varisləri qismində görür.

Dördüncüsü, Qasımoğlu Qurandan bu ayələri də sitat gətirir: "O gün yer dəyişdirilir başqa yerlə. Göylər də. Tək olan, qəhr eyləyən Tanrının hüzuruna çıxırlar" (14: 48); "…İlk xilqəti yaratmağa necə başladıqsa Biz, verdiyimiz vədə görə onu yenə təkrarlarıq..." (21: 104). Və bu ayələrin fonunda məsələni belə qoyur: *"Yerin beləcə yenilənməsi onumu bildirir ki, proses "Saat"ın gəlişi ilə planetimizin tamamən dağılması ilə müşayiət olunacaq? Ənənəçi müsəlman təfsirçiləri inanırlar ki, Tanrı yeni birisini yaratmazdan öncə Yeri bütövlükdə dağıntılara düçar edəcək. Onlar bu qənaətlərini əsaslandırmaq üçün Quranın başqa bir ayəsinə üz tuturlar: "Başqa bir ilahı çağırmayasan Tanrı bərabərində. Ondan başqa ilah yox. Onun Öz üzündən başqa nə varsa, hər şey məhv olandır. Hökm Onundur. Ona da qaytarılırsınız" (28:88).*

Qasımoğlu yazışmamızın bu məqamında "Böyük Gün" başlıqlı araşdırmasına istinad edir. Quranda təsviri gedən bir sıra mikro-qiyamət olaylarını nəzərdən keçirir və bu epizodların işığında "Böyük Gün"lə bağlı ilahi ssenarini açıqlamağa çalışır. Gəldiyi nəticə də əlamətdardır: *"Hazırda bu qənaətə meylliyəm ki, gözlənilən dağıntıların miqyası dəyişdirici və yeniləyici sonuclar baxımından nə qədər böyük təsəvvür olunsa da, mahiyyətcə məhdud səciyyə daşımalıdır".*

O bu qənaətini Lut, Şuayb və Musanın hekayətlərinin təhlili üzərində qurur. Həmin qissələrdə inanclı əməli-salehlər yaşadıqları ərazilərdə başlarının üstünü alan Tanrı qaynaqlı dağıntılarda fiziki zədələnmədən uzaq və əmin-amanlıqda tutulurlar.

Qasımoğlunun araşdırmasının önəmi mübaliğəsizdir. Bibliya da, Quran da ətraf mühitlə etik davranış tələbini Tanrı yaradılışına qayğı göstərilməsi müstəvisində səsləndirir və bu tələbi

---

5 İrlandiya yazıçısının bu əsəri uşaqlar üçün yazdığı "Narnia salnaməsi" seriyasından yeddi fantastik povestin sonuncusudur; heyvan surətlərinin iştirak etdiyi Narnia aləmi baş verən macəralar sonucunda dağılır, Narnia Tanrısı Aslan nəhayətdə hamıya əməlinə görə qarşılıq verir: ona inananları öz ölkəsinə aparır, inanmayanları isə lal heyvanların adi halına salır.

bəşəriyyət üçün imperativ qaydada təlqin edir. Bu imperativin tətbiqi o zaman pozulur ki, bizlər Yerin nəhayətdə tamamən tullantıya çevrilərək məhv olacağına inanmaqda davam edirik. Əgər, əksinə, inansaq ki, mövcud Yerlə "yeni Yer" arasında bir zaman fasiləsizliyi mövcuddur, belədə planetimizin müqəddəs təbiətini etiraf etmiş və vurğulamış oluruq. Qasımoğlu "Məryəm Oğlu" barədə Quran ayəsinə müraciət edir: *"Heç şəksiz, Saatın bilgisidir o. Və nəbadə şübhələrə dalasız Saat barəsində. Arxamca gəlin də budur dosdoğru bir yol" (43:61). Xüsusilə önəmlidir ki, bundan öncəki ayələr bəşəriyyətin Yer üzündə Tanrı xəlifələri olmasını bəyanlayır "(43: 60). Başqa sözlə, Yerin həm indisi, həm gələcəyinə dair mülahizələrimizdə İsanı nəzərdən keçirməyə bir dəvət var. Qurandan gələn dəvətdir. Qasımoğlu bunu təsdiqləyərək bildirir: "Müsəlmanlar üçün olduqca önəmli və faydalı sayıram ki, İsanı bu yöndən, yəni Saat elmi olaraq öyrənməklə təsəvvürlərini genişləndirə bilsinlər".*

Qasımoğlu beşinci suala cavab olaraq təsdiq edir ki, İsanın İslam məfkurəsində "Tanrı Ruhu", "Tanrı Sözü", "Tanrı Elçisi", "Tanrı Bəndəsi" və "Xilaskar" kimi xüsusi məqamı var. O, Azərbaycan klassiklərinin əsərlərində də İsaya edilən xeyli sayda istinadları xatırladır. Dahiyanə bir əsər olan "Leyli və Məcnun" poemasında müəllif Məhəmməd Füzuli öz qəhrəmanını İsaya tay tutaraq ənənəvi xristian qavrayışında təqdim edir. Belə bir anlamda ki, onun bu dünyaya gəlişinin məqsədi insanları günahlardan təmizləmək, insanların qəmlərini öz üzərinə götürərək bəşəriyyəti ağrılardan xilas etmək missiyası ilə əlaqələndirilir[6].

Bəllidir ki, bütün dövrlərdə həm fəlsəfi, həm də teoloji müzakirələrin mətləbini aid olduğu zamanın konteksti müəyyənləşdirib. Bəşəriyyətin Yerlə əlaqəsindəki hazırkı böhran etiqadlar arasında dialoq üçün yeni mühit yaradır. Elə bir mühit ki, ortaya yeni fikirlərin çıxması və hətta köhnə mübahisələrin kölgədə qalmasına zəmin hazırlaya bilər. Qasımoğlu ilə aramızdakı söhbətlər və yazışmalar Ekümenik Patriarxın Amazon çayı üstündə qonaqladığı

---

6 Xristian təliminə görə, Adəmin suç işlətməsilə bəşəriyyət əbədi bir günah içindədir. Hətta körpənin dünyaya göz açdıqda ağlaması da xristianlarda dini baxımdan bu ibtidai günaha aid bilinir. İnsanlar əbədi xilasa nail olmaqdan ötrü və günahlarının bağışlanması naminə İsa Məsihin adıyla tövbə edib saleh əməllərdə bulunmalıdırlar. Quranda isə onun missiyası fərqli məzmundadır. Poemada dünyaya təzəcə göz açan Qeys hal diliylə belə deyir:

... Ey, cəfaçı dünya!
Bildim qəmini sənin ki, çoxdur,
Qəm çəkməyə bir hərif yoxdur.
Gəldim ki, olam qəmin hərifi,
Gəl, təcrübə eylə mən zəifi!
Hər qanda qəm ola, qılma ehmal,
Cəm eylə, dili-həzinimə sal!
Həm ver mənə qəm yemək kəmali,
Həm aləmi qəmdən eylə xali!

Beləcə, Füzuli İsa Məsihin bütün insanlığın günahlarını öz üzərinə götürməsilə Qeysin dünyanın bütün qəmini öz üzərinə götürməsi arasında məhrəm bir paralel aparır.

bir simpoziumdan[7] başladı. Apardığımız fikir mübadiləsi qeyd etdiyim mühitin yaradılması imkanlarının kiçicik əlamətidir. Bu əlaməti də rəmzi olaraq səciyyələndirən odur ki, bir-birimizə yazdıqlarımızı bu sözlərlə bitiririk: "Sənin din dostun".

## ƏDƏBİYYAT

1. Khalidi Tarif. The Muslim Jesus: Sayings and Stories in Islamic Literature Cambridge. MA: Harvard University Press, 2001.
2. Gasimoglu Nariman. "Spiritual Reading Guide on Shared Nature Commonalities in Bible and Qur'an from Eco theology Perspectives" // Journal of Azerbaijani Studies 13 (3), pp. 15–44 and 13 (4), pp. 16–47.
3. Berry Thomas. "Christianity's Role in the Earth Project" in the volume Christianity and Ecology: Seeking the Well-Being of Earth and Humans edited by Hessel and Ruether. Cambridge, Massachusetts, p.128.

7 2006-cı ildə Braziliyada, Amazon çayında üzən möhtəşəm gəmi flotiliyasında BMT-nin Baş katibi Kofi Annanın himayəsi və yunan pravoslavlarının lideri I Bartolomeyin rəhbərliyi altında keçirilmiş məşhur "Din, elm və ətraf mühit" simpoziumuna işarədir.

ДЖЕЙМС ДЖОНС

**СЫН ЧЕЛОВЕЧЕСКИЙ И БУДУЩЕЕ ЗЕМЛИ: ПЕРЕПИСКА МЕЖДУ ХРИСТИАНСКИМ ЕПИСКОПОМ И МУСУЛЬМАНСКИМ УЧЕНЫМ**

РЕЗЮМЕ

Статья повествует о содержании личной переписки Джеймса Джонса, автора книги Иисус и Земля, Нариманом Гасымоглу, мусульманским ученым Азербайджанского происхождения. Переписка затрагивает их обмен мнениями относительно актуальности рассмотрения вопросов экологической стабильности и деструктивной деятельности человека, ведущей к разрушению Земли, в свете текстов Библии и Корана.

JAMES JONES

**THE CHILD OF ADAM AND THE FUTURE OF THE EARTH: LETTERS BETWEENA CHRISTIAN BISHOP AND A MUSLIM SCHOLAR**

SUMMARY

This article gives a fist-hand account of the correspondence between Bishop James Jones, author of Jesus and the Earth, and Nariman Gasimoglu, a Muslim scholar in Azerbaijan on the relevance of the Bible and Qur’an to the ecological stability or human-induced destruction of the earth.

# FƏLSƏFƏ VƏ BİLİK: DAVAMLI İNSAN İNKİŞAFININ HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ

***Şölət ZEYNALOV,***
*AMEA Fəlsəfə İnstitutunun Davamlı İnkişafın*
*Fəlsəfəsi şöbəsinin böyük elmi işçisi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
*sholet@mail.ru*

***AÇAR SÖZLƏR:*** *fəlsəfə, elm, din, insan, dialoq.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *философия, наука, религия, человек, диалог.*
***KEY WORDS:*** *philosophy, science, religion, human, dialogue.*

Bəşəriyyət paradoksal bir inkişaf mərhələsinə daxil olmuşdur. K.Yaspersin təbirincə desək, biz elə bir epoxaya qədəm qoymuşuq ki, dünya "qarşısıalınmaz fəlakətə doğru gedir", buna görə "yer də ayaqlarımızın altından qaçır": Mövcud paradiqmalar günümüzün suallarına cavab verə bilmir, ziddiyyətlər həyatın bütün sferalarında hökmranlıq edir; ifrat maraqlar, nihilizm, fərdiyyətçilik, sərvət uğrunda savaşlar, inam və iman adına çıxış etdirilən spekulyativ dindarlıq, ultramillətçilik, ksenofobiya və s. seriya problemlər insanı insanla, sivilizasiyanı başqa sivilizasiya ilə, din və mədəniyyəti digərləri ilə toqquşmaya təhrik edir. Yer üzündə insanların sayı artır, təbii resurslar isə əksinə, tükənməyə doğru gedərək bütün sferalarda katastrofizmi daha da sürətləndirir. Bu kimi məsələləri XX əsrin fikir dahiləri yaxşı hiss etmiş və həyəcan təbili çalmışlar. Roma Klubu da prosesin məntiqini anlamış və dünya miqyasında həyəcan qaldırmışdır. Roma Klubunun rəhbərləri hələ ötən əsrdə haray çəkmişdilər ki, "bəşəriyyət yol ayrıcındadır". Klubun prezidenti A.Peççei "Bəşəri keyfiyyətlər" kitabında məsələni kəskin və qəti qoyurdu: epoxa elə qorxunc istiqamət almışdır ki, indiyədək onun məhvərini müsbətə doğru dəyişə biləcək heç bir tədbir bu məqsəd də koordinal dəyişikliyə nail ola bilməmişdir. Biz insanları inandırmalıyıq ki, ya "dəyişilməli, ya da qeyb olmalı" [1, s. 211], üçüncü yol mövcud deyildir. Burada söhbət insanların intellektual varlığında elə dəyişiklik edilməsindən gedir ki, bu hesaba onların şüuru, dünyaduyumu, dünyaya və özünə münasibəti, başqa sözlə, onların sözün həqiqi mənasında fəlsəfəsi dəyişilməlidir. Ancaq bir şeyi nəzərdə saxlamaq lazımdır ki, sadəcə, hansısa anlamda, mexaniki olaraq, problemin həlli istiqamətinə cəhd kimi, yalnız fəlsəfənin dəyişilməsini, əlahiddə şəkildə qoymaq olmaz, söhbət ən yüksək anlamda – insanların qidalandıqları ab-havanı, mənəvi-siyasi atmosferi günün tələbləri səviyyəsinə gətirməkdən, onu sağlam əsaslarla zamanın həyati əhəmiyyətli çağırışına çevirməkdən getməlidir. Bu prosesdə din də, elm də, təbliğat-təşviqat vasitələri və KİV-də mümkün olanı etməlidir ki, insanı

yeniləşməkdə, qloballaşmaqda olan dünyanın məntiqinə öyrəşdirmək mümkün olsun. Əlbəttə, bütün prosesin hərəkətverici qüvvəsi kimi insanların bu ulu elmə – fəlsəfəyə münasibətinin dəyişməsi aparıcılıq təşkil etməlidir. Düzdür, bu uzun yoldur, amma onun çətinliyi və ziqzaqlı olması da ondan imtinaya qətiyyən səbəb ola bilməz, əks təqdirdə, K.Yaspersin yazdığı kimi, “fəlakət qarşısıalınmazdır”. Yaxud insanlığın total məhvi yalnız zaman məsələsidir!!!

Problemin qoyuluşundan çıxış edərək bildirək ki, fəlsəfə və din, fəlsəfə və həyat, insanların xoşbəxtliyi və firavanlığı Yer üzündə əbədi sülh və əmin-amanlıq məsələsi sivilizasiya tarixinin bütün mərhələlərində aktual olmuşdur, indi də belədir. Tarixən bəşəriyyətin sonda “ölüm və qalım” məsələsində mövcudluq və inkişaf naminə bu problemə sığınmaqdan başqa çarəsi olmamışdır. Bunu tarixin praktikası təkzibolunmaz surətdə sübut edir. Obrazlı desək, bu sual tarixin və sivilizasiyanın özü qədər qədimdir. Bu elə bir sualdır ki, daim istənilən formasiyada, istənilən ictimai-siyasi quruluşda aktual olmuş, fəlsəfi cərəyanların, filosofların, siyasi xadimlərin, elm və dövlət adamlarının, həm gündəlik həyatlarında, həm də nəzəri məsələlərində bu və ya digər şəkildə özünü göstərmişdir. Müasirlik kimi keşməkeşli epoxada bu problem özünü daha qabarıq şəkildə göstərməkdədir. Lakin etiraf olunmalıdır ki, bu problemin genezisində fəlsəfə və din qədər dinamik xarakterli ikinci bir problemi təsəvvür etmək də mümkün deyildir. Məsələn, F.Engels qeyd edirdi ki, fəlsəfə, ümumiyyətlə, orta əsrlərdə bu kimi əsas suallarla çıxış etmişdir: dünya Tanrı tərəfindən yaradılıb, yoxsa o əsrlərin mövcudluğundakı prosesdən yaranıb? [2, s. 5] Daha sonra filosof yazırdı ki, əslində, tarixən “fəlsəfənin əsas məsələsi təkcə orta əsrlərdən deyil, antik dövrlərdən zəmanəmizə qədər bu və ya digər dərəcədə dini problematika ilə əlaqədar olmuşdur” və hazırda da əksər məqamlarda belə də qalmaqdadır [2, 5]. Qeyd edək ki, hətta fəlsəfə meydana çıxana qədər də tarixi qaynaqlarda din barədə suallar bu və ya digər şəkildə - rəvayətlərdə, yazılı abidələrdə, müqəddəs mətnlərdə və s. - həmişə olmuşdur. Bu mətnlərdə icma vəziyyətində yaşayan insanlar müxtəlif kateqoriyalar kimi tövsiyə edilsə də, onların heç birində müasirlik qədər tam ideya və ideologiyalaşmış siyasi xarakterli motivasiyalar – insanları bir-birinə qarşı münaqişələrə, müharibələrə cəlb etmək, qarşı-qarşıya qoymaq kimi antibəşəri, antihumanist – insan əleyhinə və s. çağırışlar olmamışdır. Lakin tarixin bizə qədər olmuş, yaşanmış mümkün perspektivləri, onun baş tutmuş dinamikası, yeni şərtləri tarixi çağırış kimi aktuallıq kəsb etdiyi zamandan, din və fəlsəfənin yollarında ən sərt şəkildə haçalanmanın ortaya çıxması da inkaredilməzdir. Zira alman filosofu K.Yaspers hər iki fenomenə - həm fəlsəfə, həm də din fenomeninə orijinal yanaşmanın tərəfdarı idi. Ona görə də bu kimi problemdən bəhs etmək müasirlik üçün vacib işdir. Qərbdə bilik, fəlsəfə və din münasibətlərindən bəhs edən ən müxtəlif təmayüldən çıxış etdirilərək təfsir olunan bu kimi, oxşar xarakterli problem barədə tədqiqatlar mövcuddur və hazırda da davam etdirilməkdədir. Lakin F.Nitsşedən sonra dinə münasibət sanki kəskin dəyişmiş və onun yerini, daha çox, bilik, epistomoloji istiqamət tutmuşdur. Ünsiyyət, kommunikasiya, dil və metafizika kimi problemlərlə məşğul olan filosoflar sonralar yenidən din probleminə qayıtmağı vacib hesab

etdilər. Çünki mövcud sivilizasiyanın inkişafından söhbət gedərkən onun inkişafı və gələcəyi bu problemdən kənarda təsəvvür oluna bilməz. Bu tədqiqatlar içərisində həm obyektivlik, həm də orijinallıq baxımından alman filosofu K.Yaspersin din fəlsəfəsi xüsusilə fərqlənməkdədir.

K.Yaspersin ekzistensial görüşləri, istər onun ünsiyyət fəlsəfəsi, istər din fəlsəfəsi, istərsə də tarix barədə irəli sürdüyü nəzəriyyə (zaman oxu) daim araşdırılmağa layiq olan aktual mövzudur. Bizim böyük filosofun din fəlsəfəsinə müraciət etməyimiz təsadüfi deyildir. Güman edirik ki, onun ideyalarından öz nəzəri fikrimizdə istifadə edə bilərik. Lakin Yaspersin din fəlsəfəsi mövzusu çox genişdir, ətraflı araşdırılmağa layiq fundamental mövzudur. Ona görə də tədqiqatda mövzu ilə əlaqədar ilk dəfə ümumi xarakterli məsələləri qısa şəkildə nəzərdən keçirməyə məcburuq.

Fəlsəfə tarixini nəzərdən keçirərkən məlum olur ki, "fəlsəfə və din min illər boyu ya ittifaqdadır, ya da ədavətdə bir-birinə qarşı dururlar" [3, s. 636]. Tarixi proses nəticəsində din və fəlsəfə kəskin şəkildə bir-birindən ayrılmağa başladı; əslində, bu tarixi haçalanma idraki, elmi və s. ən müxtəlif axtarışlara rəvac verən bir prosesin başlanğıcı idi. Lakin K.Yaspersin qeyd etdiyi kimi, "ayrıldıqdan sonra din fəlsəfə üçün dərk edə bilmədiyi böyük sirrə çevirilir" [3, s. 636]. Bütün bunlar isə həqiqətdə yeni hadisə idi; tarix şəraitin həm ontoloji, həm də ki, praktiki variasiyasına adekvat olaraq yeni situasiyanı, yeni mübarizəni şərtləndirirdi. Ancaq biz istəsək də, istəməsək də, tarixin, fəlsəfə tarixinin, daha dəqiq ifadə etsək, fəlsəfənin məqsəd və təyinatından asılı olmayaraq, əsl həqiqətdə "fəlsəfə üçün bu mübarizə yalnız təkcə mənəvi vasitələrlə həqiqət uğrunda mübarizə kimi mümkündür" və belə də qalmaqdadır [3, s. 636]. Həqiqətən də, fəlsəfə tarixini nəzərdən keçirərkən görürük ki, fəlsəfi inamın predmet olmağa qabil olmayan suallar fəlsəfə tarixində ya olmamışdır, ya da olsa belə onlar ya dində, ya da ki, miflərdə mövcudluqlarını gizlətmişlər. Bu səbəbdən biz də belə bir fikrin tərəfdarıyıq ki, "fəlsəfə o zaman müasir və aktual olur ki, öz mühakimələrini yoxlayır" [5, s. 62], yaxud irəli sürülmüş mühakiməni fəlsəfi inamın predmetinə çevirərkən nə mifdə, nə də ki, etiqadi prinsiplərdə olduğu kimi, yoxlanılmada sirrə çevirmir. Başqa bir kontekstdən yanaşdıqda isə əslində, fəlsəfi inam, həm də inamın elə bir növüdür ki, o, hətta başqa inamların, o cümlədən suala sığmayan anlayışların, etiqadda gizlənmiş sirlərin özünü də sualın predmetinə çevirməkdə əbədi cəhddədir.

Bu kimi həqiqət də inkaredilməzdir ki, fəlsəfə tarixində "bir vaxtlar etika və dini əxlaq hökmranlıq edirdi, bu səbəbdən də filosoflar Kosmos və Mütləqin əbədi ədaləti barədə mühakimələr yürüdürdülər. Sonra fizika, biologiya, iqtisadiyyat hökmranlıq etməyə başladı və təbii olaraq "pozitiv fəlsəfə" meydana çıxdı [5, 62]. Bertrand Rassel qeyd edirdi ki, "elm bizim bildiklərimiz, fəlsəfə isə bilmədiklərimizdir" [6, s. 152]. Tofler isə hesab edir ki, "biz hazırda belə bir dövrə daxil oluruq ki, burada bilik güc, əxlaq və varidat (iqtisadiyyat) üzərində üstünlük saxlayacaqdır" [5, s. 62]. Lakin məsələ ondadır ki, "heç də hər bilik istənilən iyerarxiyanın dəyişkənliyini izah etmək iqtidarında deyildir" [5, s. 62]. Yaxud filosof üçün bu da fundamental

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

görüşdür ki, “biliyin dominantlığı hələ fəlsəfənin aktuallığı demək deyildir” [5, s. 62]. Yaxud biz görürük ki, bilik artdıqca dünyada şərin miqyası azalmaq əvəzinə artır. Bu, paradoksdur! Başqa sözlə desək, fəlsəfi inam inamın elə bir formasıdır ki, daim özünü biliklə bərabər, bilikdənkənar sualların da fövqündə, idraki axtarışda göstərir. Ona görə də fəlsəfi inamın əgər idraki cəhətdən riskli cəhdləri olmasaydı, ola bilsin ki, fəlsəfi refleksiyanın digər dünyagörüşlərdən, fənlərdən heç bir fərqi də olmazdı: fəlsəfi inam ya tamamilə rasionalizmin, hansısa anlamda seçilmiş statusda, ola bilsin ki elmin, yaxud da dinin və ya teologiyanın xidmətçiliyindən də başqa bir şey olmazdı. Hansı ki, tarix buna az şahidlik etməmişdir. Ancaq biz qəbul etsək də, etməsək də, başqa bir paradoks da vardır: din və elmin fəlsəfi inama qarşı tarixi inamsızlığını, etimadsızlığını təfsir edərkən K.Yaspers qeyd edirdi ki, hər iki sahənin təmsilçisindən həyatda nədən çıxış etməli və nəyə doğru getməli olduğumuzu soruşsaq, dindar deyəcəkdir ki, vəhyə inamdan, çünki ondan kənarda – yalnız nihilizm vardır; elmi təmsil edənlərin fikrincə, ağıldan, elmdən kənar yalnız illüziya vardır və israr edəcəklər ki, haçansa fəlsəfə elmlərə doğru yol idi. İndi isə o, teologiyanın qulluqçusu ola bilər [3, s. 583]. Hər iki münasibətdən görünür ki, əsl həqiqətdə bu kimi yanaşmalar, bir növ, şablonlaşdırmadır. Yaxud fəlsəfənin üç min illik mövcudluğu bu fikirlərin nə qədər yanlış olduğunu sübut etməkdədir. K.Yaspersin təbirincə desək, “tələsik çıxarılmış hər iki alternativ – vəhyə inam və ya nihilizm, total elm və ya illüziya – Tanrının bəxş etdiyi məsuliyyətdən insanı məhrum etmək və tabeçiliyə gətirmək, qəlbləri qorxutmaq üçün döyüş vasitələri kimi istifadə olunurlar” [3, s. 584]. Bu, “döyüş vasitələrinin” tüğyanı kontekstində isə ünsiyyət və dialoq fəlsəfəsi sanki qeyb olur.

Göründüyü kimi, fəlsəfə bu kimi məsələlərdə hansısa şablonlaşdırma cəhdlərinə qətiyyən sığa bilməzdi, bu isə fəlsəfənin, fəlsəfi həqiqətin əbədi üstünlüyü kimi qeyd olunur. Fəlsəfə və dinin qarşılıqlı təfsirindən çıxış edərkən K.Yaspers yazırdı**:** “Əbədi dini həqiqət barədə danışmayacağam. Fəlsəfi həqiqətsə, öz mülkiyyəti kimi heç kəsin iddia edə bilməyəcəyi, amma hər halda hər bir filosofluq edənə vacib olan və həqiqətən, filosofluq edilən hər yerdə olan “philosophia perenius”-dur (latıncadan tərcümədə “əbədi fəlsəfə” deməkdir – Ş.Z.)” [3, s. 636]. Lakin bütün bu kimi mülahizələr din və fəlsəfənin həm də hansısa məqamlarda ortaq başlanğıc uğrunda mübarizədə olmaları kimi tarixdən bəlli olan mülahizələri də silə bilmir. Məsələn, neotomistlər israrla sübut etməyə çalışırlar ki, teologiya da, fəlsəfə də, elm də, eyni məqsədə – Allahın dərkinə xidmət edir. Onların hər biri Allahın dərkinə aparan müxtəlif yoldur [7, s. 347]. Din və fəlsəfənin qarşılıqlı münasibətindən, tarix və varlıq uğrunda izahetmədəki əbədi mübarizəsindən çıxış edərək Yaspers yazırdı: “onların hər ikisi özünü tarixin qiyafəsi, eyni zamanda, bu həqiqəti həm gizlədən, həm də bildirən əbədi həqiqətə münasibətdə qəbul edirlər” [3, s. 636]. Bu fundamental mülahizə, heç şübhəsiz, tarixi situasiyadan çıxış edir və tarixi prosesdə həqiqəti aydınlığı ilə ifadə etmək üçün çox anlaşılan izahetmə kimi də qəbul edilə bilər. Fəlsəfi həqiqətin gücü və sarsılmaz nüfuzu ondadır ki, o, həm elmdən, həm də dindən hansısa məqamlarda həssaslıqla ayrıla bilir, hətta bəzi məqamlarda belə ayrılmadan

sübut edə bilir ki, fəlsəfə bir qayda olaraq, etiqad xarakteri alan müddəalarda yox, bütövlükdə həyata nüfuz edən (onu canlı və mənalı Ş. Z.), həyat edən əlaqələrdə cəmlənir [3, s. 586]. Fəlsəfə heç zaman predmetini, digər sahələrdən fərqli olaraq predmetə – suala, fəlsəfənin kateqorial aparatına gəlmədiyi üçün **“boş** və **mənasız”** hesab edərək inkar etmir. Əksinə, hətta inkar edərkən belə, başqa bir fəlsəfi cərəyanla aydınlaşmaya – həqiqətin ortaya çıxarılması üçün qarşıdurmaya, yeni, əvvəllər məlum olmayan, sitiuasiyalar yaradan prosesə - cəlb olunur. (Məsələn, materialistlər və idealistlər, ateistlər və teistlər, praqmatistlər və ekzistensialistlər, tomistlər və neotomistlər və b. olduğu kimi). Praktik müasir vəziyyətə müraciət edək.

Müasir sivilizasiya mənzərəsinin biz praktik mozaikasını təsvir etmək istəyərkən görürük ki, dünya dinlərinin yaranması və onların vahid ideologiyaya çevrilməsi insanlararası münasibətlərdə yeni-yeni ziddiyyətlərə, çəkişmələrə görünməmiş imkanlar yaratmışdır. Tarixi dinamikaya nəzər etdikdə aydın olur ki, dünya dinlərin formalaşması ilə insanlararası münasibətlərdə mürəkkəbləşmə, qarşılıqlı mübarizə özünü daha geniş şəkildə göstərmişdir. İlkin dövrlərdə insan ruhunu əzab-əziyyətdən xilas etmək, insanın fiziki dünyada təzadlı həyatına “sakitlik” və stabillik gətirmək, axirət inamını formalaşdırmaq, təsdiqləmək, insanı təbiətlə harmoniyada yaşamaq kimi humanizm prinsipləri ilə **“silahlandıran”** dinlərin sonradan siyasiləşdirilməsi tarixi prosesi daha da mürəkkəbləşdirmişdir. Yer üzündə əhalinin artımı, iqtisadiyyatın genişlənməsi bu mübarizələrdə yeni ideoloji və dini-siyasi mərkəzlərin əmələ gəlməsi ilə nəticələnmişdir. Yaranmış yeni şəraitdə bu siyasi-ideoloji-dini mərkəzlər və onlara söykənərək öz nüfuzlarını möhkəmləndirməyə çalışan sivilizasiyalar, dövlətlər, cəmiyyətlər, fərdlər artıq dünyada təkcə yaşamaq – qida, qənimət, var-dövlət, yeni münbit torpaqlar əldə etmək və s. kimi maddi hədəflər uğrunda deyil, ideya və ideologiyalar, müqəddəs hesab etdikləri mənəvi dayaqlar naminə də canlarından keçməyə hazır idilər. Nəzəri cəhətdən yanaşdıqda isə əslində, bu, tarixin yeni bir mərhələsi – sivilizasiyalılıq, dini sivilizasiyalılıq mərhələsi idi, hansı ki, bu problemlər bu gün də aktuallıq kəsb edir.

Monoteist dinlərin – İudaizm, Xristianlıq, xüsusilə İslamın meydana gəlməsindən sonra din barədə nəzəri məsələlərin izahına, dini dünyagörüşün və ümumiyyətlə, din-cəmiyyət, din-elm, din-fəlsəfə, din-insan, din-kainat, din-metafizik aləm və s. anlayışların qarşılıqlı təsvirinə, şərhinə minlərlə külliyyat, izah, şərh, elmi-fəlsəfi traktat, fəlsəfi ontologiya həsr olunmuşdur. Tarixin müxtəlif dövrlərində dini varlığın fövqünə qaldıranlar da olmuşdur, indi də vardır, onu elmin, maarifin, bir sözlə, mədəniyyətin, sivilizasiyanın düşməni kimi göstərənlər də olmuşdur, indi də vardır. Hətta paradoksal olsa da, zaman və məkan konteksti nəzərə alınarsa, bütün bu insani mövqeləri, fəlsəfi baxımdan varlığın realizə prosesi kimi qəbul edərək təbii saymaq da olar, saymamaq da. Hər halda, bu, inkar edə bilməyəcəyimiz tarixdir, K.Yaspersin “varlığın açılması” prosesini şərtləndirən hadisə kimi izah etdiyi tarix; dinin və fəlsəfənin əbədi ittifaqda, bəzən də toqquşmalarda olduğu tarix. Dünyada baş verən proseslər göstərir ki, hətta tarixən necə qiymətləndirilməsindən asılı olmayaraq, müasir dövrdə də din cəmiyyəti qurmağa

xidmət etdiyi qədər onu dağıtmağa da mənbə olacaq bir qüvvəni özündə saxlamaqdadır! (Əsl həqiqətdə isə bu ifrat maraqların və yanaşmaların nəticəsidir). Bu isə bilavasitə fəlsəfənin problemidir. Ona görə problem mövcuddursa, onun izahından bəhs etmək aktual və vacibdir.

Elm və texnologiyanın, informasiya kommunikasiya əlaqələrinin pik dövrü kimi xarakterizə edildiyi XXI əsrdə dinin yenidən aktuallaşması bu anlayışa, demək olar ki, dünya miqyasında marağın artması ilə xarakterizə olunur. Paradoks ondadır ki, tarixin ziqzaqlı dinamikasında insanın mənəvi aləmini sarsıdan ən müxtəlif proseslərin baş verməsi - müharibə, terror, aclıq və yoxsulluq, ekoloji böhranlar, ən müxtəlif xəstəliklər və s. kontekstində dinin humanist prinsipləri ilə bərabər elmin, yeni yaranan texnologiyaların yüksək həddə qədər inkişafı belə, hətta yeni yaranmaqda olan insan tipinin, müasir "yeni ağıllı insanın" ruhi-mənəvi aləminə sakitlik, harmoniya, sevinc, bütövlükdə insanlığın həyatına əmin-amanlıq gətirə bilmir; bu və bu kimi silsilə problemlər kontekstində, insanlararası münasibətlərdə ən ifrat qütübləşmələr yaranır, radikalizm, irqçilik, etnik, dini, məzhəbi və s. münaqişələr sürətlə genişlənir; başqalarının etiqadını inkar üzərində dinlər aktuallaşır, yaxud qərəzli maraqlar istiqamətində aktuallaşdırılır.

Ən problemli cəhət ondadır ki, belə problemlər fövqündə fəlsəfə önə çıxmaq istərkən paradoks alınır: onlar – həm din, həm də elm və hətta siyasət tərəfdarları "hörmətə layiq ənənələr çərçivəsində yol göstərmək istəyən fəlsəfəçiləri, ardıcıl surətdə məzkur alternativlərdən çıxış edərək, ya nihilist, ya da ki illüziyaya mübtəla şəxslər sayırlar" [3, s. 584]. Bu miskin və şər saçan, həyatdan küskün düşmüş obraza uyğun gəlməyəndə isə filosofları "yarımçılıqda, ardıcıl olmamaqda, mənasız maarifçilikdə həyata yad olmaqda qınayırlar, özü də bütün bu qınaqlar həm vəhyə inamın barışmaz tərəfdarları, həm də xurafata çevrilmiş elm havadarları tərəfindən edilir" [3, s. 584] Bu faktdır və ya fəlsəfəyə qarşı aparılan ədalətsiz mübarizədir. Lakin müdriklər anlayır ki, hər hansı formal yanaşmalardan asılı olmayaraq, fəlsəfədən üz döndərmək qətiyyən işə yaramaz. Bütövlükdə, bəşəriyyətin tarixi sübut etmişdir ki, "fəlsəfə – insan həyatının möcüzəsi, qeyri-adi konsolidasiya qüvvəsinə malik bir sənətdir; o, intellektual fəaliyyəti tənzimləyir, həyata prinsip, qanun, normalar sistemi verməklə ona bir harmoniya gətirir... Fəlsəfənin möcüzəsi – ruhun, zəkanın rasional fəaliyyətin möcüzəsidir" [8, s. 12]. O, Yer üzündə davamlı mövcudluğun, inkişafın hərəkətverici qüvvəsi, oriyentasiyasıdır. Burada elmə, rasionallığa, emprizmə, praqmatizmə, pozitivizm və ateizmə yer olduğu kimi, irrasional anlayışa, transdensiyaya, metafizik aləmə, dinə, ən müxtəlif dünyagörüşlərə də yer vardır. Başqa sözlə, əgər söhbət *"Varlığın açılması"* prosesindən gedirsə, burada baş verən hər hansı ontoloji, qnoseoloji və ya antropoloji variativlik inkar və ya qütblülük kimi deyil, prosesin vacib hərəkətverici qüvvəsi kimi nəzərdən keçirilməlidir. Məsələ ondadır ki, ayrı-ayrılıqda elm, teoloji, ateistik, praqmatik, pozitivist, aqnostik və s. yanaşmalardan fərqli olaraq, bütövlükdə filosofluqda, yaxud fəlsəfəçilikdə əksər məqamlarda elə bir qüvvə - "hər şeyi özündə ehtiva etməyə" yönəlik bir ortaq məxrəc vardır – gizlənmişdir və o, bütün bu proseslərin ontoloji,

antropoloji, psixoloji, və s. laylarından bəhs etməklə daim onları uzlaşdırmağa çalışmaqdadır. Hələ orta əsrlərdə "Petrirka deyirdi ki, fəlsəfəni elmə müncər etmək "ağanı nökərə tabe etdirmək" kimi bir şeydir. İmperator M.Avreli yazırdı ki, insan unutqan məxluqdur, fəlsəfə onun başı üstündə duraraq onu daim özü olmağı – insan olduğunu unutmamağı xatırladan bir sənətdir" [8, s. 14]. Başqa bir kontekstdən baxdıqda isə fəlsəfəçiyə o həqiqət də məlumdur ki, filosofun **"mən niyə mövcudam?", "nə** üçün?", **"şüur nədir?"** və s. sualı qədər "dinin nə olması məsələsi" də idrakın ən aktual problemi kimi öz möcüzəsini saxlamaqdadır. Ekzistensial fəlsəfənin meydana çıxma səbəbləri də məhz bu kimi problemlərin həlli, daha doğrusu, onlara cavab axtarmaq baxımından çox aktual hesab edilməkdədir. XX əsr Qərb fəlsəfəsində baş verən ecazkar refleksiya və fəlsəfi impulsları nəzərdən keçirərkən məlum olur ki, dünyanı izah edərkən "Öz fəlsəfi arqumentasiyalarında neopozitivistlər harada dayanır və nəyi unudurlarsa, ekzistensialistlər oradan başlayır və onların cavabsız qoyduqları problemləri" [7, s. 285] qabartmaqla müasir dünyada insanın daxili aləminə, onun dünyagörüşündəki, oriyentasiyasındakı sapmalara, dini təfəkküründən tutmuş, elmi əqidəsinə kimi ən müxtəlif sferalara nüfuz etməklə **"insanı xilas etmək"** istəyirlər. Bu baxımdan alman filosofu K.Yaspersin din, kommunikasiya və ünsiyyət fəlsəfəsi, ümumiyyətlə, filosofun dünya, din, varlıq, tarixi transdensiya haqqındakı orijinal fikirləri, mülahizələri bizim üçün də son dərəcə cəlbedici qüvvəsini, həyati əhəmiyyətli qüvvəsini daima saxlamaqdadır. Müasir epoxanın paradoksallığı ondadır ki, digər kontekstdən, məhz, həqiqi mənəvi tələbat kimi dinlərin aktuallaşmasına da yenidən mənəvi tələbatlar yaranmışdır; həm də kimlər üçünsə bu boşluqda maraqlara, ən müxtəlif radikallıqla xidmət edən ideoloji yeni "tələbatlar" yaranmışdır. Bu kimi məsələlər isə göstərir ki, dinin nə olması məsələsi insanın, "varlığın açılması" məsələsi qədər fundamental bir problemdir, zira fəlsəfə ona biganə qala bilməz.

Yuxarıda toxunulan problemdən çıxış edərək qeyd edək ki, bu problemlər, heç şübhəsiz, fəlsəfəni düşündürən, həm də müasir reallıqda ona tələbatı son dərəcə artıran məsələlərdəndir. Belə bir şəraitdə dünyada ziddiyyətlərin tüğyanı kontekstində dinlərə, xüsusilə, İslam dininə qarşı aparılan mübarizələr fonunda etiqad prinsiplərinə olan mənəvi tələbatlar və s. din barədə sualları yenidən aktual etməkdədir. Xüsusilə, İslami monoteizminin başqa dünya dinlərinə nisbətən yenidən hər iki mənada aktuallaşması "dinin nə olması məsələsini" nəzəri baxımdan yeni sual kimi ortaya qoyur; bu tarixi fenomenin izahını yenidən aktuallaşdırır. Başqa sözlə, ateizmin, praqmatizmin, pozitivizmin və hətta dinə daha **"doğma"** olan həyat fəlsəfəsinin, (Nitsşe fəlsəfəsi – "həyat fəlsəfəsindən" çıxış etsə də, dinin əsaslarını darmadağın etmək üzərində qurulmuşdur – əslində, dini xurafatın) ekzistensializmin və s. cərəyanların bütövlükdə **"uğurları"** fonunda din məsələsi tarixən olduğu kimi, yenə də cəmiyyətdə öz aktuallığını, bəzi hallarda hətta önşərtililiyini qorumaqdadır. Bu isə "din", deməli, ekzistensiya, kommunikasiya və dialoq fenomeninin Şərq, o cümlədən Qərb təfəkkürü üçün ortaq bir araşdırma predmeti olmaqla yanaşı, onun ən müxtəlif incəliklə, yeni yanaşma üsulları ilə,

multidissiplinar, hermenevtik və s. kontekstdən "dialoq fəlsəfəsi" müstəvisində predmet kimi araşdırılmasını tələb etməkdədir.

Bütün bunlarla yanaşı, unutmamalıyıq ki, fəlsəfənin, biliyin, dinin, elmin dünyada işi və vəzifəsi insana, insanlığa, bəşəriyyətə humanizmə xidmətdən kənar dərk edilə bilməz. Əks təqdirdə, onlar daima kimlər üçünsə əbədi "bütə" çevrilərək, insanı insandan kənar bir varlıq kimi təfsir etməyə yönəldiləcəkdir; bu "təfsirlər" insanı həmişə təqib etməklə onu şizoid halına salacaq, fərdin və cəmiyyətin "özgələşmə" problemini daha da dərinləşdirəcəkdir. Zira tarix buna az şahidlik etməmişdir. Ona görə də bu sahələrin və həyatı həyat etməyə, insanı dünyada mənalandırmağa çalışan ən müxtəlif digər elmi və humanitar tədqiqat sahələrinin heç birini ***dialoq fəlsəfəsindən*** kənarda dərk etmək mümkün deyildir. Unutmamalıyıq ki, *"başı* üzərində" dayanmış insanı özünün normal halına – ayaqları üstünə qaytarmaq üçün ortaq bir yol varsa, bu yol fəlsəfi təfəkkürə dönüşdən, humanizm və dialoji idraka apelyasiyadan keçir.

Ümidverici məqamlardan biri odur ki, ölkəmiz bütün bu kimi bəşəri keyfiyyətlərin həyata keçirilməsi – humanizmin təbliği və dialoq fəlsəfəsinin həyata keçirilməsi istiqamətində dünyada çox geniş, hətta deyərdim ki, müqəddəs və son dərəcə həyati əhəmiyyətli işlər aparır: tarixin müasir çağırışlarına humanizm fəlsəfəsindən çıxış edərək müsbət reaksiyalar verir. Bu ilin oktyabr ayının 25-26-da Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forumunun mövzusunun "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" kimi təsbit edilməsi və onun iştirakçılarının geniş miqyası göstərdi ki, Azərbaycan Respublikasının humanitar sahədə dünyada apardığı möhtəşəm işlər artıq öz bəhrəsini verməkdədir. Bu sahəyə diqqət artır, mədəniyyətlər, sivilizasiyalar, dinlər arasında baş verən dialoqlar daha da genişlənməklə insan inkişafına öz töhfələrini verir. VI Beynəlxalq Humanitar Forumun açılış nitqində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir" [9].

Daha sonra Azərbaycanın dövlət başçısı ölkəmizin həyata keçirdiyi dünya miqyaslı platformaların beynəlxalq əhəmiyyətindən bəhs edərək demişdir: "Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. "Bakı Prosesi" beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə,

ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər" [9].

Sonda bir məqamı xüsusilə vurğulamaq lazımdır: Bir çox dünya alimlərinin, siyasətçilərinin, elm və din xadimlərinin, ziyalıların dönə-dönə qeyd etdikləri kimi, hazırda Azərbaycanın paytaxtı, həqiqətən də, sivilizasiyaların və mədəniyyətlərin dialoqu üçün ən stabil və məhsuldar ideyaverici "dialoq platformasına" – əlverişli məkana çevrilmişdir. Bütün bunlar isə ölkəmizin siyasi rəhbərliyinin, Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun çoxsahəli, məhsuldar fəaliyyəti, gərgin əməyi, yaradıcı ideyaları, rasional və praqmatik siyasəti nəticəsində mümkün olmuşdur və yalnız bir ülvi məqsədə xidmət edir: dünyada sülh və əmin-amanlıq bərqərar olsun, bilik, fəlsəfə və din, sözün həqiqi mənasında, humanizmin, dialoq fəlsəfəsinin müdafiəçisinə çevrilsin, multikulturalizm, tolerantlıq bütün dünyada insanın inkişafına xidmət etsin, Yer üzündə hər bir insanın, hər bir cəmiyyətin ruhuna hakim olsun, kommunikasiyanın, dialoq mədəniyyətinin hərəkətverici qüvvəsi kimi çıxış etsin!!! Bütün bu strategiya Ulu Öndər Heydər Əliyevin bizə tövsiyəsi idi: bu amala xidmət etmək hər birimizin vəzifəsidir, borcudur!

## ƏDƏBİYYAT


1. Печчеи А. Человеческие качества. М.: 1980, 302 с.
2. Современная буржазная философия и религия. Под. Ред. А. С. Богомолова. М.: Политиздат, 1977. 376 с.
3. Yaspers K. "Tarixin mənası və təyinatı". Bakı: "Zəkioğlu", 2008, 764 s.
4. Hüseynov S. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı "Adiloğlu" nəşriyyatı – 2003, 264 s.
5. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı: "Təknur", 2012, 216 s.
6. Bertran Rassel. Fəlsəfənin problemləri. Bakı: "Qanun", 2017, 168 s.
7. İsmayılov F. Seçilmiş əsərləri. Beş cilddə, I cild. Bakı: 2011, 576 s.
8. İsmayılov F. Müqəddəs od yaxud fəlsəfənin fəlsəfəsi. Bakı: "Elm və təhsil", 2015, 544 s.
9. https://president.az/articles/30430
10. Zeynalov Ş. "Dialoq fəlsəfəsi" Bakı: "Avropa", 2017, 304 s.

Шолят Зейналов

## ФИЛОСОФИЯ И ЗНАНИЯ КАК ДВИЖУЩАЯ СИЛА УСТОЙЧИВОГО РАЗВИТИЯ ЧЕЛОВЕКА

### РЕЗЮМЕ

XXI век затрагивает самый важный вопрос в мире: либо изменение, либо продолжение катастрофы цивилизации: хотя каждая из долгосрочных целей устойчивого развития ООН звучит как призыв времени, жаль, что во многих случаях, это невозможно в мире из-за разных «интересов». Все это показывает, что не только в институциональном аспекте говорить об устойчивом развитии является лишь частью работы; процесс показывает, что, пока современный человек нигилист в философии, его мировоззрение не выйдет из пределов предрассудков и негативных склонностей, не уменьшит его трагедию. Философия и религия, философия и жизнь, счастье и процветание, вопрос о вечном мире и безопасности в мире неотложен на всех этапах цивилизации, но его решение исторически было проблемой. Автор указывает, что в контексте всех этих проблем необходима возможность перехода людей в философию, экзистенциализм, веру и философию диалога. В противном случае «катастрофа непреодолима».

Sholat Zeynalov

## PHILOSOPHY AND KNOWLEDGE AS THE DRIVING FORCES OF SUSTAINABLE HUMAN DEVELOPMENT

### SUMMARY

The 21st century touches on the most important issue in the world: either the change or the continuation of the catastrophe of civilization: although each of the long-term goals of sustainable development of the UN sounds like a call for time, it is unfortunate that in many cases, this is impossible in the world because of different “interests”. All this shows that not only in the institutional aspect of talking about sustainable development is only part of the work; the process shows that, as long as the modern person is a nihilist in philosophy, his worldview will not come out of the limits of prejudices and negative inclinations, will not diminish his tragedy. Philosophy and religion, philosophy and life, happiness and prosperity, the question of eternal peace and security in the world is not urgent at all stages of civilization, but its solution has historically been a problem. The author points out that, in the context of all these problems, the possibility of people’s transition to philosophy, existentialism, faith and the philosophy of dialogue is necessary. Otherwise, the “catastrophe is insurmountable”.

# TERROR, DİN VƏ SİYASƏT

## *İkili standartlar və reallıqlar*

**Sadiq MİRZƏYEV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin*
*Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri*

***AÇAR SÖZLƏR:*** *terror, din, İslam, islamafobiya, dini motivli terror.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *террор, религия, ислам, исламофобия, религиозно мотивированный террор.*
***KEY WORDS:*** *terror, religion, Islam, Islamophobia, religiously motivated terror.*

### *Giriş*

Bir sıra Qərb kütləvi informasiya vasitələri "müsəlmanlar" tərəfindən törədilən terror aktlarını İslam dini ilə əlaqələndirdiyi üçün beynəlxalq aləmdə belə bir imic formalaşdırmışdır: İslam terror dinidir, bütün müsəlmanlar terrorçu olmasalar da, bütün terrorçular müsəlmandır. Bunun nəticəsidir ki, Qərbdə islamofobiya meyilləri vüsət almışdır. İslam və müsəlmanlarla bağlı dünyada, xüsusilə Qərb cəmiyyətlərində yanlış təsəvvürlərin yaranmasının əsas səbəblərindən birinin məlumatsızlıq, informasiya qıtlığı, eləcə də birtərəfli və qərəzli informasiya axınıdır. Bunu avstraliyalı jurnalist Peter Manninq "Biz və onlar" adlı əsərində aydın göstərmişdir: "Təcrübəm mənə deyir ki, ərəb və müsəlman avstraliyalıların gündəlik həyat tərzi ilə bizim - Avstraliya mediasındakı təqdimat arasında böyük uçurum var. Belə ki, iki böyük qəzetdən götürülmüş nümunələr əsasında, demək olar ki, "zorakılıq", "ölüm", "hücum", "qətl", "intihar", yaxud "cani", "qatil" kimi sözlərin işlədilmə hallarının 60 faizi "ərəb", "fələstinli", "müsəlman", yaxud "İslam" kimi sözlərə çox yaxın çalarlardır" [1]. Belə olduğu halda, niyə insanların çoxunun İslamı terrorizmlə assosiasiya etməyə vadar olduğu anlaşılır. Buradan da göründüyü kimi, medianın müsəlmanlar barəsində məqsədli şəkildə birtərəfli və qərəzli informasiya siyasətinə üstünlük verməsi məlumatsız kütlələrdə İslam sivilizasiyası ilə bağlı neqativ düşüncələrin formalaşmasına səbəb olur. Bu məlumatsızlıq aparılan sosioloji sorğular nəticəsində də üzə çıxmışdır. Avstraliyada aparılan sorğudan məlum olmuşdur ki, bu ölkə əhalisinin hər üç nəfərindən biri İslam və onun mənsubları olan müsəlmanlar haqqında heç bir bilgiyə sahib deyil [2].

Faktlar da göstərir ki, kütləvi qırğınlara səbəb olan terror hadisələri, əsasən, müsəlman ölkələrində törədilmişdir. Nəticədə, yüzminlərlə müsəlman – uşaq, qadın, qoca – öldürülmüş, milyonlarla müsəlman isə öz doğma vətənlərindən didərgin düşərək yad ölkələrə sığınmaq məcburiyyətində qalmışdır.

Əslində, bu gün müsəlman dünyasında yaradılan terror problemi süni xarakter daşıyır. Problemin qaynağı İslam deyil və o, məsuliyyət də daşımır. Bu, İslamı terrorun qaynağı kimi göstərən bəzi dairələrin müsəlman dünyasında həyata keçirdikləri siyasətdir. Həmin dairələr tərəfindən müsəlmanlar arasında etnik və məzhəb qarşıdurmasına rəvac verilir. Bütün baş verənlərə baxmayaraq, İslam dini səbəbi nə olur-olsun hər cür terrora qarşıdır. Çünki din və terrorizm bir-birinə zidd anlayışlardır. Dini radikalizmi və zorakı ekstremizmi hansısa dinə şamil etmək absurddur. Heç bir din bu cür “mübarizəni” qəbul etmir. Lakin tarixə nəzər salsaq, bütün dövrlərdə din adından qanlar axıdıldığının şahidi olarıq.

Beləliklə, məqalədə müasir dünyanın bəlasına çevrilmiş terror anlayışı, onun mahiyyəti, məqsəd və formaları, dinlə terrorun hər hansı əlaqəsinin olub-olmaması, o cümlədən İslam dininin terrora münasibəti barədə məlumat veriləcəkdir.

### *Terror anlayışı və ona münasibət*

Terrorla bağlı istər mütəxəssislər, istərsə də dövlətlər tərəfindən qəbul edilmiş ortaq bir tərifin olmaması “nəyi terror hesab etmək olar?” problemini ortaya çıxarmışdır. Çünki bir nəfərin törətdiyi eyni əməldən ötrü bir tərəfdə qəhrəman, digər tərəfdə isə ən qatı cinayətkar kimi qələmə verilməsi müasir dünyanın dəhşətli bəlasının həllini və onunla mübarizəni çətinləşdirir. Terrorun ən təhlükəli problemlərdən biri olaraq qəbul edilməsinə baxmayaraq, razılaşdırılmış tərifin olmaması ciddi çatışmazlıq kimi görünür. Əsas məfhumlar üzərində anlaşılmazlıq hər kəsin öz ideoloji quruluşu çərçivəsində həll yolları axtarışına, bu səbəbdən müxtəlif yanaşmaların ortaya çıxmasına gətirib çıxarır. Məhz siyasi, ideoloji və dini mənbələrdən yararlanan bu yanaşma fərqliliyinə görə terrora yüz doxsandan artıq tərif verilmişdir [3].

Latın dilindən tərcümədə “qorxutmaq”, “gözdağı vermək”, “həzm etmək”, “ürkütmək”, “narahat etmək” kimi mənalara gələn “terrere” sözündən törəyən müasir “terror” məfhumu ilk dəfə 1789-1794-cü illər fransız inqilabı ilə bağlı meydana çıxmışdır. Fransada 1793-cü ildə qurulan və 13 ay davam edən yakobinlər diktaturası tərəfindən terrordan iqtidarı əldə saxlamaq və gücləndirmək üçün siyasi taktika kimi istifadə edilmişdir. Yakobinlərin iqtidardan getməsindən sonra isə minlərlə insanın həyatı bahasına başa gələn bu dövr “terror dövrü” adlandırılmışdır [4].

Fransa inqilabından sonra terror anlayışının əhatə dairəsi xeyli genişlənmişdir. Günümüzdə terrorizm məfhumuna konkret yanaşma mövcud deyil. Məsələn, 1934-cü ildə nəşr olunmuş “Sosial elmlər ensiklopediyası”nda terrorizm mütəşəkkil qrupların və partiyaların qarşılarına qoyduqları məqsədə çatmaq üçün tətbiq etdikləri sistemli zorakılıq kimi izah edilir. Amerikalı professor Riçard Falk isə mənəvi və hüquqi bəraəti mümkün olmayan istənilən zorakılığı terrorizm adlandırır. ABŞ-ın özündə də dövlət səviyyəsində terrorizmə üç yanaşma mövcuddur:

1) ABŞ Dövlət Departamenti tərəfindən, əsasən, ictimaiyyətin diqqətini cəlb etmək üçün mülki obyektlərin hədəf seçilərək məhv edilməsi terrorizm adlandırılır;

2) Federal Təhqiqatlar Bürosu terrorizmi hökuməti, mülki cəmiyyəti hər hansı bir şeyə məcbur etmək üçün şəxslərə və mülkiyyətə qarşı qeyri-qanuni güc tətbiqi kimi izah edir;

3) ABŞ Müdafiə Departamenti isə terrorizmi hər hansı siyasi, dini və ideoloji məqsədlərə çatmaq üçün hökumətə, yaxud mülki birliklərə qarşı əvvəlcədən planlaşdırılmış qeyri-qanuni təhdid və ya güc tətbiqi kimi nəzərdən keçirir.

BMT-nin terrorizmə yanaşması daha ümumi xarakter daşıyır: terror - dinc əhali arasında qorxu və inamsızlıq yaratmaq məqsədilə törədilən zorakılıq aktlarıdır. Avropa İttifaqı isə terrorizmə bu cür tərif verir: “Terrorizm hər hansı cəmiyyəti, hökuməti, beynəlxalq təşkilatı ciddi şəkildə təhdid edərək, onların müəyyən hərəkətlərinin, fəaliyyətlərinin qarşısını almaq, yaxud dövlətin, beynəlxalq təşkilatın siyasi, iqtisadi, sosial və konstitusion bazasını darmadağın etməkdir” [5].

Bir çox filosof, alim, siyasətçi, mütəxəssis tərəfindən terror və terrorizm anlayışına yüzlərlə tərif verilsə də, terror konsepsiyasının izahı ilə bağlı dörd əsas yanaşmanın mövcudluğundan bəhs etmək olar:

1) *akademik, elmi yanaşma*: elm insanları zorakılıq və terror faktına vətəndaş, ideoloq və təhlükəsizlik mütəxəssisi kimi deyil, tədqiqatçı kimi yanaşırlar;

2) *rəsmi yanaşma:* dövlət orqanları terror mövzusuna təhlükəsizlik mövqeyindən baxırlar. Onlar terror anlayışını siyasi hədəflərə çatmaq məqsədilə insanların həyatına və mülkünə edilən təcavüz və cəmiyyətdə qorxu yaradan fəaliyyət kimi dəyərləndirirlər;

3) *medianın yanaşması:* media terror hadisələrinin baş vermə səbəbindən daha çox, nəticəsinə diqqət çəkir. Daha bir məqam ondan ibarətdir ki, bəzən bir KİV-in terrorçu kimi təqdim etdiyi qrup digər mətbu orqan tərəfindən “azadlıq mücahidi” kimi təqdim olunur. Bununla da cəmiyyətdə ziddiyyətli fikirlərin formalaşmasına səbəb olurlar.

4) *şiddət tərəfdarlarının yanaşması:* siyasi məqsədlərinə nail olmaq üçün müxtəlif növ zorakılığa əl atan bu cür qruplaşmalar fəaliyyətlərini qanuni sayır və özlərini “azadlıq döyüşçüləri” kimi təqdim edirlər. Onlar şiddət hərəkətlərini legitimləşdirməyə və terroru cinayət kateqoriyasından çıxarmağa cəhd göstərirlər [4].

### *Din-terror əlaqəsi*

Müasir dövrdə din adından istifadə edərək dünyanın bir çox bölgəsində törədilən terror hadisələri qlobal problemə çevrilmişdir. Din ilə terror arasında əlaqənin olub-olmaması tarixən müzakirə edilmişdir və bu gün də edilir. Bu baxımdan hər iki məfhum arasında əlaqənin olması istiqamətindəki yanaşmalar “dini terror”, yaxud “dini motivli terror” anlayışlarını ortaya çıxarmışdır. “Din” və “terror” anlayışlarının yanaşı işlədilməsi və din adından törədilən terrorlar “din terroru dəstəkləyir” qənaətini gücləndirmişdir [6]. Bunun da səbəbi dinin terrorla

tamamilə əks qütblərdə dayanmasına baxmayaraq, özlərini dindar kimi qələmə verən fərdlərin, ya da qrupların din pərdəsi altında terrorçuluq fəaliyyəti ilə məşğul olmasıdır. Bu da istər-istəməz dinin terroru qidalandırdığı, dəstəklədiyi düşüncəsinə gətirib çıxarır. Əslində isə din cəmiyyətdə terror mühitinin meydana gəlməsinə dəstək vermir, əksinə, toplumda sülhün, əmin-amanlığın, dözümlülüyün bərqərar olmasına çalışır. Din fərdi və ictimai baxımdan sülhün, sabitliyin mənbəyi, sosial inteqrasiyanın güclü vasitəçisi, sağlam cəmiyyətin qurulmasını təşviq edən bəşər sivilizasiyasının əhəmiyyətli dirəyidir. Beləliklə, dini motivli terrorun bir şəxsin və ya qrupun etdikləri zülmə haqq qazandırmaq üçün mənsub olduqları dinin adından sui-istifadə etmələrinin bir nəticəsi kimi ortaya çıxdığını demək mümkündür. Bu baxımdan din və terror sözlərini yanaşı işlətmək *("dini terror")* və din adından törədilən terrorları *"dinin terroru dəstəkləyir"* şəklində təqdim etmək doğru deyil. "Dini terror" ifadəsinin əvəzinə, *"din pərdəsi altında törədilən terror", "din maskası geyinmiş terror(*çu*)"* şəklində işlətmək daha doğru olardı [6].

Tarixin müəyyən dövrlərində dinlər bir cəmiyyətdə insanlar üçün hüzurun, sabitliyin mənbəyi olduğu halda, başqa toplumda isə nifaq, fitnə və zülm şəklində ortaya çıxması problemlərin dinlərdən deyil, davamçılarından qaynaqlandığı fikrini gücləndirir. Belə vəziyyətdə din ilə mənsublarını bir-birindən ayrı dəyərləndirmək lazımdır. Çünki dinin prinsiplərinin mənsubları tərəfindən düzgün başa düşülməsi, qəbul və tətbiq edilməsi önəmlidir. Belə ki, bir dinin mənsubları öz aralarında ortaq məxrəcə gələ bilmirsə, fərqli qrup və məzhəblərə bölünürsə, demək, problemin dindən deyil, ona etiqad edənlərdən qaynaqlandığı aydınlaşır. Eyni dinə mənsub insanlar arasında tarixdə cərəyan edən qarşıdurmalar bunun ən bariz nümunələrini təşkil edir. Özündə eyni mesajı daşıyan və insanlığın ən böyük ortaq dəyəri olan dünya dinləri zamanla bəziləri tərəfindən məqsədləri naminə siyasi ideologiyalara çevrilmişdir.

Məsələyə sosioloji nöqteyi-nəzərdən baxdıqda din ilə zorakılıq arasında bilavasitə əlaqənin olub-olmadığı haqqında müzakirələr fransız sosioloq və filosof Durkheymə qədər gedib çıxır. Onun ümumi din nəzəriyyəsinə görə, din - inanclıların həyat təcrübələrindən qaynaqlanır və cəmiyyətin müqəddəsləşdirilməsidir [6]. Ona görə də dini sahəni qorumaq üçün Durkheym tərəfindən tərif edilən müqəddəsləşdirmə prosesi başlanılır. Bu mənada din uğrunda döyüşmək və şəhid olmaq müqəddəs vəzifə kimi ön plana çıxır.

Bəşəriyyət tarixində iqtidara gələnlər öz hakimiyyətlərinin uzunömürlü olması üçün bəzən dini də alət etmişlər. Bu baxımdan dindən qaynaqlandığı kimi görünən şiddət və terror hər zaman olmuşdur. Bu hal dinin deyil, insanın problemidir. Çünki din insanı mənəvi-əxlaqi baxımdan kamilləşdirməyə çalışır və fərdləri bir-birinin hüquqlarına hörmətlə yanaşmağa çağırır. Dinin məqsədi insana həm bu dünyada, həm də axirətdə səadət bəxş etməkdir. Ona görə də dinin insanın, bütövlükdə cəmiyyətin xoşbəxtliyini əlindən alan şiddət və terroru dəstəkləməsi mümkün deyil.

Hər bir inancın fanatik davamçıları mənsub olduğu inancın mütləq həqiqəti təmsil

etdiyini düşündüyü üçün “özündən olmayan”ı ikrah hissi ilə qarşılayır (bu düşüncə az və ya çox - hər insanda var). Fərdlərin, xüsusən dini inanclarla bağlı mövzularda qarşı tərəfin haqlı olduğunu etiraf etməsi son dərəcə müşküldür. Çünki belə bir etiraf sonrakı mərhələdə “etiraf edirsinizsə, niyə fikrimizi qəbul etmirsiniz?” şəklində ikinci sualı doğuracaq. Dini kimliyə az, yaxud çox bağlı olan insanın bunu qəbul etməsi, demək olar ki, qeyri-mümkündür. Şotlandiyalı mütəfəkkir Vattın da vurğuladığı kimi, heç kim həqiqəti təmsil etdiyinə inanmadığı dini icmanın davamçısı olmaz. Ona görə də hər bir dini icma yad hesab etdiyi başqa dini qrupların bir-biri ilə üst-üstə düşən deyil, fərqləndirən xüsusiyyətlərini qabartmaqla özünün mükəmməl olduğunu iddia etməkdədir. Bu da dini təşkilatda “özündən olmayan”a xor baxmaq, onların yanlış yolda olduğu qənaətini formalaşdırır. Beləliklə, din-terror münasibətilə bağlı bu cür yanaşmalar zamanla din və məzhəblər arasındakı kin və nifrəti alovlandıraraq, “dini terror”, yaxud da “dini motivli terror” anlayışını ortaya çıxarmışdır [6].

Ən qədim terror hərəkatlarından biri “Sikariilər” (Zealotlar) hesab olunur. Həmin dini təşkilat radikal dindarlar tərəfindən 66-73-cü illər arasında Roma işğalına qarşı bugünkü İsrail ərazisində meydana çıxmışdır. Son dərəcə yaxşı təşkilatlanmış sikariilər düşmənlərinə, əsasən, tətil günlərində Qüdsdə izdiham çoxaldıqda hücum edirdilər. Silahları isə “Sika” deyilən və paltarların altında gizlətdikləri kiçik bir xəncər idi. Başlıca fəaliyyətləri isə herodian rahiblərinin monastırlarını məhv etmək, borclarını qaytarmamaq üçün sələmçilərin sənədlərini və dövlətin arxivlərini oğurlamaq, buğda anbarlarını yandırmaq və Qüdsün su kanallarını dağıtmaq olmuşdur.

“Dini motivli terror təşkilatları” kimi səciyyələndirilən belə dini cərəyanlara, demək olar ki, bütün böyük dinlərin tarixində təsadüf olunur. Hinduizmdə taqilər, Xristianlıqda səlib yürüşləri və Ku-Kluks-Klan, İslam tarixində isə xəvaric və xaşxaşilik bu cür ekstremist qrupların sadəcə bir neçə nümunəsidir. Dinləri əsas məqsədindən uzaqlaşdıran belə ekstremist qruplara, çox təəssüf ki, indiki dövrdə də təsadüf olunur. Hətta İslam dünyası kontekstində deyə bilərik ki, modern dövrdə belə qrupların sayı orta əsrlərə nisbətən daha da çoxalmış və özlərinə müəyyən sosial dayaqlar tapa bilmişlər. Bu radikal qrupların müştərək xüsusiyyətləri dini mətnləri dar çərçivədə və kontekstindən uzaqlaşdıraraq yozmaq, öz dini görüşlərini insanlara zorakı yollarla qəbul etdirmək, dini siyasi mexanizm kimi qəbul etmək, demokratik-dünyəvi dəyərlərə qarşı mübarizə aparmaqdır.

Təəssüf ki, bu gün yalnız İslam terror dini kimi göstərilməyə çalışılır. Halbuki tarix boyu bütün dinlərin adından istifadə edərək radikal, onun ifrat forması olan ekstremist və terrorist təşkilatlar yaradılmışdır. Əslində isə aparılan araşdırmalar dünyada baş verən terrorların böyük əksəriyyətinin müsəlmanlar tərəfindən törədilmədiyini sübuta yetirir. Bu tədqiqatlar məhz Qərb təhlükəsizlik qurumlarının, xüsusi xidmət orqanlarının tədqiqatları nəticəsində ortaya çıxmış və onların hesabatlarında öz əksini tapmışdır. Məsələn, artıq aydındır ki, ABŞ-da törədilən terrorların İslam dininə aidiyyəti yoxdur. Kanadada fəaliyyət göstərən Qloballaşma

üzrə Tədqiqat Mərkəzi və eləcə də ABŞ-ın Federal Təhqiqatlar Bürosunun hesabatına görə, 1980-2005-ci illər arasında Birləşmiş Ştatlarda baş verən terror hücumlarının 94 faizi qeyri-müsəlmanlar tərəfindən törədilmişdir. Terror aktlarının 6%-inin səbəbkarı müsəlmanlar, 7%-inin səbəbkarı yəhudilər, 66%-inin səbəbkarı isə solçu və əsasən xristian olan Latın amerikalılardır [7]. Bu fakt ondan xəbər verir ki, ABŞ-da terrorda şübhəli bilinən şəxsin qeyri-müsəlman olması ehtimalı müsəlman olması ehtimalından dəfələrlə çoxdur. Göründüyü kimi, ABŞ-da həmin illərdə müsəlmanlara nisbətən yəhudilər daha çox terror aktları törətmişdir. Belə olduğu halda, biz mediada "yəhudi terroru", yaxud "iudaizm terroru" ifadələri ilə heç rastlaşırıqmı? Təbii ki, yox. Hətta rastlaşsaydıq, bu da düzgün ifadə olmazdı. Çünki terrorun heç bir dini və ya milli mənsubiyyəti yoxdur. Halbuki Qərb mediası və bəzi beyin mərkəzləri bu faktı İslam dini və müsəlmanlara münasibətdə nədənsə saya almırlar, qərəz nümayiş etdirirlər. Yeri gəlmişkən, elə həmin hesabata görə, xristianların törətdikləri terrorların sayı yəhudi və müsəlmanların törətdiklərindən dəfələrlə çoxdur. Elə isə niyə Qərb mediası "xristian terroru" ifadəsini işlətmir? Yaxud indiyədək Amerika ərazisində qaradərili və avtoxton hindulara qarşı terrorları ilə məşhurlaşan, hətta İkinci Dünya müharibəsindən sonra da mövcud olmuş xristian dininə mənsub, irqçi Ku-Kluks-Klançılar niyə "xristian terrorçuları" kimi yad edilmir? Təbii ki, onların xristianlar kimi qələmə verilməsi yanlışdır, amma bu prinsip bütün terrorçulara, o cümlədən özlərini müsəlman kimi qələmə verənlərə də eynilə şamil edilməlidir. Başqa bir misal. "Europol" (The European Union Agency for Law Enforcement Cooperation) tərəfindən hazırlanmış hesabata görə, 2015-ci ildə Avropada terror aktlarının böyük əksəriyyəti separatçı qruplar tərəfindən törədilmişdir. 2013-cü ildə Avropada 152 terror hücumu qeydə alınmışdır ki, onlardan yalnız ikisi "dini motivli" sayılır, qalanları isə etnik-millətçi, separatçı və s. ideyalar əsasında baş vermişdir [8].

Dünyada 1970-ci ildən 2012-ci ilədək törədilən 104 mindən çox terror aktının hamısının müsəlmanlar tərəfindən törədildiyi barədə absurd fərziyyə irəli sürsək belə, həmin terrorçular müsəlmanların ümumi sayının heç 0,001 faizi qədər də deyil. Hətta bu halda belə, müsəlmanları terrorçuluqda ittiham etmək məntiqsizlik olardı. Halbuki yuxarıdakı faktlardan da göründüyü kimi, terror aktlarının mütləq əksəriyyəti məhz qeyri-müsəlmanlar tərəfindən törədilmişdir. Bu barədə ABŞ-ın Merilend Universitetinin Qlobal Terrorizm Məlumat Bazasında (Global Terrorism Database) 1970-ci ildən 2017-ci ilədək 170 min terror insidentinin baş verdiyi qeyd olunur [9]. Bu, həm də sözügedən mövzuda ictimaiyyətə açıq olan ən müfəssəl baza hesab edilir. Məlumat bazasına əsasən, göstərilən müddət ərzində törədilən terror aktları özlərini müsəlman adlandıran, yaxud da müsəlman kimi qələmə verilənlərin törətdiyi terror aktları və digərləri tərəfindən törədilən terror aktları olmaqla ayrı-ayrı qruplaşdırılmışdır. Məlum olur ki, ikinci qrupa "Ku-Kluks-Klan", "İrland Respublikaçı Ordusu", "Mormon ekstremistləri", "Kommunistlərin Kökünü Kəsmək və Millət Qurmaq üçün Vyetnamlıların Təşkilatı", "Yəhudi Müdafiə Liqası", "19 May Kommunist əmri", "Çikano Azadlıq Cəbhəsi", "Yəhudi Silahlı

Müqaviməti”, “Amerika Hindu Hərəkatı, “Ari Milləti”, “Yəhudi Fəaliyyət Hərəkatı”, “Kubanın Azadlığı üçün Milli Cəbhə”, “Dördüncü Reyx Skinxedləri” və s. bu kimi təşkilatların törətdikləri terror aktları daxildir. Bu qədər çoxsaylı qeyri-müsəlman qruplaşmanın törətdiyi terror hadisələri ilə müqayisədə, əslində, həqiqi müsəlmanlara heç bir aidiyyəti olmayan “əl-Qaidə”, “Taliban”, “Qara Amerikalı Müsəlmanlar” və ya digər “müsəlman” qruplarının törətdiyi terrorlar olduqca cüzidir. Bununla bağlı tədqiqatçılar formal olaraq müsəlmanlarla ən cüzi bağlılıqları olanları belə “müsəlman” qrupunda təsnifatlandırmışlar. Məsələn, ABŞ-da baş vermiş təxminən 2400 terrorçu hücumunun altmışı müsəlmanlar tərəfindən törədilmişdir. Başqa sözlə, 1970-2012-ci illərdə ABŞ-da törədilmiş terror aktlarının cəmi 2,5 faizi özünü müsəlman hesab edənlərin payına düşür. Bu isə həmin ölkədə baş verən çoxlu sayda terror aktlarının cüzi hissəsidir. Həmin ölkədəki terror aktlarının təxminən 118-i və ya 4,9 faizi isə özlərini “yəhudi” adlandıranların payına düşür. Belə ki, “Yəhudi Silahlı Müqaviməti”, “Yəhudi Müdafiə Liqası” və “yəhudi” adından çıxış edən digər qurumlar bu qədər terror payına sahibdirlər. Əgər təkcə ABŞ yox, bütün dünya üzrə bu cür terror aktlarının baş vermə arealı və qurbanlarına nəzər salsaq, görərik ki, terror aktlarının kütləvi qurbanları, əsasən, müsəlmanlar olmuşdur. Belə ki, radikal-ekstremist qrupların törətdikləri terror aktlarından bir çox müsəlman ölkəsi əziyyət çəkir. Bu gün törədilən terrorların fəsadları Yaxın Şərqdə - Suriyada, Liviyada, İraqda, Əfqanıstanda və s. müsəlman ölkələrində qabarıq şəkildə görünməkdədir. Həmin ölkələr faktiki olaraq kütləvi insan qırğınına, aclığa, səfalətə məruz qalmış, iqtisadiyyatları, mədəni-dini abidələri məhv olmuş, bir sözlə, dövlət kimi mövcudluqları təhlükə altına düşmüşdür. Bu faktlar qlobal terrorun əsas hədəfinin məhz müsəlmanlar olduğunun əyani sübutlarıdır.

ABŞ-ın Merilend Universitetinin Qlobal Terrorizm Məlumat Bazasının araşdırmalarına əsasən, 1970-2016-cı illər arasında dünyadakı terror aktlarının təxminən 50 faizi müsəlman ölkələrində törədilmişdir. Ətraflı aşağıdakı cədvəldə:

**1970-2016-cı illərdə terror aktlarının dünya regionları üzrə paylanması (Global Terrorism Databese)**



### *İslamın terrora münasibəti*

İslam dininin məqsədi kamil insan yetişdirmək, hüzur və sülh şəraitində yaşayan cəmiyyət meydana gətirməkdir. Bunun üçün sevgini, mərhəməti, ədaləti, qardaşlığı, həmrəyliyi, yardımlaşmağı, qısası, insan üçün faydalı olan hər cür əxlaqi prinsipləri əmr və tövsiyə etmişdir. Zorakılıq yolu ilə insanlara işgəncə verməyə və ya onların yaşamaq hüququnu əlindən almağa qadağa qoymuşdur. İslam dini nəinki insanların şərəf və ləyaqətini alçaltmağı, təhqir etməyi, hətta onları lağa qoymağı belə qadağan etmişdir. Məhəmməd peyğəmbər (s) buyurur ki: *"Mərhəmət edənə Allah da mərhəmət edər. Siz yer* üzündəkilərə*, bütün canlılara mərhəmət edin ki, göy* üzün*dəkilər* də *(Allah və mələklər) sizə mərhəmət etsin"* ("Səhihi-Tirmizi"). Digər hədisində isə: *"Müsəlman əlindən və dilindən kimsənin zərər görmədiyi, insanların hər mövzuda ondan əmin olduqları kimsədir"* ("Səhihi-Buxari") – buyuraraq, şiddət və terrorun kökünü kəsəcək prinsipləri ortaya qoymuşdur. Bu baxımdan terroru və terrorizmi İslam dini ilə əlaqələndirmək azad iradəyə, sülhə və barışa böyük dəyər verən dinə atılmış iftiradır.

İslam dini təbliğ olunmağa başlandığı gündən indiyədək dəyişməyən təməl prinsiplərini bütün bəşəriyyətə təqdim etmişdir. Ümumiyyətlə, İslam ilahiyyatçılarına görə, din ağıl sahibi insanları öz iradəsi və arzuları ilə xeyirli olanlara sövq edən ilahi qanunlar toplusudur. Yəni o, Uca Yaradanın böyük xeyrə, əbədi səadətə çatmaq üçün öz bəndələrinə bəxş etdiyi hökmlərdir. Bu baxımdan İslam dininin əsl təbiətində zorakılıq və şiddətin olduğunu demək qeyri-mümkündür. Dini yaymaq, təbliğ etmək məqsədilə zorakılığa, terrora əl atanların bu hərəkəti İslamın ümumbəşəri mesajını doğru anlamamalarından irəli gəlir. İslamı yanlış anlayanların yuvarlandığı cəhalət bataqlığı terrora zəmin hazırlayır. Çünki bu bataqlığa düşən insanlar din uğrunda mübarizə apardıqlarına inanırlar. Məhz bu cür düşündüklərinə görə də törədəcəkləri/törətdikləri əməllərin cinayət olduğunu, yəni dünyəvi baxımdan qanunsuz, dini baxımdan isə doğru olmadığını dərk edə bilmirlər.

Bu kontekstdə müzakirə predmeti olan iki kəlmənin, yəni "terror" ilə "İslam"ın yan-yana gətirilərək "İslam terroru" şəklində istifadə edilməsi, bəlkə də, sonuncu səmavi dinə ən böyük zərbədir. Çünki İslam, adından da göründüyü kimi, sülh, sabitlik, hüzur, güvən, əmin-amanlıq mənalarını verir. "İslam" kəlməsi hər cür bəla və fəlakətdən uzaq durmaq, onlardan xilas olmaq, sülh, əmin-amanlıq, ibadət, itaət kimi mənalar daşıyır. Eyni zamanda, təslim olmaq, boyun əymək, qurtulmaq, müsəlman olmaq mənalarında da işlədilir. Necə olur ki, bu cür gözəl və xeyrə istiqamətlənmiş mənalar daşıyan bir din təzyiqi, şiddəti və zorakılığı özünə metod seçsin?!

Qurani-Kərimin "Nəhl" surəsinin 125-ci ayəsində buyurulur: **"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et..."**; Eyni zamanda, "Ali İmran" surəsinin 104-cü ayəsində buyurulur: **"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir"** [10].

Quran bu ayələrlə müsəlmanlardan insanları Allahın dininə yaxşılıq və gözəlliklə dəvət etmələrini istəyir. İman gətirənlər üçün İslamı bu şəkildə təbliğ etmək şərtdir. Bu metodu bir tərəfə qoyub zorla insanları İslam dininə dəvət etmək Allahın buyuruqlarına qarşı çıxmaq və Ona üsyan etmək mənasına gəlir.

Məhəmməd peyğəmbər (s) ona əzab-əziyyət verənləri, hətta sui-qəsd etməyə cəhd göstərənləri bağışlamış, insanlarla daim xoşgörülü və anlayışlı davranmışdır. Qurani-Kərimin "Ali İmran" surəsinin 159-cu ayəsində Allah Rəsulunun (s) bu tolerant davranışına işarə edilərək buyurulmuşdur: **("Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər..."** [10]. Məhz İslamın bu xoş rəftarı və tolerant davranışı onun sürətlə yayılmasında, qısa müddətdə bir çox insanın bu dinə üz tutmasında böyük rol oynamışdır.

İslam anlayışına görə, sonsuz güc və qüdrət sahibi olan Allah bəşər övladını ən gözəl surətdə yaratmış, ona ruhundan üfürmüş, şan-şərəf, izzət-qüdrət vermiş, yer üzünü insana boyun əydirmiş və saysız-hesabsız nemətləri insana bəxş etmişdir. Bütün bu nemətlərin qarşılığında isə insandan istənilən şey yaradılış qayəsinə uyğun olaraq formalaşması, insanlara sevgi və mərhəmət göstərməsi, onlarla yaxşı davranması, o cümlədən yaşadığı cəmiyyətlə, qısası, bütün bəşəriyyətlə sülh və əmin-amanlıq şəraitində yaşamasıdır. İnsan bu xüsusiyyətlərə sahib olduğu təqdirdə Quranın istədiyi mömin sifətinə yiyələnə bilər. Təməli sülh, sevgi, bağışlama və xoşgörüyə dayanan İslam dini ümumi mənada qardaşlığı, sevgini, birliyi və hüzuru əmr edərkən, səbəbi nə olur-olsun, həddi aşmağı, nifrəti, zülmü və zorakılığı xoş qarşılamamışdır. O, zülmün və nifrətin son həddi olan terroru şiddətlə qınayaraq, qadağan etmişdir. Bu səbəbdən də heç kim zorla müsəlman olmağa, İslamı yaşamağa məcbur edilə bilməz. Çünki İslam dini kimliyindən asılı olmayaraq heç kəsə dini zorla qəbul etdirmək səlahiyyəti verməmişdir. Qurani-Kərim bu həqiqəti "Bəqərə" surəsinin 256-cı ayəsində bütün bəşəriyyətə elan etmişdir: **"Dində məcburiyyət (zorakılıq) yoxdur..."** [10]. Quranın bu mesajı insanın olduğu bütün məkan və zamanda keçərliliyini istisnasız davam etdirir. İslam dininə görə, təzyiq, qorxu və şiddət vasitəsilə bir insanı müsəlman olmağa məcbur etmək nə qədər ağıla və vəhyə ziddirsə, namaz qılmaq, oruc tutmaq və s. kimi ibadətləri yerinə yetirmək mövzusunda da zorakılığa əl atmaq ağıla və vəhyə ziddir. Bu baxımdan şiddət göstərmək, güc tətbiq etmək İslamın dəvət və təbliğ metodu deyildir.

İslam dinin məqsədlərindən biri də insanlar arasında sevgini, hüzuru, qardaşlığı təmin etməkdir. Məhəmməd peyğəmbərin (s) mömin və müsəlmanı *"əlindən və dilindən kimsənin zərər görmədiyi şəxs"* şəklində tərif etməsindən anlaşılır ki, insanlara, yaşadığı cəmiyyətə, xalqına və dövlətinə qarşı pis əməllər işləyən, şiddət və terror fəaliyyəti ilə məşğul olan şəxslər müsəlman hesab oluna bilməz.

İslam nəinki terror fəaliyyətini və terrorizmi xoş qarşılayır, hətta böyüklərinə hörmət etməyən, kiçiklərinə qarşı da şəfqətli və mərhəmətli olmayanları özündən saymır. İslam insanlara

yer üzündə yaşayan bütün canlılara mərhəmətlə davranmağı əmr etmiş, yaradılanı Yaradandan ötrü xoş görmək anlayışını aşılamışdır. O zaman bu qədər incə və həssas xüsusiyyətlərə sahib olan İslam dininin uşaq-qoca, kişi-qadın demədən günahsız və məsum insanların qanını tökən terroru xoş qarşılaması məntiqə ziddir. İslama görə, insan yaradılmış varlıqların ən şərəflisidir. Ona görə də insan şəxsiyyətinə hörmət bəsləməyi əmr edir və bunu hər kəsin həm dini, həm də əxlaqi vəzifəsi hesab edir. Qurani-Kərimin "İsra" surəsinin 70-ci ayəsində bu həqiqətlə bağlı buyurulur: **"Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik"** [10]. Bu qədər dəyərli və üstün bir varlığa qəsd edilməsi Allah qatında ən böyük günahdır.

Ümumiyyətlə, adam öldürmək hadisəsi fərdilikdən çıxaraq, bütün cəmiyyəti narahat edən problemə çevrilir. Ona görə də Allah Qurani-Kərimin "Nisa" surəsinin 93-cü ayəsində qəsdən, haqsız yerə adam öldürməyi haram saymış, cəzasının sonsuza qədər qalacağı cəhənnəm olduğunu bildirmişdir: **"Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar!" [**10]. Uca Yaradan "Maidə" surəsinin 32-ci ayəsində haqsız yerə bir insanı öldürməyi bütün bəşəriyyəti öldürmək, bir insanı xilas etməyi də bütün insanlara həyat vermək kimi təqdim etmişdir: **"...Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur"** [10].

Beləliklə, bu ilahi prinsiplər nəzərdən keçirilərsə, şiddət, zorakılıq, terror və anarxiyanın İslamla uzaqdan-yaxından heç bir əlaqəsinin olmadığı açıq şəkildə görünəcəkdir. İslamın bu cür dağıdıcı hərəkətlərlə əlaqəsi olmaması bir yana, o, hər cür fitnə-fəsadı, təxribatı, əziyyəti, işgəncəni və zülmü, qısası, şiddət və terroru qəti şəkildə pisləyir. Çünki dinin məqsədi fərd və cəmiyyəti məhv etmək deyil, əksinə, maddi və mənəvi baxımdan fitrətinə uyğun səviyyəyə çatdırıb ucaltmaqdır. İslam dininin bu mövzudakı əmr və qadağaları qarşısında bütün bəşəriyyətin üzərinə düşən vəzifə fitnə-fəsaddan, şiddət və terrordan uzaq durmaq, bu düşüncədəki insanlara etibar etməmək, bir-birinə hörmət bəsləmək, birlik və bərabərlik içərisində qardaşcasına yaşamaqdır.

# ƏDƏBİYYAT


1. Manning Peter. Us And Them. Australia: 2006, 312 s.

2. Islam is not a Religion of Extremism/ http://islamicpamphlets.com/islam-is-not-a-religion-of-extremism

3. Bal İhsan. Terör nedir, neden terörist olunur? Ankara: 2006.  394 s.

4. https://ecitydoc.com/download/2dn-sosyolojs-din-ve-terr_pdf

5. Terrorizm və onun formaları // https://turalisgandarov.wordpress.com/2011/01/09/terrorizm/

6. Aydın, Ahmet Hamdi-Türkoğlu, Mehmet Emin. "Dinî motifli terör" kavramı. http://www.ayk.gov.tr/wp-content/uploads/2015/01/AYDIN-Ahmet-Hamdi-T%C3%9CRKO%C4%9ELU-Mehmet-Emin-D%C4%B0N%C3%8E-MOT%C4%B0FL%C4%B0-TER%C3%96R-KAVRAMI.pdf

7. http://www.start.umd.edu/pubs/START_PPTUS_DataCollectionDescriptiveAnalysis_Sept2011.pdf

8. https://www.europol.europa.eu/activities-services/main-reports/te-sat-2014-eu-terrorism-situation-and-trend-report

9. https://en.wikipedia.org/wiki/Global_Terrorism_Database#/media/File:Terrorist_incidents_worldwide.svg

10. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev). Bakı: Nurlar, 2016.


Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Садиг Мирзаев

## ТЕРРОР, РЕЛИГИЯ И ПОЛИТИКА
***Двойные стандарты и реалии***


РЕЗЮМЕ

В статье рассматривается понятие террора, превратившегося в бедствие современного мира, его сущность, цели и формы, наличие каких-либо связей с религией, а также отношение исламской религии к террору. Отмечается, что на протяжении всей истории некоторые круги использовали религию в качестве средства для осуществления своих целей. В статье отмечается, что исламская религия не имеет ничего общего с терроризмом, все религии, особенно ислам, осуждают насилие и террор. Потому что, целью религии является не уничтожение индивида и общества, а наоборот – моральное и материальное возвышение.


Sadig Mirzayev

## TERROR, RELIGION AND POLITICS
***Double standards and realities***


SUMMARY

The article discusses the concept of terror, which has turned into a disaster of the modern world, its essence, goals and forms, the presence of any connection with religion, as well as the attitude of the Islamic religion to terror. It is noted that throughout history some circles have used religion as a means to reach their goals. The article emphasizes that the Islamic religion has nothing to do with terrorism; all religions, especially Islam, condemn violence and terror. Because, the purpose of religion is the moral and material elevation individual and society rather than their destruction of.

# İSLAMDA QƏZA VƏ QƏDƏR ANLAYIŞI

***Əlirza QAFAROV,***
*Qafqaz Müsəlmanları İdarəsinin*
*Təşkilat şöbəsinin müdiri,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *Allah, Quran, qəza, qədər, mötəzilə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Аллах, Коран, судьба, рок, мутазилиты.*
***KEY WORDS:*** *Allah, the Quran, destiny, fate, the Mutazilites.*

Qəza və qədər məfhumu İslam dininin aksiomlarındandır. Quran və hədislərdə birmənalı şəkildə toxunulan qəzavü-qədər "tale" ilə əlaqəli olduğundan hər kəsin diqqət mərkəzində olan məsələlərdəndir. Ancaq "alın yazısı" məsələsi İslamın gəlişi ilə ortaya çıxmamışdır. O, hələ qədimdən müxtəlif xalqların ədəbiyyatında özünəməxsus yer tutmuş, böyük əsərlər yaratmaqda şairlərin və yazıçıların əsas mövzusu olmuşdur. Dindarlar bu məsələni Allahın elmi və iradəsi ilə əlaqələndirirlər, ateistlər isə onu maddi səbəblərdən qaynaqlanan zərurət hesab edirlər.

Qəzavü-qədərə iman İslamın təşəkkül tapmasından sonra mübahisə mövzusuna çevrilmişdir. Adəm övladı haradan gəldiyini, haraya gedəcəyini, yaradılışında bir məqsədin olub-olmadığını, etdiyi hərəkətlərin səbəbinin özü, yoxsa başqa bir varlıq olduğu kimi suallara həmişə cavablar arasa da, günümüzədək bu mövzuda özünü təmin edən cavablar tapa bilməmişdir.

Qəzavü-qədər mövzusunda Cəbriyyə, Qədəriyyə və Mötəzilə firqələri bir-birinin ziddinə fikirlər söyləmişlər. Cəbrilər insanı küləkdə sovrulub gedən yarpağa bənzədərək onun özünəməxsus bir iradəyə sahib olmadığı və bütün hərəkətlərinin ilahi gücün təsiri ilə meydana gəldiyi fikrini müdafiə edirlər.

Həzrət Məhəmməd (s) qədər mövzusunda mübahisə etməyə qadağa qoymuş və belə mübahisələrin cəmiyyətin həlak olmasına yol açacağını söyləyərək müsəlmanları bu işdən çəkindirmişdir. Həqiqətən bu kimi mübahisələr Məhəmməd peyğəmbərin (s) vəfatından sonra çoxalmışdır. İnsanlar öz pis hərəkətlərinə, zülmlərinə haqq qazandırmaq üçün qəzavü-qədərin arxasına sığınmışlar və nəticədə müsəlmanlar arasına nifaq toxumu səpmişlər. Xüsusilə bu, Əməvilər dövründə (661-750) özünü bariz şəkildə göstərmişdir. Həmin dövrdə hakim təbəqə cəbr anlayışını mənimsəməklə yanaşı, bunu xalqa mənimsətmək üçün əlində olan bütün imkanlardan istifadə etmişdir. İstər ayələrin bu sahədəki şərhinə, istərsə də hədislərin uydurulmasına sözügedən dövrdə başlanılmışdır.

Qəzavü-qədəri iki qismə bölmək mümkündür:

1. Elmi (Allahın elmi ilə bağlı);

2. Feili (Allahın işi, feili ilə bağlı).

Digər bölgüyə görə, qəzavü-qədər fərdi və ümumi olmaqla iki qismə bölünür.

Elmi qəzavü-qədərin mənası odur ki, Allah bir şeyi yaratmazdan öncə onun həddindən və xüsusiyyətlərindən xəbərdardır. Xüsusiyyətlər dedikdə, mücərrəd varlıqların zati xüsusiyyətləri, maddi varlıqların isə zati xüsusiyyətlərindən əlavə, zaman, məkan, həcm, miqdar və s. kimi xüsusiyyətləri nəzərdə tutulur. Elmi qəza isə əşyaların səbəbləri gerçəkləşdikdə həmin əşyaların zəruri olaraq var olacağını Allahın bilməsidir. Yəni Allah hər bir şeyin xüsusi şəraitdə və xüsusi səbəblərin təsiri nəticəsində mövcud olacağını əzəldən bilir. Beləliklə, deyə bilərik ki, Allahın hər bir şeyin xüsusiyyətlərini və onların vücuda gəlməsinin zəruriliyini bilməsi "elmi qəzavü-qədər" adlanır.

Feili qədər dedikdə, Allahın bütün yaranmışlar üçün həm zati, həm də qeyri-zati xüsusiyyətlər təyin etməsi nəzərdə tutulur. Allahın öz yaratdıqlarına varlıq zəruriliyi bəxş etməsi və səbəblər vasitəsilə onların varlığını gerçəkləşdirməsi isə feili qəza adlanır. Başqa sözlə desək, hər bir mümkün varlıq iki cəhətdən ibarətdir:

1. Mövcudların səbəbiyyət qanununa görə zəruriləşən varlığı;

2. Onların xüsusiyyətləri.

Feili qəzavü-qədər o deməkdir ki, bu iki cəhət Allah tərəfindəndir və Onun istəyinə bağlıdır. Feili qəzavü-qədərin mənasına nəzər salmaqla bir neçə məsələ aydınlaşır:

1. Elmi qəzavü-qədərin əksinə olaraq, feili qəzavü-qədər əşyaların varlığından öncə deyil, onunla birlikdədir.

2. Feili qəzavü-qədər Allahın yaratması ilə bağlı xüsusiyyətdir və onu "xaliqiyyət" sifətinə aid etmək olar.

3. Əşyalara xaricdə xüsusiyyətlər təyin etmək (feili qədər) onların vücudunun dərəcəsindən asılı olaraq fərqlənir. Buna görə də mücərrəd varlıqlarda qəzavü-qədər onların zati hədlərini müəyyənləşdirmək deməkdir. Lakin maddi varlıqlarda qəzavü-qədər zaman və məkan şəraitinə, keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə də aid olur.

Qəzavü-qədər mövzusunda əsas məsələlərdən biri onun insan azadlığı ilə əlaqəsidir. Elmi qəzavü-qədərin tələbinə görə, Allah öncədən bilir ki, insanların əməlləri hansı xüsusiyyətdə və hansı şəraitdə olacaqdır. Həmçinin feili qəzavü-qədərə görə, insanların əməllərinin formalaşmasında və vücuda gəlməsində Allah iradəsinin müdaxiləsi var. Odur ki, bəziləri belə güman edir ki, qəzavü-qədər insanın ixtiyarı ilə ziddiyyət təşkil edir və insanlar bu varlıq aləmində oyunçu yox, öncədən zəruriliyi və qətiliyi təyin edilmiş hadisələri izləyən ixtiyarsız tamaşaçıdırlar. Beləliklə, qəzavü-qədər əqidəsi cəbriliyin (fatalizmin) amillərindən birinə çevrilmişdir.

Elmi qəzavü-qədərdə insanların əməlləri qeyd-şərtsiz şəkildə yox, bütün xüsusiyyətləri ilə birlikdə əks olunur. Bu xüsusiyyətlərə misal kimi, əməllərin ixtiyarlı olmasını, insanın iradə və qüdrətinin əməllərin baş verməsindəki təsirini göstərə bilərik. Beləliklə, Allah əzəldən bilir

ki, insan öz ixtiyarı vasitəsilə hansı əməlləri yerinə yetirəcək. Belə olduqda, Allahın elmi və qəzavü-qədər insanın ixtiyarını nəinki istisna etmir, hətta onu təsdiqləyir. Bir sözlə, Allah bütün xüsusiyyətləri ilə birlikdə hər hansı bir əşyadan işin necə baş verəcəyini bilir. Odur ki, şüursuz və ixtiyarsız varlıqlarda (məsələn, istiliyin səbəbi olan od) işlərin ixtiyarsız baş verəcəyindən xəbərdardır. Yəni, Allah odun müəyyən zaman və məkanda ixtiyarsız şəkildə istilik yaradacağını əzəldən bilir. Lakin iş görən şüurlu və ixtiyarlı olarsa, bu halda qəzavü-qədər obyekti şəxsin azad seçimidir.

Feili qəzavü-qədər məsələsində də buna oxşar cavab vermək mümkündür. Bəndələrin əməllərinin baş verməsində Allahın feili qəzavü-qədəri birbaşa yox, səbəblər vasitəsilə və səbəbiyyət qanunu çərçivəsində təsir göstərir. İnsanın iradəsi və ixtiyarı da azad əməllərin səbəblərindən biri olduğu üçün qəzavü-qədər insanın iradəsi və ixtiyarı yolu ilə öz təsirini göstərir. Allah əzəli elminə əsasən, müəyyən qanunları özünəməxsus xüsusiyyətlərlə təyin etmiş və onları tarix boyu insan cəmiyyətində icra etmişdir. Məsələn, “səbəbiyyət qanunu” Allahın ümumi qanunlarındandır və ilahi qəzavü-qədər ona şamil olunur.

Qədər ərəbcə “qədərə” kökündən törəmişdir və “bir şeyi ölçmə, təxmin etmə, ölçərək təqdir etmə”, “bir şeyi ölçüyə görə təyin və təsis etmək, bir hikmətə görə təyin edib həyata keçirmək” mənalarına gəlir. Digər bir tərifə görə isə, “bir şeyin ölçüsünü və sərhədlərini bildirmək, bir varlığı özündə olan xüsusiyyətlərlə təyin etməkdir” [1, s. 59]. “Bir şeyin mahiyyət və xüsusiyyətləri ilə yanaşı, onun var olduğu zaman və məkanı təyin etmək” mənasına gələn “təqdir” də “qədər”lə eynimənalı olub, bəzən onun yerinə istifadə edilir [2, s. 82; 2, s. 58].

“Qədər” kəlməsi Qurani-Kərimdə “ismi-məsdər” (qadər), keçmiş zaman feili (qaddərə) və ismi-məful (maqdur) kimi yer almışdır. ***“Biz hər şeyi bir qədərə (ölçüyə, nizama) görə yaratdıq”*** (əl-Qəmər, 49) ayəsində məsdər, ***“Onda axtarıb soruşanlar üçün qidalarını dörd gündə təqdir etdi (nizama qoydu)”*** (əl-Fussilət, 10) ayəsində feil, ***“Allahın əmri olmuş bitmiş bir qədərdir”*** ayəsində isə (əl-Əhzab, 38) ismi-məful olaraq qeyd edilmişdir [3, s. 168].

“Qədər” və “təqdir” hər hansı bir şeyin miqdarını təyin etmək və açıqlamaqdır. Bu mənada bir şey haqqında “onun miqdarını təyin etdim, təqdir etdim” deyilir. Lakin “qədərə” kökündən alındığından təqdir “qüdrət vermə” mənasını da ehtiva edir. Bu mənada “Allah mənə bir işi etmə gücü verdi” deyilir [4, s. 194].

Əşəriyə görə, qədər hər şeyə aid xüsusi hökm və qərardır. Varlıqların bir-bir yoxluqdan varlığa keçməsidir. Bu da ilahi iradənin zaman içərisində varlıqların hər birinin ölçü və sərhədini təsbit edərək onları detalları ilə ortaya qoymasıdır. Maturidiyə görə isə, qədər Allahın yaratdıqlarının zərərli, çirkin, yaxşı və gözəl xüsusiyyətlərini bilib təsbit etdiyi əzəli təqdir, hökmdür [4, s. 219].

Maturidinin fikrincə, qədər yalnız Allahın qüdrəti daxilindədir. İnsan nə elmi, nə də qüdrəti ilə əşyanın nə vaxt, hansı məkanda, nə kimi xüsusiyyətlərlə meydana gələcəyini təyin

etməyə qadir deyil [1, s. 63]. Maturidi bu görüşü ilə qədərin Allah tərəfindən təyin və təsbit olduğunu vurğulamışdır.

Mötəzilə filosofları məsuliyyət doğuran bəşəri hərəkətləri qəzavü-qədərdən kənar tutmuşlar. Çünki onlar qədərin insanlara aid hərəkətlərin hökmünü açıqlayıb xəbər verməkdən ibarət olduğu qənaətindədirlər [2, s. 82 ]. Başqa bir deyimlə, onlara görə, qədər "bəyan etmək, bildirmək, açıqlamaq" mənasını verir. Üstəlik, bu sözə məcburiyyət qatılamayacağını da ifadə edirlər.

Filosof Bəqillani qədəri "təqdir və yaratma" olaraq təsvir etməkdə və bunu ayələrlə əsaslandırmaqdadır. Cürcani isə qədəri "mümkünatın bir-bir yoxluqdan bədən sahəsinə intiqalı" olaraq tərif etmişdir" [1, s. 60].

Qədər qəzadan daha geniş mənanı ehtiva edir. Qədər Allahın elm, qəza isə qüdrət sifətinə əsaslanır. Bu səbəbdən qədər qəzadan əvvəldir. Qəza olunan şey qədərdə vardır, lakin qədərdə olan hər şey qəza olmamışdır. Yəni bir şeyin varlıq aləminə gəlməsi həm qəza, həm qədərdir. Yaradılmayan şeylər isə qədərdədir, lakin qəza edilməmiş, yəni meydana gəlməmişdir. İnsanla əlaqədar qədəri ikiyə ayıra bilərik. Birincisi, insanın öz iradə və qüdrəti ilə işlədiyi hərəkət və əməllərə bağlıdır. İkincisi isə, onun iradə və qüdrəti xaricində meydana gələn hadisə və hallara aiddir. İkinci növdən qədər bir sirdir, bu sirlər axirətdə, ədalət günündə bütün incəlikləri ilə görüləcək.

Qəza və qədər anlayışlarına dair məzhəblər arasında birlik yoxdur. Buna səbəb olaraq, bu iki sözün lüğətdə və dolayısı ilə ayələrdə fərqli mənada işlənməsi göstərilə bilər. Digər tərəfdən, Allahın zaman və məkan xaricində olduğundan bu iki təbir eyni anlama gələ bilər. Çünki Allahın əvvəldən təqdiri və vaxtı gəldikdə sonradan yaratması kimi ifadələr yalnız bizim üçün məna daşıyır. Belə ki, bütün bunlar yaradılanlarla əlaqədar təbirlərdir və nəticə etibarilə hər məzhəb öz görüşünə uyğun olaraq ayələr əsasında bu təbirlərə məna verməyə çalışmışdır.

Qədər mövzusu ilk çağlardan bu günə kimi tarixin ən əhəmiyyətli problemi olmuşdur. İnsanların zehnini məşğul edən bu problemli mövzu cəmiyyətin bütün təbəqələri - filosof, ilahiyyatçı, siyasətçi, hüquqşünas, psixoloq, mömin və digərlərinin müzakirə obyektinə çevrilmiş, qəliz mübahisələrə səbəb olmuşdur. Yunan filosoflarından Epikür və bəzi filosofların fikrincə, insan azad olduğu üçün qədər yoxdur, bu səbəbdən insanı xeyrə və şərə sövq edən bir qüvvə də yoxdur. Yəhudilikdə də münaqişələr qədər və cəbr mövzuları ətrafında cərəyan etməkdədir. Şərq Xristianlığında isə ümumi təmayül insan iradəsinin azadlığına inanmaqdan ibarətdir.

İradə azadlığını qəzavü-qədər problemi kimi görən alimlər də olmuşdur. Mövzuya "şər" problemi də deyilmiş, yaxşı və pis hərəkətlərin Allah tərəfindən yaradılması, daha geniş ifadə ilə "yaxşı və pis" məsələsi də müzakirələr doğurmuşdur. O zaman burada da bir təyin və təqdirin olduğu şübhəsizdir. Sokrat, Platon və Aristotel kimi filosoflar başlanğıcda insanın öz hərəkətlərinə istiqamət verə biləcəyi fikrini qəbul etmiş görünməkdədir. Lakin onların insanın

hərəkətlərinin meydana gəlmədən Tanrı tərəfindən bilinib-bilinmədiyi barəsindəki görüşləri haqqında konkret fikir ortaya qoymaq mümkün deyildir. Çünki onların din anlayışı mifologiya içində itib-batmışdır. Yəhudilik və Xristianlıq da bu fəlsəfədən təsirlənmişdir.

İslamdan əvvəl qədər anlayışının qarşılığında "dəhr" məfhumunu işlədən ərəblərdə, bir növ, qədərçi düşüncə hakim idi. Çünki onlar səhradakı həyatı qədərçi anlayışa daha yaxın bilirdilər. Bu da onların zehnən rahat olmasını təmin edirdi. Bu baxımdan onlar "dəhr" anlayışını ilahlaşdırırdılar. İslam isə bu cür qədərçiliyi rədd etmiş, onun yerinə Allahın elm, iradə və qüdrətini qoymuşdur.

Məhəmməd peyğəmbərin (s) vəfatının ardınca hicri birinci əsri (miladi VII) əhatə edən bir zaman kəsiyində müsəlmanları məşğul edən xüsuslar arasında "qədər" mövzusu önəmli yer tutmuşdur. Qədəri inkar edənləri qınayan və bu mövzunu müzakirə etməkdən məhrum qoyan hədislər bizə açıq şəkildə göstərir ki, hələ Peyğəmbər (s) zamanında müsəlmanlar arasında bu cür düşüncələr meydana çıxmağa, hətta münaqişə mövzusu olmağa başlamışdır. Lakin Allah Rəsulunun (s) qəti qadağası və Əhli-beytin onun yolundan getməsi sayəsində bu dövrdə böyük fikir hərəkatına dönüşməmişdir. Ancaq xəlifə Osmanın qətlinin (656-cı ildə) ardınca baş verən hadisələr, daxili savaşlar müsəlmanlar üzərində böyük təsir gücünə malik olmuş, çox ağrılı xatirələr buraxmış və nəticədə kompleks əqaid problemlərinin ortaya çıxmasına səbəb olmuşdur.

Müsəlmanlar arasında baş verən daxili savaşlarda həyatını itirənlərin aqibəti ilə bağlı mübahisələr meydana gəlmişdir. Axı öldürən də, öldürülən də müsəlmandır. Qətl isə İslamda böyük günahdır. Elə isə böyük günaha düşən (mürtəkibi kəbirə) bir möminin iman vəziyyəti nədir? Qətl törədən insan bu hərəkəti işləyərkən azad iradəyə sahibdir, yoxsa ilahi qədərin məcburi tətbiqçisidir?

Qədər mövzusunda ilk münaqişələri başladanın Məbəd əl-Cühəni (v. 699) olduğu qəbul edilməkdədir [5, s. 30]. Problemin doğuşunda xarici səbəblərin, xarici ünsürlərin birbaşa təsiri olmasa da, daha sonrakı dövrlərdə onun inkişaf edib dərinləşməsində və çeşidli şəkillərdə qiymətləndirilməsində həm şərq xristian ilahiyyatının, həm də yunan fəlsəfəsinin böyük təsirinin olduğu inkar edilə bilməz.

Belə ki, Məbəd əl-Cühəni qədər mövzusunda Əbu Yunus Sənsəveyh əl-Üsvari adı ilə tanınan bir xristiandan təsirlənmişdir. Geylan əd-Diməşqi (v. 120/738) isə Məbədin fikirlərini yaymışdır [6, s. 156].

Buxari "Səhih"ində rəvayət etdiyinə görə, Peyğəmbər (s) bir qrup səhabənin qədər haqqında söhbət etdiyini eşitmiş və hirslənərək buyurmuşdur: "Ey camaat, sizdən əvvəlki ümmətlər bununla yollarını azmış və ixtilafa düşərək sapmışlar. Kitabın bir qismini digər qisminə qurban vermişlər. Qurani-Kərim sizə bir qismi digər qismə qurban verəsiniz deyə nazil olmamışdır. Əksinə, Quranın bir qismi digər bir qismini təsdiq edər. Siz ondan açıqca nəyi anlayırsınızsa, onunla əməl edin. Sizə nə mütəşabih görünürsə, ona da iman edin" [6, s. 237].

Cəfəri mütəfəkkirlərin əksəriyyəti qədər mövzusunda Quran və hədisləri qaynaq

götürməmişlər, lakin başqa qaynaqlardan əldə etdikləri görüşlərə söykənən və Quran ilə hədisə nəzərən lazım olan hökmlərinə bu iki islami qaynaqda dəlillər tapmağa çalışmışlar. Yəhudi və xristianlarda da hər şeyin əvvəldən təsbit və təyin edildiyi şəklində cəbri, digər yandan azad iradəyə yer verən görüş və nəticələr olmuşdur. Bu atmosfer içində zamanla ortaya çıxan müxtəlif problemlərlə də mübahisəyə davam edən bu mövzuda hər məzhəb və məktəb öz görüşünün doğruluğunu ortaya qoymaq baxımından ayə və hədislərdən dəlillər aramaq və tapmaq məcburiyyəti hiss etmişlər.

Bir nəfər imam Əlidən (ə) qəzavü-qədər haqqında soruşduqda belə cavab almışdır: "Allah sənə rəhm etsin; sən qəzavü-qədərin qəti və mütləq bir şey olduğunu sanırsanmı? Belə olsaydı, artıq savab və cəzanın heç bir mənası olmazdı və yaxşılığa çağırmaqla yamanlıqdan uzaqlaşdırmağın bir əhəmiyyəti qalmazdı. Allah öz bəndələrinə əmr etmiş və onları çəkindirmişdir, amma seçməkdə onları azad qoymuşdur. Onların təkliflərini asan etmiş və çətinləşdirməmişdir. Az bir əməllərin qarşılığında çox savab vermişdir. Allaha qarşı məğlubdur deyə, üsyan edilməyib, zorla da kimsəni itaət etməyə məcbur etməyib. Peyğəmbərləri (ə) oyuncaq olsunlar deyə, göndərməyib, kitabları da bihudə yerə nazil etməyib. Göyləri, yeri və onların arasında olan məxluqatları da boş-boşuna yaratmayıb. Bu, kafirlərin xəyalıdır. Cəhənnəm odunda yanacaqlarına görə vay bu kafirlərin halına [7, c. IV, s. 673].

Cəfəri məzhəbinin davamçıları qəzavü-qədər mövzusunda Həzrət Əlinin (ə) bu bəyanını əsas götürürlər. Onların fikrincə, bu sözləri oxuyan hər kəs öz əməllərində azad olduğuna inanar. Çünki Allah bizə əmr edib, amma seçmək azadlığını da bizə bəxş edibdir. İmam Əlinin (ə) "Allah bəndələrə seçim ixtiyarı vermişdir", – deyə buyurduğu sözün mənası da budur. Daha sonra Əli (ə) daha artıq izah edərək belə söyləmişdir: "Allaha qarşı məğlubdur deyə, üsyan edilməyib". Bu sözün mənası odur ki, Allah insanları bir işi görməyə məcbur etmək istəsəydi, onda bəndələri birləşsəydilər belə, yenə də Allahın işinə qalib gələ bilməzdilər. Bu isə Allahın bəndələrinə itaət ilə üsyan arasından birini seçmək azadlığını göstərir. Bunu Allah "Kəhf" surəsinin 29-cu ayəsində belə bəyan edir: ***"De ki, haqq Rəbbinizdəndir. Kim istəyir iman gətirsin, kim də istəyir kafir olsun"***.

Ondan sonra imam Əli (ə) insan vicdanının dərinliklərinə xitab edərək bəzilərinin inandığı kimi, insanın öz işlərində məcburi olduğu fikrini rədd etmək üçün möhkəm dəlillər göstərir. Çünki insanın gördüyü işlər məcburi olsaydı, onda peyğəmbərlər (ə) və səmavi kitablar göndərmək yersiz və dəyərsiz işlər olardı. Allah bu kimi işlərdən uzaqdır.

# ƏDƏBİYYAT


1. Keskin Halife. İslam Düşüncesinde Kader ve Kaza. Beyan yayınları, 1997.
2. Abdülcabbar Kadı. "Kader", T.D.V İslam Ansiklopedisi, c. XXIV.
3. Karadeniz Osman. Kader Konusunda Bazı Yanlış Anlamalar // Dokuz Eylül İlahiyat Fakültesi Dergisi, VII. İzmir.
4. Turhan Kasım. Kelam ve Felsefe Açısından İnsan Fiilleri. İstanbul: M.Ü. İlahiyat Fak. Vakfı Yayınları.
5. Yeprem Saim. İrade Hürriyeti ve İmam Maturidi. İstanbul: M.Ü. İlahiyat Fak. Vakfı Yayınları.
6. Sahihi-Buhari. İstanbul: Çağrı Yayınları, 3. baskı.
7. Əbduh Məhəmməd. Şərhu Nəhcül-bəlağə.

Алирза Гафаров

## ПОНЯТИЕ СУДЬБЫ И РОКА В ИСЛАМЕ

РЕЗЮМЕ

Воля Аллаха также охватывает человеческие поступки. Во вселенной ни одно событие не находится за пределами воли Аллаха. Но в отличие от того, что говорят в Ашари, это не приводит к последствиям Джабра. Он изъявляет волю Бога исполнять все функции каждой работы напрямую.

Alirza Gafarov

## CONCEPTS OF FATE AND DESTINY IN ISLAM

SUMMARY

Allah’s will also encompasses human deeds. In the universe of existence, no event or existence is beyond the will of Allah. But in contrast to what the Asharies say, this does not lead to jabr consequences. It involves the will of God to do with all the features of every work directly.

# İSLAM MƏDƏNİYYƏTİNDƏ BİRGƏYAŞAYIŞ ƏNƏNƏSİ

**Könül ƏHMƏDOVA,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*Akkreditasiya və Nostrifikasiya İdarəsinin aparıcı mütəxəssisi,*
*Bakı Dövlət Universitetinin doktorantı*
*konul.ahmadova@list.ru*

***AÇAR SÖZLƏR:*** *xoşgörü, əhli-kitab, səmavi dinlər, zımmi, cizyə, əsri-səadət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *терпимость, люди Писания, небесные религии, зимми (немусульмане), джизья, аср аль-саада.*
***KEY WORDS:*** *tolerance, people of the Book, divine religions, dhimmī (non-Muslims), jizyah, asr al-saadah.*

Bütün səmavi, hətta qeyri-səmavi dinlər (Buddizm, Hinduizm və s.) eyni məqsədə – sülhə xidmət edir. Hərçənd bəşəriyyət bu dinlərin yayıldığı coğrafiyada da günlər, aylar, hətta illər sürən müharibələrə şahiddir. Allah-Təala insanı azad iradə ilə yaratdığı üçün onun təbiətində mövcud olan qan tökmək, xəsislik, paxıllıq, kin, qəzəb, qisas və s. kimi mənfi xüsusiyyətlər bəşəriyyətin daim sülh şəraitində yaşamasına mane olur. Beləliklə, bu savaşların səbəbi dindən deyil, din mənsublarının dinin əsaslarını yanlış yozmalarından, dolayısı ilə insanların özlərindən (siyasi, iqtisadi, sosial və s. səbəblərdən) qaynaqlanır.

İslam insanlar arasında hüzur, əmin-amanlıq mühitinə xələl gətirən reaksiyaları azaldan, sosial gərginlik və qarşıdurmaları soyudan, fərdlər və cəmiyyətlər arasında etibarı, qarşılıqlı sevgini, hörməti təmin edən xoşgörü dinidir. İslam sözünün mənası da "ixlas, itaət, əmin-amanlıq, sülh, boyun əymək, təslim olmaq, səmimiyyətlə bağlanmaq" deməkdir. Qurani-Kərimin bir çox surəsində barışı təşviq edən ayələr mövcud olduğu halda [1, Nisa, 86, 90; Ənfal, 61; Əraf, 56; Maidə, 32], İslam dininin yalnız qılınc gücünə yayıldığını iddia etmək tarixə və sonuncu səmavi dinin hökmlərinə iftira atmaqdır. Cihada icazə verən ayələr isə mütləq deyil, müəyyən səbəb və şərtlərə bağlıdır. Qurani-Kərim insanların birlikdə yaşamalarını və dini etiqad azadlığını təmin etmək üçün "*dində məcburiyyət yoxdur*" [1, əl-Bəqərə, 256] buyurur. Eyni zamanda, fərqli insanların bir yerdə yaşaya bilmələri üçün müəyyən tövsiyələr verir, əmin-amanlığın pozulmasına səbəb olanlarla mübarizə aparılmasını buyurur, vicdan və seçim azadlığının qorunması vacib sayır.

***"(Ya Rəsulum!) De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir sözə doğru gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim***

***olanlarıq)!"*** [1, Ali-İmran, 64] ayəsinin təfsirinə nəzər yetirdikdə haqq olan bir sözdə birləşməyin mümkün olduğunu, İslamın bəşəriyyət aləmində nə qədər geniş, açıq, doğru bir hidayət yolu olduğunu, bundan əlavə, ümumbəşər xüsusiyyət daşıdığını görə bilərik [2, II, s. 378-388]. Qurani-Kərim əhli-kitabla qarşılıqlı əlaqələrdə yaxşı davranmağı, kitab və peyğəmbərlərin göndəriliş məqsədinə zidd olmayan üsullardan istifadə etməyi, ağıla və fitrətə uyğun münasibət göstərməyi əmr edir. Yalnız bu şəkildə davranmaqla din birliyini və cəmiyyətdə əmin-amanlığı təmin etmək mümkündür. Qurani-Kərimin tolerantlıqla bağlı bir çox ayəsi istər müsəlman, istərsə də qeyri-müsəlman ölkələrində yaşayan müsəlmanların fərqli din, dil, etnik ünsürlərin çox olduğu cəmiyyətlərdə hüzur, etibar və barış içində yaşaya biləcəklərini göstərir.

İslam tarixini diqqətlə nəzərdən keçirsək, birgəyaşayış ənənəsinin ən gözəl nümunələrini İslamın ilk dövrlərindən başlayaraq Osmanlı imperiyasının sonuna qədər İslam tarixinin fərqli dövrlərində görmək mümkündür. Digər inanc mənsubları ilə birgəyaşayış təcrübəsi baxımından müsəlmanların tarixi Avropa Xristianlıq tarixi ilə müqayisədə zəngin nümunələrlə doludur. Çünki Avropa yalnız Xaçlı səfərləri əsnasında və XVI-XVII əsrlərdə coğrafi kəşflərdən sonra digər dinlər və millətlərlə tanış oldu. Halbuki müsəlmanlar Əsri-səadətdən etibarən digər din mənsubları ilə dini, siyasi, iqtisadi və sosial əlaqələr yaratmışdılar [3, s. 41-59].

İslam ordusu 10 il ərzində bütün Ərəbistan yarımadasını, Fələstin və İraqın cənub hissəsini fəth etdi. Bu 3 milyon $km^2$ ərazi demək idi. Bu fəthlər zamanı öldürülən düşmən əsgərlərinin sayına baxdıqda hər ay iki əsgər belə öldürülməmişdi. İşğal etdikləri ərazilərdə müsəlmanlar yerli əhaliyə İslamı təbliğ etsələr də, məcburi şəkildə onların dinlərini dəyişdirmədilər [4, s. 101].

Səmavi dinlər zaman keçdikcə orijinallığını itirdiyi üçün Qurani-Kərimdə Yəhudilik və Xristianlıqdan bəhs edilməmiş, bu dinlərə inananlar yəhudi və xristian adlandırılaraq təsvir olunmuşdur. Yəhudi və xristianların yenidən bu dinin əsaslarını qəbul etməyə dəvət olunmaları, əslində, İslam xoşgörüsünün ilk addımı kimi qiymətləndirilə bilər. Qurani-Kərimdəki əhli-kitabla bağlı ayələr və Müqəddəs Kitabdakı İslam düşüncəsinə uyğun ifadələr səbəbindən müsəlmanlar əhli-kitaba qarşı digər inanc mənsubları ilə müqayisədə fərqli bir davranış metodu tətbiq etmişlər. Məsələn, müsəlmanlar əhli-kitabdan olan qadınlarla evlənmiş, onların kəsdikləri heyvanları və qonaq etdikləri yeməkləri yemişlər. Məhəmməd peyğəmbər (s) dövründə müsəlmanlar əhli-kitabla dialoq qurmuş, dost münasibətlər saxlamış, siyasi, iqtisadi və mədəni məsələlərdə əlaqələr yaratmışlar [4, s. 78]. Mənbələrdə Həzrət Peyğəmbərin (s) əhli-kitabdan olanların toylarında yemək yediyi, dəfn mərasimlərində cənazə daşıdığı, xəstələri ziyarət etdiyi və onları öz evinə qonaq çağırdığı bildirilir [5, s. 78]. Fərqli din, dil, irq və məzhəb mənsubları yalnız Məhəmməd peyğəmbərin (s) yaşadığı yaxın bölgələrdə deyil, uzaq bölgələrdə də yaşayırdılar. Məsələn, yəhudilər Xeybər, Fədək, Teyma, Maqna və Vadil-Qurada, Məcusilər Həcər və Bəhreyndə, xristianlar Əylə, Əzruh, Dümətül-cəndəl və Nəcranda yaşasalar da, etnik və milli kimliklərini qoruyub saxlamış, öz inanclarını müsəlman dövlətinin himayəsi altında sürdürmüşlər. Onlar Mədinəyə gəldikdə səhabələrin evlərində, Məscidi-Nəbəvinin ətrafında olan əshabi-suffənin məskunlaşdığı yerlərdə və Məscidin yanında qurulan çadırlarda qalırdılar [6, s. 315-316; 356]. Qeyri-müsəlmanlar (zımmilər) müsəlman dövlətinin himayəsi

altında olduqları üçün qarşılığında vergi (cizyə) vermiş və bu, Osmanlı dövləti yarananadək davam etmişdir. Həmin cizyə vergisi qadın, uşaq və yaşlılardan, həmçinin kilsələrdən alınmırdı. Cizyəni ödəməyən zımmiyə işgəncə verilmirdi, sadəcə, həbs olunurdu.

Peyğəmbər xoşgörüsünün ən mühüm nümunəsi müasir dövrdə Mədinə konstitusiyası, Mədinə vəsiqəsi, Mədinə sənədi, Mədinə müqaviləsi və mədinəlilər müqaviləsi kimi bilinən [7, 167], 47 və ya 52 maddə halında təsnif edilmiş sülh andlaşmasıdır. Vəsiqənin mövzu ilə bağlı aşağıdakı maddələri mövcuddur:

1. Yəhudilər möminlər kimi, müharibə davam etdiyi müddətdə (öz hərb) xərclərini ödəmək məcburiyyətindədirlər.

2. Yəhudilər müsəlmanlarla birlikdə, bərabər şəkildə müharibə etdikləri müddətdə məsrəf edəcəklər.

3. Yəsribə hücum edənlərə qarşı onlar (müsəlmanlar və yəhudilər) arasında yardımlaşma olacaqdır.

Bu sülh andlaşması Mədinədə dini olduğu qədər, siyasi cəmiyyət meydana gətirmək məqsədini də güdürdü. Mədinə sənədində yəhudilərə Məkkə müşriklərinə yardım, yaxud himayə etmək açıq şəkildə qadağan olunmuşdu. Düşmən hücumlarında müsəlman-yəhudi ittifaqı olacaq, müdafiə üçün aparılan döyüşlərin xərclərini hər iki tərəf ödəyəcəkdi. Lakin Mədinədən kənarda aparılan döyüşlərdə heç bir cəmiyyət digərinə yardım etmək məcburiyyətində deyildi. Həzrət Məhəmmədin (s) icazəsi və razılığı ilə yəhudilər müsəlmanların hərbi səfərlərinə qoşula bilərdilər. Artıq yəhudilər müsəlmanlara düşmən olan məkkəlilərə aman (təhlükəsizlik) haqqı verməyəcəkdilər. Bu müqavilədən sonra Mədinədəki müşrik ərəblər və yəhudilər müsəlmanları dini, siyasi və ictimai cəhətdən tanıyırdılar. Müsəlmanlar qeyri-müsəlmanların inanc və fikir hürriyyətini, mal və can təhlükəsizliyini təmin edirdilər [7, 168-169]. Hətta bu vəsiqənin "dünyada bir dövlətin ortaya qoyduğu ilk yazılı konstitusiya xüsusiyyətinə sahib olduğu" [8, I, 206] qəbul edilir. Lakin yəhudilər daha sonra bu vəsiqəyə sadiq qalmadılar. Qureyşi təhrik etmələri, hiyləyə əl atmaları, Övs və Xəzrəc qəbilələrinin arasını qızışdırmağa çalışmaları, Həzrət Peyğəmbərə (s) sui-qəsd hazırlamaları səbəbindən əvvəlcə Qəynuqa, sonra da Nəzir qrupları şəhərdən uzaqlaşdırıldı. Xəndək döyüşündən sonra da Qureyzənin cəzalandırılması ilə anlaşma qüvvədən düşdü [8, I, 220-229; 9, 30-47].

Sonrakı dövrlərdə xristianlar və yəhudilərlə birlikdə hindular, məcusilər, sabiilər, buddistlər və digər qeyri-müsəlmanlar İslam dövlətinin idarəsi altında yaşamağa başladı. Həm silah daşımaları, həm də İslam dövlətinin himayəsi qarşılığında cizyə ödəmələri şərti ilə bu fərqli din və inancdakı insanlara sülh təminatı verilirdi [10, s. 143; 5, s. 237]. Məhəmməd peyğəmbər (s) dövründəki xoşgörü anlayışı dörd Raşidi xəlifəsi, Əməvilər, Abbasilər, Səlcuqlar və Osmanlılar dövründə də davam etmişdir. Birinci raşidi xəlifəsi Həzrət Əbu Bəkrin belə dediyi nəql olunur: "Savaşda da insafdan ayrılmayın. Uşaqları, yaşlıları və qadınları öldürməyin və onlara zülm etməyin. Kilsədə ibadət edənlərə toxunmayın" [11, II, 33-34]. Həzrət Ömər də Qüdsün fəthindən sonra barış andlaşmasını imzalamaq üçün Qüdsə gəldikdə orada yaşayan fərqli din mənsublarını bundan sonra İslam dövlətinin himayə edəcəyini bildirmişdir [12, s. 147]. Həzrət Əli Misir

valisi Malik əl-Əstərə belə təlimat vermişdir: "(İstər müsəlman olsun, istər olmasın) qəlbini xalqa qarşı mərhəmətli, şəfqətli və xoşgörülü olmağa öyrəşdir" [10, s. 143]. Həzrət Əlinin xəlifə olduğu dövrdə daxili qarşıdurma zamanı Bizans imperatoru II Konstantin İslam dövlətindəki xristian cəmiyyətlərinə: "Tanrı bizə bir fürsət verdi. Müsəlmanlara qarşı üsyan edin. Beləliklə, ortaq düşmənlərimizi torpaqlarımızdan qovmuş olarıq" şəklində gizli xəbər göndərdikdə, xristianlar: "Biz din düşmənlərimizə üstünlük veririk" deyərək onun təklifini rədd etmişlər [13, s. 9; 14, s. 83]. Əməvilər dövründə Əndəlüsdə müsəlmanların yəhudilərə, o cümlədən yerli xalqa göstərdiyi xoşgörü və tolerant davranış Abbasilər dövründə də Bağdadda xristianlara qarşı eyni qaydada davam etmişdir [12, s. 144; 15, s. 94]. Abbasi hökmdarı Məmunun dövründə Beytül-Hikmə araşdırma mərkəzinin yaradılması İslam dövlətində xristianlara göstərilən bu xoş münasibətə bir örnəkdir.  Belə ki, bu araşdırma mərkəzində müsəlmanlarla yanaşı, xristian tərcüməçilər də fəaliyyət göstərmişdir [16, s. 395]. Vəlid ibn Əbdülməlik Dəməşq məscidi kiçik olduğu üçün buranı genişləndirmək məqsədilə Yohanna kilsəsini dağıtdığı rəvayət olunur. Xəlifə Ömər ibn Əbdüləziz kilsənin yenidən bərpası məqsədi ilə məscidin sökülməsi əmrini verməsi müsəlman idarəçilərin andlaşmalara nə dərəcədə diqqətlə yanaşdıqlarına və fərqli dinlərin ibadət məkanlarına necə hörmət etmələrinə bariz nümunədir [12, s. 147]. Yəhudilərin sadəcə yəhudi olduğuna görə öldürüldüyü və inkvizisiya məhkəmələrinin onların dininə tabe olmayanları yandırdığı dövrdə Osmanlılar tabeliyində olan müxtəlif din mənsublarının sülh və barış içində yaşamalarını təmin edirdilər. Hətta Balkan xristianlarından çoxu öz arzusu ilə İslamı qəbul etmişdi [17, I, s. 456]. Osmanlılar nəinki hakimiyyəti altında yaşayan millətlərin dini azadlığını və sərbəstliyini təmin etmiş, eyni zamanda Balkan yarımadasındakı millətləri qorumuşdur. Əks təqdirdə nə serb, nə sloven, nə bolqar, nə də yunanlar bu günə qədər varlıqlarını davam etdirə bilməzdilər. Çünki o dövrdə Ortodoks Balkan xristianlığı Katolik kilsəsi tərəfindən təqib olunurdu. Çoxdinli və çoxmillətli olan Əndəlüsdə təqribən 8 əsr davam edən müsəlman hakimiyyəti dövründə (711-1492) müsəlmanlar, xristianlar və yəhudilər eyni ölkə daxilində ciddi problemlərlə qarşılaşmadan birlikdə yaşamağı bacarmışdılar. Əndəlüs fəth edilməzdən əvvəl xristian idarəçiləri tərəfindən məcburi xristianlaşma siyasəti ilə qarşılaşan yəhudilər müsəlmanların ədalətli davranışı nəticəsində rahat nəfəs ala bilmişdilər. 1492-ci ildə Qranadanın işğalından sonra İspaniyada hegemon olan kral Ferdinandın dövründən başlayaraq müsəlmanların mədəni hüquqları əlindən alınmış, daha sonrakı illərdə isə məcburi xristianlaşma siyasəti tətbiq edilmiş və bu da nəticə vermədikdə inkvizisiya qərarları ilə minlərlə müsəlmanı qətlə yetirilmiş, yüzlərlə müsəlman isə sürgünə göndərilmiş, yaxud həbs olunmuşdur (1492-1609) [18, s. 206; 19, s. 109-114; 20, s. 243-284].

Beləliklə, 14 əsrlik uzun zaman müddətində dövrün şərtlərini də nəzərə alsaq, deyə bilərik ki, həm bəzi idarəçilərin fərqli davranış metodları, həm də insanların fitrətindən qaynaqlanan zəiflikləri nəticəsində mənfi hadisələr də baş vermişdir. Lakin yəhudi və xristianların tarixi ilə müqayisədə, İslam tarixində bunlar azlıq təşkil edir. Beləliklə, günümüzdə birgəyaşayış adlandırılan tətbiqat sisteminin ilk prototipinin Əsri-səadətdə meydana gəldiyini əminliklə demək mümkündür.

Qeyd olunan tarixdəki xoşgörü nümunələrini bu günün şərtləri çərçivəsində dəyərləndirərək yeni anlayış və yaradıcı düşüncə ilə yenidən həyata keçirilsə, daha yaxşı nəticələr əldə etmək olar. Çünki xoşgörü Qurani-Kərimin bir əmri, Məhəmməd peyğəmbərin (s) davranışlarının əsası, mədəniyyətimizin, tariximizin təməli və zəmanətidir. Qurani-Kərimin "Hücurat" surəsinin 13-cü ayəsində buyurulur: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..."**

# ƏDƏBİYYAT


1. Qurani-Kərim (ərəb dilindən tərcümə: Z.M.Bünyadov, V.M.Məmmədəliyev). İstanbul: Mega Basımevi, 2015.
2. Hamdi Yazır Elmalalı M. Hak Dini Kur'an Dili. İstanbul: Azim yayınevi, c. III, 2016.
3. İsmail Hakkı Atçeken. İslam tarihinde birarada yaşama tecrübesi (Asr-ı Saadet ve Endelüs örneği). Selçuk Üniversitesi İlahiyat fakültesi, N 14, s. 41-59, 2009.
4. Boyunağa Yılmaz. Türk-İslam sintezi, İstanbul: Yağmur yaynıları, 1970.
5. Güner Osman, Hz.Peygamber'in Ötekine Bakışı, İslam ve Öteki – Dinlerin Doğruluk/Kurtarıcılık ve Birarada Yaşama Sorunu. Red. Cafer S. Yaran, İstanbul: Kaknüs Yayınları, 2001.
6. Sarıçam İbrahim. Hz. Muhammed'in Evrensel Mesajı. Ankara: TDV, 2003.
7. Sarıçam İbrahim. Həzrət Muhamməd və ümumbəşər dəvəti (türk dilindən tərcümə M.Camalov, E.Əzizova, A.Şirinov, M.Mürsəlov və d.). Bakı: İpəkyolu nəşriyyatı, 2013.
8. Hamidullah Muhammed. İslam Peygamberi (ərəb dilindən tərcümə Mehmet Yazgan). İstanbul: Beyan yayınları, 2014, c. II.
9. Tuğ Salih. İslam Ülkelerinde Anayasa Hareketleri. İstanbul: İrfan, 1969.
10. Ethem Ruhi Fıglalı. İslam ve Diger Dinler, Uluslararası Hoşgörü Kongresi. Ankara: Bil-Kav yayınları, 1995.
11. Doğuştan Günümüze Büyük İslam Tarihi. İstanbul: Çağ yayınları, c. XIV, 1989.
12. Akyüz Davut. İslam Tarihinde Dinlerarası Diyalog Örnekleri, Diyologun Dini ve Tarihi Temelleri. İzmir: Işık yayınları, 2006.
13. Hamidullah Muhammed. Hicretten Sonra Medine'de Hz. Peygamber'in Davranışlarındaki Hoşgörü. Trc. Mustafa Aşkar, Diyanet İlmi Dergi, c. XXXI, N1, Ankara, 1995, s. 3-11.
14. Keskin Yusuf Ziya. Nebevi Hoşgörü. İstanbul: Timaş yayınları, 1997, 110 s.
15. Özdemir Mehmet. Endülüs Müslümanları (siyasi tahlil). Ankara: TDV yayınları, 1994
16. Öztürk Levent. İslam Toplumunda Birarada Yaşama Tecrübesi. İstanbul: İnsan yayınları, 1995.
17. Jorga Nicolea. Geschichte des Osmanischen Reiches nach den Quellen dargestellt. Almaniya, 1908-1913, c. V.
18. Lea Henry Charles. İspanya Müslümanları: Hıristiyanlaştırılmaları ve Sürülmeleri. Trc. Abdullah Davudoğlu. İstanbul: İnkılab yayınları, 2006, 448 s.
19. Rodrigo de Zayas. Endülüs'te Yüzbinlerce Müslüman Katledildi. Endülüs'ten İspanya'ya. Trc. Celal Aydın. Ankara: TDV yayınları, 1996.
20. Özdemir, Mehmet. İspanya Krallığı'nın XVI. Yüzyılda Endülüs Müslümanlarını Hıristiyanlaştırma Politikası. Ankara, 1996, c. XXXV, s. 243-284.

Кёнуль Ахмедова

## ТРАДИЦИЯ СОСУЩЕСТВОВАНИЯ В ИСЛАМСКОЙ КУЛЬТУРЕ


### РЕЗЮМЕ

Вопрос, имеет ли религия влияние на террористические акты и насилие мире, представляет интерес. Также интерес вклад религии в международный мир и сосуществование. В XXI веке, в период сосуществования различных культур, религий и рас, мир, согласие и терпимость необходимы среди групп, придерживающихся разных убеждений. Вполне возможно, что мы можем найти яркие примеры совместной жизни в исламской истории. В данной статье представлены наглядные примеры сосуществования мусульман с другими верующими.


Konul Ahmadova

## TRADITION OF COEXISTENCE IN THE ISLAM CULTURE


### SUMMARY

It is an interesting topic whether the religions have an act on terror attack at the world or not. It is also interesting their contributions to world peace and living together. At the XXI century in which different culture, religion and race live together, peace, agreement and tolerance are important necessities among the groups that have different beliefs. It is possible that we can find excellent examples of coexisting in the Islamic history. The examples which we will deal with in this article provide us with good examples of Muslims' living together with other members of belief alongside with some exceptional practices.

# MƏHƏMMƏD PEYĞƏMBƏR – LİDER KİMİ

***Fariz ƏHMƏD,***
*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*
*Dövlət Neft-Qaz Elmi Tədqiqat İnstitutu,*
*"Qum-su təzahürü ilə mübarizə" şöbəsinin baş elmi işçisi*
*farizahmed@mail.ru*

***AÇAR SÖZLƏR:*** *liderlik, peyğəmbər, dinləmə bacarığı, uzaqgörənlik, məsuliyyət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *лидерство, пророк, способность слушать, дальновидность, ответственность.*
***KEY WORDS:*** *leadership, prophet, ability to listen, farsightedness, responsibility.*

Müasir dövrdə liderlik anlayışına müxtəlif yanaşmalar mövcuddur. Liderlik konsepsiyası anlayışları inkişafının bütün mərhələlərində müxtəlif alimlər tərəfindən tədqiq edilmiş, bu və ya digər ictimai dairədə müzakirələrə səbəb olmuş, haqqında bir çox mülahizə irəli sürülmüşdür.

Britaniya yazıçısı və filosofu Tomas Karleyl özünün "Qəhrəmanlar, qəhrəmanlara pərəstiş və tarixdə qəhrəmanlıq" əsərində qəhrəmanlara romantik sitayişi təbliğ edir, onları müstəsna şəxsiyyətlər hesab edir. O bildirir ki, onlar öz işləri ilə ilahi planı yerinə yetirir və adi kütlə üzərində yüksələrək bəşəriyyəti irəli aparırlar [1].

Liderlik üzrə aparıcı amerikan eksperti Con Maksvellə görə isə "hər şey liderdən asılıdır". Maksvell iddia edir ki, hansısa şəxs insanlara təsir göstərə bilmirsə, o, heç vaxt insanları bir yerə toplayıb arxasınca apara bilməz [2].

Bəzi mütəxəssislərin rəyinə görə, liderliyin beş komponenti mövcuddur:

- strateji komponent. Liderlik başqalarının hansı səmtə istiqamətlənəcəyini güman etməkdir.

- hərəkət komponenti. Lider təşkilatı A nöqtəsindən B nöqtəsinə hərəkət etdirir. Liderin hərəkətə meyilliyi;

- mədəni komponent. Açıqlıq və etimad mühiti yaratmaqla strateji təfəkkürü, tədrisi və hərəkəti təmin edən strateji mədəniyyətin vacibliyi;

- sosial-siyasi komponent. Sosial və siyasi məsələlər sahəsində əməkdaşlıq;

- mənəvi komponent. Liderliyin mənəvi aspekti onun dürüst, ədalətli və açıq olmasını təyin edir [3; 4].

Lider özündə bu xüsusiyyətləri ehtiva edir: dinləmə qabiliyyəti, dərdə şərik olma, inandırma, uzaqgörənlik, digərlərinin inkişafı və böyüməsinə qayğı, iş həyatı xaricində də birləşməni təmin edən qrupların və mühitin yaradılması.

Liderə lazım olan xüsusiyyətlərdən ilki cəsarətdir. O, məqsədinə nail olmaq üçün başqalarını öz arxasınca apardığının fərqinə varmalı və qorxmamalıdır. Hər şeydən qorxan insan lider ola bilməz. Təbiətcə Allahın elçisi Məhəmməd (s) də cəsarətli adam idi. Həyatında

qorxaqlıq kimi qiymətləndirə biləcəyimiz davranışa rast gəlinmir. Bütün Ərəbistan şirkin içində üzdüyü bir dövrdə tövhid bayrağını qaldırmaqdan çəkinməmiş, heç bir çətinlik onu mübarizəsindən döndərə bilməmişdir. O, bütün maneələri aşaraq mübarizə nəticəsində ətrafına yüz minlərlə insanı toplamışdır. Həzrət Əli Məhəmməd peyğəmbərin (s) döyüşdə göstərdiyi cəsarət barədə demişdir: "*Bizi qorxu və vahimə basanda (döyüş çətinləşəndə) özümüzü Allahın elçisi (s) vasitəsi ilə qoruyurduq və bizdən heç kəs düşmənə o Həzrətdən yaxın deyildi*". Rəvayətə görə, İslam tarixində çətin döyüşlərdən olan Hüneyn savaşında ordunun parçalanması təhlükəsi yarandıqda Həzrət Məhəmməd (s) "*Hara gedirsiniz, ey insanlar! Mən Rəsulullaham. Mən Məhəmməd ibn Abdullaham*" - deyərək atını sürətləndirmiş və irəli getmişdir. Bu, orduya cəsarət vermiş və sıraların yenidən bərpasına səbəb olmuşdur.

Liderliyin digər xüsusiyyəti öz prinsiplərini müdafiə etmək bacarığıdır. Qətiyyətli liderlər özləri uğur qazanmaqla yanaşı, başqalarına da yol göstərə bilirlər. Allah Rəsulu (s) da bütün çətinliklərə baxmayaraq, öz inancının müdafiəsində heç tərəddüd etməmişdir. Onun qətiyyəti iman üçün həyatlarını qurban verməyə hazır olan səhabələr cəmiyyəti formalaşdırmışdır. Məhəmməd peyğəmbər (s) Məkkədə çox çətinliklə qarşılaşmışdır. Bir-birinin ardınca yaxın qohumlarını, həyat yoldaşı və əmisinin simasında ən böyük dəstəyini itirmişdir. Lakin o, ümidsizliyə qapılmamışdır. Missiyasından imtina etməsi müqabilində məkkəlilər tərəfindən ona dünya rifahı təklif olunduqda Allah Rəsulu (s) rədd cavabı vermişdir.

Hər bir rəhbər tez və düzgün qərar qəbul etməyi də bacarmalıdır. Bu xüsusiyyəti ilə lider adi insanlardan fərqlənir. Məhəmməd peyğəmbərin (s) müvəffəqiyyətsizliyə uğrayan heç bir qərarı olmamışdır. O, düzgün qərarı sayəsində müsəlmanlar arasında baş verən fitnəni aradan qaldırmağa nail olmuşdur. Belə ki, Bəni Müstəliq yürüşündə Allah Rəsulu (s) münafiqlərin başçısı Abdullah ibn Übey tərəfindən yayılan fitnənin qarşısını ala bilmişdir. Rəvayətə görə, yürüşdən qayıdarkən yolda biri ənsardan, digəri mühacirlərdən olmaqla, iki nəfər arasında mübahisə düşmüşdür. Bunu fürsət bilən Abdullah ibn Übey münafiqləri toplayaraq onları Məhəmməd peyğəmbərin (s) əleyhinə yönəltməyə qərar vermişdir: "*Bizi öz torpaqlarımızda narahat edirlər. Mədinəyə çatdıqda layiqlilər layiqsizləri oradan qovacaq*". Bu xəbər yayıldıqda Ömər ibn Xəttab Məhəmməd peyğəmbərə (s) demişdi ki, əmr elə, onun başını vursunlar. Lakin Allah Rəsulu (s) bu qərara etiraz etmişdir: "*Ey Ömər, sonra Məhəmməd öz dostlarını öldürtdürür deməzlərmi?*" Peyğəmbərin (s) göstərişi ilə ordu istirahət etmədən yoluna davam etmişdir. Hamı yorulduğu üçün münaqişə də unudulub getmişdir.

Liderin digər bir xüsusiyyəti problemləri aradan qaldırmaqdır. Həmçinin o, ona güvənən insanlar qarşısında etibarlı olmalıdır. Belə bir lider cəmiyyət tərəfindən sevilir və ona ehtiram bəslənilir. Həzrət Məhəmməd (s) elə bir lider idi, kömək üçün ona müraciət edənlərin problemlərini həll etməyə çalışırdı. Bunun ən parlaq nümunəsini Peyğəmbərin (s) Həcərül-əsvəd məsələsində hakimliyi, ənsarla mühacirləri qardaş edərək köç problemini aradan qaldırması, Mədinənin konstitusiyasının yaradılması, Hüneyn qənimətlərinin paylanılmasından qaynaqlanan problemi həll etməsi təşkil edir.

Həmçinin lider onun ardınca gedənlərin inkişafına və tərəqqisinə çalışmalıdır. Bu zaman

təkcə öyüd-nəsihət etmək yetmir, liderin özünün prosesdə birbaşa iştirak etməsi vacibdir. Peyğəmbər (s) özü savadsız bir cəmiyyətin təkmilləşməsinə nail olmuşdur. Allah Rəsulu (s) xüsusilə Mədinə dövründə bu işə diqqət yetirmişdir. Bu məqsədlə o, məsciddə xüsusi yer ayırmışdır. İlk müsəlman təhsil müəssisəsi hesab edilən həmin yer Suffə adlandırılmışdır. Daha maraqlı bir fakt isə, Bədr döyüşündə əsir düşənlərə azadlıqları müqabilində 10 səhabəyə yazıb-oxumağı öyrətməyin təklif edilməsidir.

Liderdə tələb olunan növbəti xüsusiyyət hökm gücüdür. Məcburiyyət əvəzinə lider müsahibini inandıraraq, onda güvən oyadaraq, onun şüurunu və ürəyini fəth etməyi bacarmalıdır. Allah Rəsulunda (s) bu xüsusiyyət açıq-aydın nəzərə çarpmaqdadır. Hüneyn döyüşündə qənimətlərin paylanması zamanı ortaya çıxan problem buna gözəl örnəkdir. Qələbədən sonra Peyğəmbər (s) yeni müsəlman olanların könlünü almaq üçün qənimətlərin böyük hissəsini onlara ayırdı. Bu hadisə, xüsusilə gənc ənsarları həyəcanlandırdı. Peyğəmbər (s) mümkün fitnənin qarşısını almaq üçün ənsarı bir yerə topladı və onlara müraciət etdi: *“Ey ənsar camaatı! Əgər mənim bəzi insanlara onların qəlblərinin İslama bağlılığını təmin etmək məqsədilə dünyəvi mallardan verməyimə üzülürsünüzsə, onlar evə dəvə və qoyun karvanı ilə getdikləri halda siz məgər evə Allahın elçisi ilə qayıtmaq istəməzsiniz? Allaha and olsun ki, əgər bütün insanlar bir tərəfə, ənsar isə başqa tərəfə getsələr, mən bir dəqiqə belə tərəddüd etmədən ənsar gedən tərəfə gedərəm. Hicrət olmasaydı, ənsardan olmaq istəyərdim”.*

Lider məsuliyyətli şəxsdir. Şübhəsiz ki, o, öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirəcəkdir və yerinə yetirilən öhdəliklərə görə mükafat gözləmir.

Peyğəmbər (s) məsuliyyətli şəxsiyyəti ilə seçilmişdir. Onun peyğəmbərlik missiyası insanlara tövhidi anlatmaqdan ibarət idi və onları haqq yoluna yönəltmək üçün var gücü ilə çalışmışdır. Buna nail olmaq üçün əlindən gələni etmiş, insanların doğru yola gəldiklərini gördükdə sevinmiş, küfr və yanlışı seçdikləri zaman kədərlənmişdir. Bütün bunlar Peyğəmbərin (s) insanlara şəfqət və qayğıkeş münasibətini göstərirdi. Onun bu xüsusiyyəti Quranda da öz əksini tapmışdır: **“(Ya Rəsulum!) Yoxsa (kafirlər) bu Qurana inanmasalar, (səndən üz döndərib getdiklərinə** görə) **arxalarınca** təəssüflənib özünü həlak **edəcəksən?!”** (Kəhf, 6).

Liderin uzaqgörənliyi də mühüm xüsusiyyətlərdəndir. Çünki onun fəaliyyəti gələcəyə hesablanmışdır və o, öz fəaliyyətinin nə ilə nəticələnə biləcəyini nəzərə almalıdır. Peyğəmbərin (s) uzaqgörənliyini təsdiqləməsi baxımından Hüdeybiyə müqaviləsinin müddəaları olduqca önəmlidir. Bunlardan bəziləri: Qureyş ilə müharibənin 10 il müddətinə dayandırılması üçün razılaşma; növbəti il müsəlmanlar silahsız Məkkəni ziyarət edəcək; Məhəmməd (s) ilə ittifaq qurmaq istəyən ərəblərə ittifaq qurmağa icazə vermək.

Liderliyin digər bir xüsusiyyəti qarşılıqlı sevgidir. Peyğəmbərin (s) səhabələrlə olan münasibəti qarşılıqlı sevgiyə əsaslanırdı. Rəsulullah (s) öz icmasını sevən və onun tərəfindən sevilən şəxsiyyət idi. İslamı qəbul edənlərin sonradan Peyğəmbərə (s) qəzəblənərək imandan dönmə nümunəsinə rast gəlinmir.

Keyfiyyətli lider həm də insanları idarə etmək qabiliyyəti ilə seçilir və o, tabeliyində olan insanları yaxşı başa düşür. Allah Rəsulunun (s) ətrafdakı insanları dərk etmək baxımından

tayı-bərabəri yox idi və o, insanları qabiliyyətləri ən çox nəyə çatırdısa, həmin sahəyə yönləndirir, ona uyğun işlər tapşırırdı.

Liderliyin növbəti keyfiyyəti onun təmiz və layiqli bir keçmişə sahib olmasıdır. Həzrət Məhəmməd (s) hələ peyğəmbər seçilmədən öncə cəmiyyətdə dürüst, ləyaqətli şəxs kimi tanınırdı. Onu "Məhəmmədül-Əmin" adlandırırdılar.

Məqalədə sadalanan xüsusiyyətlərdən aydın olur ki, Allah Rəsulu (s) misilsiz bir lider olmuşdur. Hindistanda müstəqillik hərəkatının siyasi və mənəvi lideri Mahatma Qandi qeyd edirdi: "Bu gün milyonlarla insanın qəlbində şübhəsiz güc sahibi olanların ən yaxşısını tanımaq istərdim. Mən həmin günlərdə əmin oldum ki, İslam bu həyatda öz yerini qılınc hesabına qazanmayıb. Bu, Peyğəmbərin (s) həqiqi fədakarlığının, vəzifələrini diqqətlə yerinə yetirməsinin, dostlarına və ardıcıllarına olan böyük sədaqətinin, cəsarətinin, Allaha və öz missiyasına olan mütləq imanının, bənzərsiz sadəliyinin nəticəsi idi" [5].

"Tarixdə 100 ən nüfuzlu şəxslərin sıralaması" kitabının müəllifi Maykl Hart qeyd edir ki, "Məhəmmədi ən nüfuzlu şəxslər siyahısında ilk seçməyim bəzi oxucuları təəccübləndirə bilər, lakin o, tarixdə həm dini, həm də ictimai səviyyədə üstün olan yeganə şəxsdir" [6].

Qərb tədqiqatçıları Həzrət Peyğəmbərin (s) uğurunu tarixi və şəxsi səbəblərlə əlaqələndirirlər. Kimliyindən asılı olmayaraq, onun liderlik qabiliyyəti və xarizmatik şəxsiyyəti hamı tərəfindən vurğulanır.

Allah Rəsulunu (s) yalnız mexaniki mesaj "ötürən" və ya izah edən kimi xarakterizə etmək olmaz. O, təkcə Allah-Təala tərəfindən göndərilən ayələrin alıcısı yox, həm də icmanın rəhbəri idi. İnsanlara Qurana uyğun hökm edirdi. Hər kəsin nəzərində cəlbedici və maraqlı bir şəxsiyyət idi.

Peyğəmbərin (s) Məkkəni tərk etdikdən bir neçə müddət sonra 10 000 tərəfdarları ilə geri qayıtması onun necə lider olduğunu göstərir. On dörd əsr keçməsinə baxmayaraq, bu gün dünyada 1,6 milyarddan çox müsəlman – Məhəmməd tərəfdarı yaşayır. Peyğəmbərin (s) adı dünyanın hər yerində hər gün dəfələrlə dualarda təkrarlanır. Onun həyatı cəmiyyətdə, məscidlərdə, universitetlərdə araşdırılır.

Nəticə etibarilə deyə bilərik ki, əsl lider kimi təkmilləşən Həzrət Məhəmmədin (s) həqiqi rəhbər olmasının sübutu onun bəşəriyyətə göstərdiyi təsirdir. Hətta bir sıra alimlərin fikrincə, o, tarixi, dini və ictimai səviyyədə ən yüksək nailiyyət qazanan yeganə insan hesab edilə bilər.

# ƏDƏBİYYAT


1. Carlyle Thomas. On Heroes, Hero-Worship and the Heroic in History. 2013, p. 64–67.
2. Максвелл Джон. 21 неопровержимый закон лидерства. Изд-во “Попурри”, 2007.
3. А.Н. Асаул, М. А. Асаул, П. Ю. Ерофеев, М. П. Ерофеев. Культура организации: проблемы формирования и управления. СПб.: Гуманистика, 2006.
4. Шейн, Э. Х. Организационная культура и лидерство / Пер. с англ., под ред. В.А. Спивака. СПб.: Питер, 2002, 328 с.
5. Ганди Махатма. Эксперимент с истиной. Афоризмы. Издательство: “Эксмо”. 2015.
6. Харт Майкл. Популярность наиболее влиятельных людей в истории. Нью-Йорк: Харт Паблишинг Компани, Инк., 1978, стр. 33.

Фариз Ахмад

## ПРОРОК МУХАММАД КАК ЛИДЕР ЧЕЛОВЕЧЕСТВА


РЕЗЮМЕ

В настоящее время существуют различные подходы к лидерству. Концепции лидерства на всех этапах его развития изучались многими учеными.

Лидер должен обладать рядом качеств. По своей природе посланник Аллаха был храбрым человеком и обладал решимостью в защите своих принципов. При необходимости он был способен быстро и правильно принимать решения.

Пророк Мухаммад (с.а.с.) был достойным доверия перед людьми стоящими за ним; он связан с решением личных, семейных, общественных, экономических, политических и всех остальных проблем общества. Он был заботлив к представителям своей Уммы, обладал силой убеждения и был ответственным человеком.

Все вышеуказанные качества дают возможность отценить пророка Мухаммада (с.а.с.) как исключительную личность, который своими делами исполнял божественное предначертание и двигал человечество вперёд, возвышаясь над толпой ограниченных обывателей.


Fariz Ahmad

## THE PROPHET MUHAMMAD AS THE LEADER OF MANKIND


SUMMARY

Currently, there are different approaches to leadership. The concepts of leadership at all stages of its development have been studied by many scientists.

A leader must possess several qualities. By nature, the Messenger of Allah was a brave and determined person. If necessary, he was able to make decisions quickly and correctly.

The Prophet Muhammad was trustworthy before people. It is connected with the solution of personal, family, social, economic, political and all other problems of society. He was caring towards the representatives of his Ummah, possessed the power of persuasion and was a responsible person.

All the above qualities make it possible to esteem the Prophet Muhammad as an exceptional person who, by his deeds, fulfilled the divine destiny and moved mankind forward.


Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ RƏHBƏRİN FƏRDİ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Sevinc HƏSƏNOVA,***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*

***AÇAR SÖZLƏR:*** *dövlət idarəçiliyi, rəhbər işçi, stress, fərdi-psixoloji xüsusiyyətlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *государственное управление, руководитель, стресс, индивидуальные психологические характеристики.*
***KEY WORDS:*** *public administration, chief of staff, stress, individual psychological characteristics.*

Müasir cəmiyyətdə dövlət hakimiyyəti orqanı milyonlarla insanın həyat fəaliyyətinin təşkiledici və idarəedici mərkəzidir. Dövlət idarəçiliyi əsaslarının öyrənilməsi və onun idarə olunan əhali kütləsinin fəaliyyətinə tətbiqi dövlət işi ilə məşğul olanların müvəffəqiyyətli fəaliyyətinin əvəzolunmaz şərtidir.

Dövlət idarəçiliyi dedikdə dövlətin öz hakimiyyət qüvvəsinə əsaslanaraq insanların ictimai həyat fəaliyyətini qaydaya salmaq, qoruyub saxlamaq və ya yenidən qurmaq məqsədilə praktiki, təşkiledici və tənzimləyici qarşılıqlı təsiri nəzərdə tutulur.

İdarəçiliyin ən çətin və mürəkkəb sahəsi cəmiyyətdə idarəetmə prosesidir. Bu proses idarəetmə olaraq müəyyən qruplarda, kollektivlərdə, siniflərdə birləşən və müxtəlif mənafeləri olan insanların fəaliyyətinə qarşılıqlı təsir göstərmək formasıdır. İdarəetmə insanların özləri tərəfindən onların yaşamaq tələbatı kimi yaranmış və mədəni cəmiyyətin bütün inkişaf mərhələlərində mövcud olmuşdur. İdarəetmə insanların həyat fəaliyyətini məqsədyönlü tənzimləmək, onların mənafelərini və tələbatlarını ödəyəcək üsul və vasitələrin məcmusudur.

Keçmiş sovetlər məkanında cəmiyyət müəyyən siyasi-ideoloji prinsiplər əsasında qurulmuşdu. Zümrə və təbəqələrin, ümumən, kütlənin sosial-siyasi fəallığı mərkəzdən təşkil olunur və istiqamətləndirilirdi. Cəmiyyət “vahid məqsədə” xidmət edirdi. Müəyyən olunmuş prinsiplərə əsaslanan “vahid partiya” yaradılmışdı, hər şey yalnız onun göstərişi ilə həll olunurdu. Həmin dövrdə ayrı-ayrı adamların siyasətə qoşulması yalnız o partiyaya daxil olmaqla və onun üzvü kimi məhz “rəhbər göstərişlərini” yerinə yetirməklə, çalışdığı sahədə fəallıq göstərməklə mümkün idi. Belə bir sosial şəraitdə heç kəs “partiyanın iradəsi”nin əleyhinə gedə bilməzdi. Burada partiya xətti totalitar rejimin mövcudluğu ilə təmin olunurdu. Elə buna görə də “vahid partiya”ya qəbul xüsusi tələblər əsasında həyata keçirilirdi.

Yalnız “kütlənin xeyrinə müəyyən sosial proseslərə təsir edə bilmək imkanı əldə etmək”

motivi bəzi rəhbərlərin siyasi fəaliyyətində mühüm yer tuturdu. Məhz belə siyasi xadimlərin sayəsində bu gün müstəqil respublikamızda yaşayırıq.

Sovet İttifaqının dağılması ilə insanların siyasətə qoşulması motivləri və imkanları tamamilə dəyişildi. Burada müstəqilliyə can atan geniş kütlənin “siyasiləşməsi”, ilk növbədə, vətənin, xalqın taleyi ilə bağlı problemlərin ortalığa çıxması və totalitar rejimdən yaxa qurtarmaq imkanlarının yaranması ilə əlaqədar olmuşdur. Əksər respublikalarda xalq hərəkatlarının baş qaldırması siyasi hakimiyyəti ələ almaq, totalitar rejimin tələblərindən uzaqlaşmağa can atmaq kimi hərəkətlərlə müşahidə olunmuşdur. Lakin nəticələr bir-birindən ciddi surətdə fərqli oldu və bu, həmin respublikalarda hakimiyyətə gələn/seçilən rəhbər və liderlərin siyasi-psixoloji keyfiyyətlərindən qaynaqlanırdı. Ümummilli Lider Heydər Əliyevin sözləri ilə desək: “İnsan çox şeyə qadirdir. İnsan nikbin olmalıdır. İnsan nə qədər çətinliklərlə rastlaşsa da, öz istedadını, öz biliyini, öz bacarığını cəmiyyətə təqdim etməlidir, cəmiyyətə, ölkəsinə həsr etməlidir” [1.s. 15].

Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti o qədər geniş mövzudur ki, onun həyat yolunu, gördüyü bütün işləri əhatə edə bilmək üçün bir ömür kifayət etməz. İndiyəqədərki tarixi şəxsiyyətləri təhlil etsək, onlardan hər birinin bir siyasi sistemin və mövcud konkret tarixi dövrün qəhrəmanı, lideri olduğunun şahidi olarıq. Yalnız mənsub olduqları siyasi sistemin və şəraitin qəhrəmanı olan bu liderlərin bəziləri inqilabçı, bəziləri islahatçı-reformator, bəziləri konservator, bəziləri də diktator kimi tarixdə qaldılar. Amma Heydər Əliyevdə bu liderlərdən heç birinə məxsus olmayan xüsusiyyətlər var idi. Onun özünəməxsusluğu, bənzərsizliyi ondan ibarətdir ki, o, həm Sovet dövrünün, həm də müasir dövrümüzün lideri və qəhrəmanıdır.

Heydər Əliyev haqqında danışarkən öncə onun belə bir fikrini xatırlatmaq istəyirəm: “Yaxşı hökümət o deyil ki, xalqını xoşbəxt görmək istəyir, yaxşı hökumət o hökumətdir ki, bunun hansı vasitələrlə edilməli olduğunu bilir”. Bu fikri analoji olaraq Azərbaycanın XXI əsr dövlət xadimlərinə və rəhbərlərinə şamil etmək olar. Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi olmaqla, həm Azərbaycan xalq hərəkatının, həm də Azərbaycan milli azadlıq hərəkatının həqiqi lideridir. O, XX əsrin 70-80-ci illərində Azərbaycanı qurub yaratmaqla Qurucu Lider, müstəqillik dövründə isə Azərbaycanı parçalanmaqdan və məhv olmaqdan xilas edən Xilaskar Lider kimi tarixə düşmüşdür [2.s. 286-300].

Heydər Əliyev dərin zəkası, fövqəladə təşkilatçılıq qabiliyyəti, zəngin dövlətçilik təcrübəsi ilə yanaşı, fərdi psixoloji xüsusiyyətləri ilə bütün dünyanı heyran etmişdir.

Böyük alman filosofu Fridrix Nitse deyirdi: “Şəxsiyyətlər tarixi yox, şəxsiyyətlər tarixi yaradır”.

Rəhbər işçilərin fərdi-psixoloji xüsusiyyətlərinin, peşə fəaliyyətinin öyrənilməsi və bu fəaliyyətdə gözlənilməz çətinliklərin törətdiyi fəsadların aradan qaldırılması həm dövlət idarəetməsinin yaxşılaşdırılmasına, həm də rəhbər işçilərin öz davranışını refleksiya etməsinə və nəhayət, onların psixi sağlamlığının daim nəzarətdə saxlanmasına şərait yaradır.

Problemə həsr olunmuş tədqiqatların təhlili göstərir ki, rəhbər işçilərin fərdi psixoloji xüsusiyyətləri, onların stressə dayanıqlığı məsələləri kifayət qədər araşdırılmamışdır və bu sahədə ciddi praktik tövsiyələr verə biləcək tədqiqatlar barmaqla sayılacaq qədər azdır. Halbuki rəhbər işçilərin fərdi psixoloji xüsusiyyətləri dövlət idarəçiliyində ciddi ekstremal şəraitlərdə çətin və düzgün qərarların qəbulu zamanı əsas rol oynayır.

İdraki və intellektual keyfiyyətlər ilə yanaşı, fərdi psixoloji xüsusiyyətlər də rəhbərin fəaliyyətində böyük rol oynayır. Bu xüsusiyyətlərə temperament, xarakter, şəxsiyyətin istiqamətliliyi, emosional-iradi keyfiyyətlər, əxlaqi-psixoloji xüsusiyyətlər, qabiliyyətlər və s. aid edilir.

Aparılmış tədqiqatlar göstərir ki, şəxsiyyət – fərdi xüsusiyyətlərin və keyfiyyətlərin, o cümlədən xarakterin, temperamentin və qabiliyyətlərin məcmusudur. Bu xüsusiyyətlər, hər şeydən öncə, rəhbərin davranışında və peşə fəaliyyətində özünü göstərir. Bununla yanaşı, peşə seçimi də insanın temperamentindən və xarakterindən asılı olur. Qeyd etmək lazımdır ki, bəzi psixoloji keyfiyyətlər (temperament, koqnitiv stil, emosional sabitlik və s.) yüksək və aşağı peşəyə yararlılıq səviyyəsinin təzahür etməsinə zəmin yaradır, digərləri isə (diqqətin mərkəzləşməsi, məsuliyyət) aktivləşdirici, stimullaşdırıcı rolunda çıxış edir. Onlar fəaliyyətin müəyyən stil və təşkilini formalaşdırır, üçüncü xassələr isə (informasiyanın qavranılması, qərar qəbulunda çeviklik) fəaliyyəti bilavasitə idarə edir, onun xarakterini və normativ təzahürlərini müəyyən edir [3, s. 540].

Rəhbər işçilərdə fərdi peşəkar konsepsiya peşəkar problemlərə fərdi psixoloji və ya subyektiv yanaşma tərzi formalaşdırır və bu da qarşılıqlı təsir prosesində ortaya çıxan problemlərin məzmununu, mahiyyətini, aradan qaldırılmasının yol və vasitələrini ayırd etməyə imkan verir.

İnsanları bir-birindən fərqləndirən fərdi psixoloji xüsusiyyətlərdən biri də xarakterdir. İnsanlar həmişə bir-birinin xarakterinə böyük diqqət yetirir, davranış və rəftarlarında bunu nəzərə alırlar. Xarakterin ən mühüm cəhəti ondan ibarətdir ki, o, şəxsiyyətin hər cür xüsusiyyətlərini deyil, mühüm və davamlı fərdi xüsusiyyətlərini əks etdirir.

Xarakter şəxsiyyətin digər fərdi psixoloji xüsusiyyətlərindən, məsələn, qabiliyyət və temperamentdən fərqlənir. Qabiliyyətlər insanın yaradıcılıq imkanlarını nəzərdə tutursa, xarakter insanın davranış və rəftarında özünü göstərən xüsusiyyətlərin cəmidir. Temperament bioloji, xarakter isə sosial amillərlə şərtlənir. Temperamentin əsasında sinir sisteminin tipləri dayanır, xarakter isə həyatda qazanılmış davranış formasıdır. Xarakter fəaliyyət və ünsiyyət prosesində əmələ gəlir. Bütün bunlarla yanaşı, insanın xarakteri onun dünyagörüşü və əqidəsi ilə sıx bağlıdır.

Dövlət idarəçiliyində rəhbər hakimiyyətin inkişaf dinamikasını, onun aqibətini qabaqcadan görməli, onu proqnozlaşdırmağı bacarmalıdır. Belə bir fikirlə razılaşmaq olar ki, siyasətçi proqnoz vermirsə, müəyyən hadisələrin inkişafına münasibət bildirmirsə, o, siyasətlə

məşğul olmamalıdır. Bu mənada peşəkar siyasətçi xüsusi intellektual qabiliyyətə, analitik təfəkkürə, düşüncə çevikliyinə və təfəkkür müstəqilliyinə, iradəli xarakterə və dərin tənqidi ağıla malik olmalıdır. Düzgün və çevik siyasət, ilk növbədə, düşüncə çevikliyi, hadisələrin səbəb və nəticələrini, onları törədən prosesləri dərindən təhlil etmək, vaxtında və düzgün nəticə çıxarmaqla yanaşı, inkişaf meyillərini düzgün müəyyənləşdirməyə qabil olmaqdır.

Bu mənada siyasət dərin elmi təfəkkür, yüksək intellekt tələb edir, o siyasi fırıldaq və ya fırıldaqçılıq deyil. Bununla bağlı Hersoq De Roqan deyir: “Siyasi idarəetmə məharətindən çətin heç bir şey yoxdur, hətta bu sahədə təcrübəlilər də ölüm ayağında etiraf etmişlər ki, idarəetmə sənəti sahəsində naşı olmuşlar”. Bunun səbəbi odur ki, dövlətin idarə olunmasının bütün dövrlər üçün yarayan möhkəm və qəti qaydalarını tapmaq mümkün deyildir [4.s. 530].

Bu mənada siyasi fəaliyyət həm sosial qiyməti, həm də ciddi nəticəsi olan fəaliyyət növüdür və insandan gərgin fiziki, psixoloji enerji tələb edir. Bəzən bu və ya digər şəxslərdə siyasətə sərf olunan iş qüvvəsi mümkünlük həddini keçir və nəticədə siyasətçidə stress, çaşqınlıq, depressiya vəziyyətləri yaranır. Belə siyasi fəaliyyətin məhsulu və dəyəri ya müəyyən siyasətçilərin məşhurlaşması, onların geniş kütlələrin rəğbətini və məhəbbətini, yaxud da qəzəb və nifrətini qazanması ilə nəticələnir.

Bu cəhətdən siyasi fəaliyyət digər fəaliyyət sahələri kimi, xüsusi psixoloji struktur və təsir vasitələrinə malik olur. Burada intellektual ekspansiya, hüquqi tənzimləmə, iqtisadi məcburiyyət və fiziki təzyiq daha qabarıq surətdə nəzərə çarpır. Eyni zamanda, siyasətə qatılan şəxslərin siyasi tərbiyəsinin psixoloji cəhətləri də çox vacibdir. Burada rəhbərdə özünənəzarət, özünütənzim, özünüidarəetmə, özünütərbiyə gərək ön plana keçsin [3, s. 548-554].

Rəhbər işçidə mənəvi keyfiyyətlərdə əxlaqi cəhətlərin üstünlüyü vacibdir. Bu mənada həqiqi rəhbərin əməyinin predmeti xalqın psixoloji, iqtisadi, sosial, demokratik və s. vəziyyətidir. Yəni əhalinin psixoloji-siyasi vəziyyəti siyasətə qoşulan şəxslərin və ya peşəkar siyasətçilərin, rəhbərin daima diqqət mərkəzində olmalıdır. Əgər rəhbərin şəxsi mənafeyi onun siyasi fəaliyyətində dominantlıq edərsə, belə şəxsləri siyasətçi deyil, siyasi fırıldaqçı adlandırmaq psixoloji cəhətdən daha adekvat olar, çünki belələri siyasi fəaliyyəti, əslində, təhrif edir, ondan öz eqoist məqsədləri naminə istifadə etmək üçün bir vasitə kimi bəhrələnirlər.

Rəhbər siyasətin psixoloji vasitələrinə bələd olmalı, ondan vaxtında və yerində düzgün istifadə etməyi bacarmalıdır. Rəhbər, ilk növbədə, kütlənin şüuruna yol tapmalı, kütlənin ziyanına olan qanunların dəyişdirilməsinə vadar etməli, iqtisadi güzəştlərə nail olmalı, müqavimət və təzyiqə eyni yolla cavab verməyə hazır olmalıdır. Burada rəhbərin inkişaf etmiş özünənəzarət, özünüidarəetmə qabiliyyəti, özünütənzimi mühüm rol oynayır. Emosionallıq, çılğınlıq, düşünülməmiş qərar qəbulu işə çox böyük ziyan vura bilər. Bu mənada siyasi fəaliyyət çox mürəkkəb fəaliyyət sahəsi olub, yüksək peşəkar hazırlıqla yanaşı, dərin psixoloji səriştə tələb edir. Odur ki, siyasi fəaliyyətlə məşğul olan şəxslər, ilk növbədə, insan psixologiyasına, xüsusən də sosial, siyasi və etnik psixologiya məsələlərinə dərindən bələd olmalıdırlar.

# ƏDƏBİYYAT


1. Krılov A.A. Psixologiya. Moskva: 1998, 530 s.
2. Məmmədov C. Diplomatik psixologiya. Bakı: 2015, 455 s.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003, 540s.
4. Bayramov Ə.S., Əliyev B. H. Hüquq psixologiyası. Bakı: 2012, 765 s.

Севиндж Гасанова

## ИНДИВИДУАЛЬНЫЕ ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ РУКОВОДИТЕЛЯ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

РЕЗЮМЕ

В статье исследуется сложность управленческой деятельности и важность психологической готовности руководителя к различным изменениям. Во время активной экономики многие люди проводят треть своей жизни в рабочих условиях. Стресс, накопленный в течение дня, оказывает негативное влияние на здоровье человека, его личность и отношения с окружающими. Любая профессиональная деятельность несет в себе фактор стресса.

Sevinj Hasanova

## INDIVIDUAL PSYCHOLOGICAL CHARACTERISTICS OF LEADER IN PUBLIC ADMINISTRATION

SUMMARY

The article explores the complexity of management activities and the importance of the leader’s psychological readiness for various changes. During an active economy many people spend a third of their lives in working conditions. Stress accumulated during the day has a negative impact on human health, his personality and relationships with others. Any professional activity carries a stress factor.

# BABA NEMƏTULLAH NAXÇIVANİNİN “FƏVATİHUL-İLAHİYYƏ” ƏSƏRİNİN QURANİ ELMLƏRDƏKİ YERİ

**_Fuad NURULLAYEV,_**
*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *Baba Nemətullah, Fəvatihul-ilahiyyə, təfsir, müqəttə hərflər, səbəbi-nüzul.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Баба Нематуллах, Фаватихул-илахиййат, комментарий, священные буквы, причина-откровение.*
***KEY WORDS:*** *Baba Nematullah, Favatihul-ilahiyya, interpretation, sacred letters, reason.*

Azərbaycanın və türk dünyasının böyük təsəvvüf alimi Baba Nemətullah Naxçıvani Naxçıvanda anadan olmuşdur. O, dövrünün görkəmli alimlərindən dərs almış, dünyəvi elmlərə dərindən bələd olmuş, sonra isə təsəvvüfə yönəlmişdir. Bu sahədə də mükəmməl bilik əldə etdikdən sonra 1498-ci ildə Naxçıvandan ayrılmış, İslam aləminin bir çox önəmli mərkəzini gəzmiş, bir müddət Təbrizdə qalaraq, burada Dədə Ömər Rövşəni ilə görüşmüşdür. Özünəməxsus biliyi və dərin mənəvi keyfiyyətləri ilə məşhurlaşan Baba Nemətullah daha sonra Türkiyəyə getmiş, Ağşəhərdə məskunlaşmışdır. “Şeyx Əlvan”, “Nemətullah Naxçıvani”, “Baba Nemətullah”, “Baba Nemət” və “Nemətullah Sultan” kimi adlarla xatırlanan bu böyük mütəsəvvif dövrünün ən fəzilətli alimlərindən hesab olunurdu. Ağşəhərdə uzun illər elmə xidmət edən və çoxlu sayda mürid yetişdirən Baba Nemətullah doğma dili ilə yanaşı, ərəb və fars dillərini də mükəmməl bilirdi.

Baba Nemətullah Naxçıvani 1514-cü ildə Ağşəhərdə vəfat etmişdir. Konya bölgəsinə bağlı Ağşəhər dərəsinin yuxarısında, Baştəkkə yolu üzərində dəfn olunan alimin məzarı 1852, 1889 və 1995-ci illərdə bərpa olunmuşdur.

Nemətullah Naxçıvaninin yazdığı əsərlər əxlaq, fəzilət, elm və ürfan nümunəsi kimi məşhurlaşmış, ona xalqın rəğbətini qazandırmışdır. Zahiri və batini elmlərdə yüksək biliyə malik N.Naxçıvani mənəvi elmlərdəki dərin biliyi ilə təsəvvüfdə ilahi sirlər dənizinə vaqif olmuşdur.

Baba Naxçıvaninin yazdığı “Şərhi-əsrarin-nöqtə”, “Hidayətül-ixvan”, “Risalətül-vücud” “Təhqiqat”, “Məcmuai-lətaif”, “Hidayə”, “Nikat”, “Mükaşəfə”, “Əsilə vəl əcibə” və sair kimi əsərləri çox qiymətli yaradıcılıq nümunələridir. Eyni zamanda, o, “Təfsirul-Beyzavi”yə, Muhyiddin ibn Ərəbinin “Füsusul-Hikəm”inə və Mahmud Şəbüstərinin “Gülşəni-raz” adlı mənzum əsərinə haşiyə yazmışdır.

Baba Nemətullah Naxçıvaniyə böyük şöhrət qazandıran ən məşhur əsəri isə təsəvvüf üslubunda qələmə aldığı "əl-Fəvatihul-ilahiyyə vəl-məfatihul-ğaybiyyə"dir. Bu, İslam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təfsir edən ilk əsər sayılır. Müəllif heç bir qaynaq və mənbəyə müraciət etmədən qələmə aldığı bu əsəri h/904-cü ilin (1498-ci il) Ramazan ayının ortalarında tamamlamışdır. Mütəsəvvifin öz əli ilə yazdığı nüsxəsinin ikinci cildi Türkiyədəki Topqapı sarayının III Əhməd kitabxanasında saxlanılır. İki cilddən ibarət olan əlyazma h/1326-cı ildə (1908-ci il) Mətbəəyi-Osmaniyyədə çap edilmişdir.

***Naxçıvaninin yaradıcılığında səbəbi-nüzul***

Baba Nemətullah Naxçıvani "əl-Fəvatihul-ilahiyyə vəl-məfatihul-ğaybiyyə" adlı əsərində səbəbi-nüzula geniş yer vermişdir.

Quran ayələrinin, yaxud da surələrinin enməsinə, o cümlədən Həzrət Məhəmməd peyğəmbərə (s) verilən sual nəticəsində vəhyin gəlməsinə səbəb olan hadisəyə səbəbi-nüzul deyilir [1, s. 144]. Nüzul səbəblərini bilmək Quranın hikmətinin dərk edilməsi, ayələrlə qəsd olunan mənaların asanlıqla başa düşülüb şübhələrin yox olması baxımından çox faydalıdır [2, s. 117-118].

Naxçıvani qeyd olunan əsərində "Bəqərə" surəsinin 65-ci ayəsinin – ***"Həqiqətən, siz bilirsiniz ki, içərinizdən bəzi kəslər şənbə günü (Davud zamanında şənbə günü balıq ovunun qadağan edilməsi) haqqında olan əmrdən kənara çıxdılar. Biz də onlara "zəlil və həqir meymunlar olun!" - dedik.***" – nüzul səbəbini belə açıqlayır: Davud (ə) zamanında dənizin sahilində yerləşən İla adlı kəndin sakinləri öz dolanışıqlarını balıq ovu ilə təmin edirdilər. Allah öz dininə dəvət etmək üçün Davudu (ə) onlara göndərdi və onlar da qəbul edərək iman gətirdilər. Bundan sonra Allah Həzrət Davud (ə) vasitəsilə – o qövmlə şənbə günü balıq ovlamamaları üzrə – əhd bağladı. Əhdi qəbul edən qövm əhd bağlandıqdan sonra dənizdə (şənbə günü) balıqların çoxaldığını gördülər və bir müddət sonra hiylə işlədərək balıq ovlamağa başladılar. Belə ki, dənizin sahilində xəndək və hovuzlar qazaraq şənbə günü orada tor qurub dənizin suyunu ora buraxırdılar və bazar günü gəlib xəndəklərə yığılan balığı oradan ovlayırdılar. Beləcə onlar Allahla bağladıqları əhdi hiylə işlədərək pozub, guya ki, ona itaət etdiklərini zənn edirdilər. Uca Allah isə onlardan öz intiqamını aldı və onlara: "zəlil və həqir meymunlar olun!" - dedi [3, c. I, s. 36].

**"(Ya Rəsulum!) Cəbrailə *düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir.* Hər kim Allaha, onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə *və* Mikailə *düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə* düşməndir"** [4, Bəqərə, 97-98].

Müfəssir qeyd olunan ayələrin səbəbi-nüzulunu belə göstərir: İslam dini ortaya çıxaraq əmrləri tərəqqi edib, dəyəri yüksəldikcə və bütün dini kitabların hökmünü nəsx edən (qaldıran) Quran nazil olduqca yəhudilər iztirab çəkirdilər və İslamın əleyhinə əllərindən gələni edirdilər.

Bu təşviş və iztirabları səbəbindən Allah Rəsulundan (s) vəhyi hansı mələyin gətirdiyini soruşdular. Rəsulallah (s) *"Qardaşımız Cəbrail"* cavabını verdikdə, dedilər ki, o, bizim köhnə düşmənimizdir. Onun bizə qarşı etdiyi ədavət ilk dəfə deyil. O, dəfələrlə bizə qarşı çıxıb və həmişə dinimizi pozmağa çalışıb [3, c. I, s. 44].

**"Ey iman gətirənlər! "Raina" deməyin, "unzurna"** ***söyləyin! (Allahın hökmünü) eşidin! Kafirləri şiddətli əzab*** **gözləyir"** [4, Bəqərə, 104].

Naxçıvani bu ayənin nüzul səbəbini belə izah edir: Möminlər Məhəmməd peyğəmbərə (s) müraciət edərkən və ya bir hadisə baş verdikdə ona "raina" deyirdilər. Bunu eşidən yəhudilər dedilər: "Onlar Məhəmmədə iman gətirmirlər, onu təqlid etmirlər. Çünki onunla danışdıqları zaman ona "raina" demələri buna dəlalət edir. Bu söz "sən bizə möhtacsan", "bizdən asılısan", "bizə çobanlıq etməlisən" mənalarına gəlir". Onlar bu sözdən pis niyyətlə istifadə etdikləri təqdirdə Allah – müsəlmanların bu sözü yaxşı məqsədlə işlətməsinə rəğmən – yuxarıda qeyd olunan ayəni endirdi və onlara bu sözü deməyi qadağan etdi [3, c. I , s. 46].

**"(Ya Məhəmməd) Haram olan ayda vuruşmaq haqqında səndən soruşanlara söylə: "O ayda vuruşmaq böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) qapamaq, onu inkar etmək, Məscidül-harama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha betərdir"** [4, Bəqərə, ayə-217].

Bu ayənin səbəbi-nüzulunu müfəssir belə açıqlayır: Rəvayət olunur ki, Bədr döyüşündən iki ay öncə Rəsulullah (s) Məkkə ilə Taif arasındakı Nəhlə vadisinə qureyşilərin karvanını müşahidə etmək və onlar haqqında xəbərdar olmaq üçün Abdullah bin Cahşın rəhbərliyi ilə bir dəstə göndərdi. Onlar müşahidə apardıqları zaman Abdullah əl-Hazraminin də içində olduğu bir karvanın keçdiyini gördülər. Abdullah bin Cahş yoldaşları ilə məsləhətləşdikdən sonra karvana hücum çəkərək Hazramini öldürüb, ikisini əsir aldılar, bir nəfər isə qaçdı. Onlar karvanı və iki əsiri Mədinəyə gətirdilər. Məhəmməd peyğəmbər (s) bu hadisədən narahat olaraq Abdullaha dedi: "Mən sizə qureyşlə bağlı məlumat toplamağı və kimsəni öldürməməyi əmr etmişdim". Bu hadisədən sonra qureyşilər "Məhəmməd haram ayı halal etdi və haram ayda qan töküb qənimət əldə etdi" - deməyə başladılar.

Dəstədə olan adamlar bu sözdən sonra qəm dəryasına batdılar və "tövbəmizin qəbul olduğuna dair bir şey nazil olana qədər biz bu halda qalacağıq" - dedilər. Onların tövbəsinin qəbuluna dair ayə [4, Bəqərə, 217] nazil oldu [3, c. I, s. 75].

***Naxçıvaninin yaradıcılığında nəsx*** **mövzusu**

"Nəsx" kəlməsi lüğətdə "yox etmək, aparmaq, dəyişdirmək, ortadan qaldırmaq" və s. mənalara gəlir. Termin olaraq isə bir nassın (dəlilin) hökmünü daha sonra gələn bir nass ilə ortadan qaldırmaqdır. Başqa ifadə ilə desək, şəri bir hökmün digər şəri dəlillə və ya qədim tarixli bir nassın hökmünün sonradan gələn nassla ortadan qaldırılmasıdır. Quran elmlərində

də nəsxin rolu çox böyükdür. İllər boyu pis-yaxşı adətlərə vərdiş etmiş camaatı bir anda bu vərdişlərdən ayırmaq qeyri-mümkündür. Ona görə də Quran bəzi hökmləri insanlara nəsx vasitəsi ilə çatdıraraq, onları tədricilik metodu ilə tərbiyə etmişdir [5, s. 259-260; 2, s. 122].

Naxçıvani öz işari təfsirində nəsx məsələsinə geniş olmasa da, kifayət qədər yer vermişdir. Öncə Quranda nəsxin var olduğunu iddia edənlərin gətirdikləri ayələrin təfsirinə Naxçıvaninin açıqlamasında baxaq: **“Biz hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk...”** [4, Bəqərə, 106].

Alim ayəni belə təfsir edir: “Müəyyən zamana görə hökm qoyan bir ayəni nəsx ediriksə (dəyişdiriksə), yaxud heç enməyibmiş kimi qəlblərdən siliriksə, sonrakı zamanın şərtlərinə görə öncəkindən daha xeyirli və ya ona bənzərini gətiririk. Çünki yenilənmə bir şeyin bənzəri və təkrarı ilə olur” [3, c. I, s. 47].

**“Biz bir ayənin yerinə digər bir ayəni gətirdikdə (bir ayənin hökmünü ləğv edib onu başqası ilə əvəz etdikdə) – Allah nə nazil etdiyini (hansı hökmün bəndələri üçün daha münasib olduğunu) Özü daha yaxşı bilir”** [4, Nəhl, 101].

Müfəssir bu ayəni də belə təfsir edir: Faydası bizim tərəfimizdən bilinən, bizim elmimizdə və bizim lövhi-məhfuzumuzda hökmü sabit olan bir ayəni digər ayə ilə nəsx edəriksə, biz bundan ötrü, yəni nəsx etməyimiz, dəyişdirməyimiz, ümumiyyətlə, bütün feillərimiz haqqında cavab verməli deyilik. Axı Allahın feilləri ondan başqasına necə istinad oluna bilər ki? [3, c. I , s. 438].

**“Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər istədiyini də sabit saxlayar. (Bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar) Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır”** [4, Rəd, 39].

Müfəssir bu ayəni isə belə təfsir edir: Ayənin hökmünə və ya Allah öz istəyinə görə istədiyi ayəni silər, məhv edər (nəsx edər) və qalmasını istədiyi ayəni də sabit qılar... [3, c. I, s. 397].

**“Ya Peyğəmbər! *Möminləri döyüşə həvəsləndir*** (təşviq et).***İçinizdən iyirmi səbirli kişi* olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa min kafirə qalib gələr...”** [4, Ənfal, ayə-65].

Naxçıvani bu ayənin müsəlmanlar az və zəif olduğu vaxtda nazil olduğunu qeyd edir. Bildirir ki, İslam inkişaf edib yayıldıqdan və müsəlmanlar çoxaldıqdan sonra Allah onların işini asanlaşdırmaq üçün bu ayəni nəsx edən “Ənfal” surəsinin 66-cı ayəsini endirdi: **“(Ey möminlər) İndi Allah yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə (kafirə), min kişi olsa, iki min nəfərə Allahın izni ilə qələbə çalar. Allah səbr edənlərlədir”** [5, c. II, s. 293].

***Naxçıvaninin yaradıcılığında hürufi-muqəttəə mövzusu***

Qurani-Kərimin bəzi surələrinin başında gələn hərflərə hürufi-muqəttəə (kəsik hərflər)

deyilir. Muqəttəə hərflər Quranda 29 surənin başında yer almışdır. Bu hərflər tək-tək gəldiyi kimi iki, üç, dörd və beş hərfin birləşməsindən ibarət olaraq da gəlmişdir. Hürufi-muqəttəənin açıqlanıb-açıqlanmayacağı haqda iki fərqli görüş vardır. Birincisi, sələf alimlərinin görüşüdür ki, onların iddiasına görə, muqəttəə hərfləri Quranın sirlərindəndir və mənası insanlardan gizli saxlanılır. İkincisi isə xələfin (sonradan gələn alimlərin) görüşüdür. Onların fikrincə isə Allah-Təala bəndələrinin başa düşmədikləri şeyləri nazil etməz. Bu cür düşünən kəlamçılar elmdə dərin biliyi olan (rüsux sahibi) kimsələrin muqəttəə hərflərin mənasını açıqlaya biləcəyini söyləmiş və özləri də bəzi açıqlamalar vermişlər [1, s. 142-145].

Nemətullah Naxçıvani də öz işari təfsiri olan "Fəvatihul-ilahiyyə"sində hürufi-muqəttəə ilə əlaqəli ayələrə bəzi işari açıqlamalar gətirmişdir.

Müfəssir "Bəqərə" surəsinin əvvəlində olan **"Əlif, Lam, Mim"**i belə açıqlamışdır: "Üstün elmimizdən sizə bəxş etdiyimiz nisbətdə istifadə etməyiniz və hökm çıxarmağınız üçün davam edən yaradılışın bütün mərhələlərində İlahlığımızın sirlərini və zatı etibarı ilə kimliyimizin davam etmə keyfiyyətini kəşf etmək üzrə davamlı olan xəlifəliyimizə ən layiq olan, ey, ən kamil peyğəmbər!.." [3, c. I, s. 20].

Nemətullah Naxçıvani "Yunus" surəsində keçən **"Əlif, Lam, Ra"n**ı belə açıqlayır: "Yer üzərində kifayət edəcək qədər ümumi, tam və əhatəli olan risalətimizə ən layiqli olan ey, ən zəkalı və ən rəşadətli peyğəmbər!.." [3, c. I, s. 324].

"Nəml" surəsində keçən **"Ta, Sin"**in təfsirində belə deyir: "Daimi üstünlüyə, ulu, əzəli və əbədi səadətə talib olan (layiq olan) ey peyğəmbər!.." [6, c. II, s. 56].

"Ya-Sin" surəsində keçən **"Ya, Sin"**in hərflərini belə təfsir edir: "Ey, yəqinlik dənizinin mənbəyinə çataraq onu dərk edən və pozulub bulaşmayaraq salamat şəkildə bu dənizdə üzən şəxs!.." [3, c. II, s. 196].

Nəticə olaraq onu deyə bilərik ki, Naxçıvani öz təfsirində hürufi-muqəttəəyə geniş yer vermiş, demək olar ki, bütün hürufi-muqəttəələri özünəməxsus bir işari metodla açıqlamışdır.

### ***Naxçıvaninin yaradıcılığında mütəşabih*** **mövzusu**

Naxçıvaninin mütəşabih mövzusundakı mövqeyinə keçməzdən öncə Quranda mütəşabih ayələrin var olduğuna və bunun təfsirçilər tərəfindən açıqlana biləcəyinə dəlil olan "Ali İmran" surəsinin 7-ci ayəsinin təfsirinə Naxçıvaninin təfsir anlayışı ilə nəzər salaq: "Ey peyğəmbərlərin ən kamili, səni özünə təmsilçi və xəlifə seçən Allah səni təsdiq etmək və sənə dəstək vermək (arxa durmaq) üçün öz fəziləti səbəbi ilə sənə, peyğəmbərliyinə qarşı çıxanlara möcüzə, qullarının işləri ilə əlaqəli ayə və surələri açıqlayan bir kitab endirdi. Onda müxtəlif təbəqələrə ayrılmalarına baxmayaraq, qulların hamısı üçün yaradılışlarına, müamələlərinə və etiqadlarına dair ayələr var. Onlar kitabın anasıdır. Onlara etimad etmək kifayət edəcəyi üçün onları təqlid etmək və onlara boyun əymək vacibdir. Bunlardan başqa, bir də hökm və qulların faydası üçün olan işlər üzrə tərtib olunmuş, mərifət və həqiqətlərlə əlaqəli ayələr vardır ki, bunlar da Allahın

birliyinə yönəlmiş doğru iradə sahiblərinin gücü və itaəti çatacağı ibadətlərlə əlaqəli ayələrdir. Həmin ayələr də mütəşabihdir. Zahiri və batini bir arada cəm edən Haqq yolundan qəlbləri dönən, meyil edən və ürəklərində xəstəlik olanlar, cahillikləri və inadları ucbatından Quranın möhkəmlərinə sarılmağı tərk edərək onun mütəşabihlərinə tabe olurlar, çünki onlar mərifət və həqiqətlərə çatmağa ancaq zahiri düzəltmə və möhkəmlərə sarılmaqla nail olunacağını bilmirlər. Həmçinin onların bu mütəşabihlərə tabe olmalarında məqsəd insanların arasına fitnə salmaq və onların tövhidə yönəlmiş əqidələrini pozmaqdan başqa bir şey deyildir. Çünki onlar mütəşabihləri bidətçilər kimi öz ağıl və istəklərinə görə təvil edirlər. Halbuki bu ayələrin lazımi bir şəkildə açıqlamasını hikmətli və Quranı endirən Allahdan başqası bilməz. Ona görə ki, Allahın kəlamını təvil etmək onun köməyi olmadan heç kim üçün mümkün deyil. Elmdə qüvvətli olan, Allahdan gələn vəhy və ilhamlarla mərifət və həqiqətlərə müvəffəq olanlar da Allah qatından bir dəstək olmadıqca mütəşabihləri bilməzlər. Bu tövhid məqamını dərk edən kimsələr: "Biz kitabın möhkəmlərinə və mütəşabihlərinə iman edib onlara tam əmin olduq (onları yəqin olaraq anladıq). Çünki onların hamısı Allah tərəfindən endirilmişdir və aralarında fərq yoxdur". Bu və bənzəri ayələrdən ixlaslı şəkildə ancaq əhəmiyyətsiz şeylərdən üz çevirərək Allahın tövhid üzrə, ağıllı yaratdığı kimsələr ibrət götürər" [3, c. I, s. 98-99].

Yuxarıdakı ayənin təfsirindən də görünür ki, Naxçıvani Quranda mütəşabih ayələrin var olduğunu qəbul edir və Allahın köməyi, ilhamı və cəzbi ilə onu bəzi kimsələrin açıqlaya biləcəyinə inanır.

Nəticə olaraq deyə bilərik ki, müfəssir Qurani-Kərimdə mütəşabih ayələrin var olduğunu qəbul edərək onları öz işari metodu ilə təfsir etməyə çalışmışdır. Lakin o, mütəşabihləri qəbul etməsinə baxmayaraq, Quranda neçə mütəşabih ayənin olduğunu konkret bildirməmişdir.

***Naxçıvaninin yaradıcılığında Qurani-Kərimdəki andlara münasibət***

Təfsir üsulu elmində münaqişəli olan mövzulardan biri də Qurani-Kərimdə mövcud olan andlardır. Allah bunların bəzisində öz uca isimlərinə (adlarına), bəzisində peyğəmbərlərə və onların zühur etdikləri yerlərə, Qurana, Mələklərə, Qiyamət gününə, bəzisində isə kainatda və təbiətdə var olan mühüm varlıqlara (səma, Günəş, Ay, ulduz, gecə və s.) and içir.

Bəzi təfsirçilər yalan danışan şəxslərin qarşılarındakıları inandırmaq məqsədi ilə and içdiklərini bildirərək, Allaha and içmənin yaraşmadığını qeyd edirlər. Halbuki Allahın Qurani-Kərimdə and içməsi insanları inandırmaq üçün deyil. Çünki Allah-Təalanın kəlamları onsuz da həqiqətdir. Bu baxımdan Qurani-Kərimdəki andları müxtəlif səbəblərdən dəyərləndirmək lazımdır:

1. İslamdan öncə ərəblərin həyatında and içmənin böyük rolu olduğu üçün Qurani-Kərimdə də bu üslubdan istifadə edilmişdir.

2. Allah-Təala bəzən and içməklə nazil etdiyi ayələri daha da qüvvətləndirmiş, önəmli varlıqlar və məfhumlar üzərində düşünməyə təşviq emişdir.

3. And içmək həmişə bir şeyi dəstəkləmək mənasına gəlməz. Bəzən də o şeyin dəyər və qiymətini qaldırmaq üçün istifadə olunur [1, s. 189-193; 2, s. 168-169].

Beləliklə, Naxçıvaninin andlar işlənən ayələri necə təfsir etdiyinə diqqət yetirək.

Naxçıvani "Tur" surəsinin birinci ayəsindəki "və-ttur" andını belə izah edir: "Zatı etibarı ilə zahiri və batini şeylərdən müqəddəs olan Zata, gerçəkliyi və sübutu etibarı ilə açıqda və gizlində olan şeylərdən münəzzeh (bəri, uzaq) olan Allaha and olsun" [6, c. II, s. 357].

"Tur" surəsinin 6-cı ayəsinin mənası "Dolub daşan (alovlanan dənizə) and olsun"dur. Naxçıvani isə bu ayəni belə təfsir edir: "Comərdliyinə görə hər şeyi əhatə edən və saf (təmiz) olan vücudi-mütləq (hər yerdə və hər zamanda var olan) mənasına gəldiyinə işarə edir. Ayədə yuxarıdakı mənanı ifadə edən bir kinayənin olduğunu və buna and içildiyini vurğulayır" [6, c. II, s. 357].

"Tin" surəsinin birinci ayəsini müfəssir belə təfsir edir: "Tin və Zeytuna and olsun. Bu ikisi müqəddəs ərazidə yerləşən iki dağdır və həmin dağlarda yuxarıda adı çəkilən tin (əncir) və zeytun meyvələri çox yetişir" [6, c. II, s. 518].

Naxçıvani öz əsərində Quranda keçən andlara da münasibətini bildirərək onları təfsir etməkdən yan keçməmişdir.

Beləliklə, Naxçıvani "əl-Fəvatihul-ilahiyyə vəl-məfatihul-ğaybiyyə" təfsirini yazarkən Quran və sünnə istisna olmaqla, heç bir təfsir qaynağına, başqa müfəssirlərin kitablarına müraciət etməmişdir. O, Qurandan və sünnədən istifadə edərkən surə və ayənin nömrəsini göstərməmiş, həmçinin Rəsulallahdan (s) rəvayət etdiyi hədislərin də qaynaqlarını və haradan alındığını bildirməmişdir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, "əl-Fəvatihul-ilahiyyə vəl-məfatihul-ğaybiyyə" əsəri İslam ədəbiyyatında Quranı təsəvvüfi (sufi) üsulla təfsir edilən ilk əsər sayılır. Hazırda da bu təfsir əsəri Azərbaycan ilahiyyatşünaslıq elmində öz aktuallığını qoruyub saxlamaqdadır.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

## ƏDƏBİYYAT


1. Demirci Muhsin. Tefsir Usulü ve Tarihi. M.Ü.İ.F.V.Y., Emre Matbaası, İstanbul: 1998.
2. Cerrahoğlu İsmail. Tefsir Usulü. Türkiye Diyanet Vakfı Yayınları, XI. Baskı, Ankara:1997.
3. Naxçıvani Nemətullah b. Mahmud. əl-Fəvatihul-İlahiyyə vəl-Məfatihul-Ğaybiyyə əl-Muvazzahatu lil-Kələmil Quraniyyə vəl Hikəmil-Furqaniyyə. Daru Astana, c.I, Üsküdar-İstanbul, h/1323.
4. Qurani-Kərim (Tərcümə edənlər akad. Z.M.Bünyadov və akad. V.M.Məmmədəliyev). Bakı: 2017.
5. Sübhi əs-Salih. Məbahis fi Ulumil-Quranz. Darul-İlm, 1996.
6. Naxçıvani Nemətullah b.Mahmud. əl-Fəvatihul-İlahiyyə vəl-Məfatihul-Ğaybiyyə əl-Muvazzahatu lil-Kələmil Quraniyyə vəl Hikəmil-Furqaniyyə. Daru Astana, c. II, Üsküdar-İstanbul, h/1323.

Фуад Нуруллаев

## МЕСТО ПРОИЗВЕДЕНИЯ БАБЫ НЕМАТУЛЛЫ НАХЧИВАНИ «ФАВАТИХУЛ-ИЛАХИЯ» В КОРАНСКИХ УЧЕНИЯХ

### РЕЗЮМЕ

Баба Нематуллах Нахчивани родился в Нахчыванском районе Азербайджана. Его дата рождения неизвестна. Он был известен как Нахчивани, Баба Немат, Нематулла Султан и шейх Алван. Он отправился в Анадолу, жил и умер там на 920 хиджрах (1514 по григорианскому календарю).

Fuad Nurullayev

## THE PLACE OF WORK “FAWATIHUL-ILAHIYYA” BY BABA NEMATULLAH NAKHCHIVANI IN THE QURANIC STUDIES

### SUMMARY

Baba Nematullah Nakhchivani was born in the Nakhchivan region of Azerbaijan. His date of birth is unknown. He was famous by Nakhchivani, Baba Nemat, Nematullah Sultan and Sheikh Alwan names. He has travelled to Anadolu, dwelled and died there on by 920 Hijri (1514 of Gregorian calendar).

# ORDUDA GƏNCLƏRİN SOSİALLAŞMASI PROSESİNDƏ DİN AMİLİ

***Sevda HÜSEYNOVA,***
*Heydər Əliyev adına Azərbaycan*
*Ali Hərbi Məktəbinin Humanitar və*
*Sosial fənlər kafedrasının dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *ordu, din, sosiallaşma, resosiallaşma, dini deviantlıq, vətənpərvərlik tərbiyəsi.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *армия, религия, социализация, ресоциализация, религиозное девиантство, патриотическое воспитание.*

***KEY WORDS:*** *army, religion, socialization, resocialization, religious deviance, patriotic education.*

Sosiallaşma – insanın konkret cəmiyyətə xas olan dəyərlər, görüşlər, davranış modelləri və rolları mənimsədiyi prosesdir. Bu prosesin öyrənilməsi dövrün tələblərindən irəli gəlir. Belə ki, cəmiyyətin hərəkətə gətirilməsində sosiallaşma prosesinin böyük rolu vardır. Cəmiyyətin hərəkət istiqamətinin doğru təyin edilməsi isə müasir dövrdə bizi ən çox narahat edən problemdir.

Ordu cəmiyyətimizin mühüm struktur elementi kimi çıxış etdiyi üçün aydındır ki, sosial-mədəni mühitimizə xas olan və üstünlük təşkil edən həyati norma və prinsiplər orduda da dominantlıq təşkil edəcək, davranış stereotipləri bir çox hallarda üst-üstə düşəcək. Ordu ilə cəmiyyət arasındakı qarşılıqlı təsir və asılılıqlar orduda dəyişən və daimi kontingentin davranış, düşüncə və psixologiyasının mənsub olduğu etnos və sosiumun xarakterik xüsusiyyəti ilə birbaşa bağlılığına səbəb olur. Həqiqi hərbi xidmətə çağırılan gənclərimiz arasında hərbi borc hissi, xeyirxahlıq, səmimiyyət, alturizm, ən əsası isə dövlətçilik və vətənpərvərlik hissi yüksək mənəvi-etik keyfiyyətlər kimi üstünlük təşkil edir. Bunlarla yanaşı, cəmiyyətimizin mənəvi həyatında dinin də mühüm rolu var. Azərbaycanda din dövlətdən ayrı olsa da, praktikada bir sıra məsələlərdə onların sıx inteqrasiyası mövcuddur. Məsələn, bir çox hərbi qulluqçu mənəviyyatında dinə yanaşmanın müxtəlif forma və dərəcələrini daşıyır. Bu məsələ orduda həqiqi hərbi xidmət keçənlərin dindarlığının diqqətlə nəzərə alınmasını tələb edir. Çünki hərbi qulluqçunun dini identikləşdirməsi onun şüurunda və davranışlarında da özünü göstərir. Orduda hərbi qulluqçuların dini davranışları dini bayramların qeyd olunması, dua və s. şəklində təzahür edə bilər. Lakin bəzi hallarda müxtəlif səbəblərdən (xaricdən ölkəmizə gətirilmiş dini ideologiya, radikal dini qruplara qoşulma və s.) radikal dini yönüm almış çağırışçılarda bu deviant davranış (ümumi qəbul edilmiş cəmiyyət normalarından kənar davamlı davranış) formalarında da özünü göstərə bilər.

Tədqiqatçılar dinlə bağlı deviant davranış nümayiş etdirən əsgərlərdə aşağıdakı halların mövcudluğunu qeyd edirlər:

- ✓ mənəvi hallar və dəyər normalarında ciddi dəyişikliklər nəzərə çarpır;
- ✓ hərbi kollektivlə inteqrasiya səviyyəsi aşağı olur, onlar özlərini hərbi kollektivlə identikləşdirmək istəmirlər;
- ✓ fəaliyyətlərində hərbi normaların nizamlayıcı rolu güclü təsirə malik olmur;
- ✓ komandirin hərbi lider kimi rolu aşağı düşür;
- ✓ öz potensiallarını yalnız dini inancları ilə bağlı reallaşdırmaq arzusu bu potensialın hərbi sahədə reallaşdırılmasına mane olur [1, s. 185].

Bu hallara hərbi kollektivin üzvü olan digər hərbi qulluqçulara radikal dini görüş sistemlərini, dəyər normalarını, davranışları aşılamaq, radikal dini qruplaşmalara qoşmaq cəhdlərini də əlavə etmək olar.

Qeyd etmək vacibdir ki, həqiqi hərbi xidmət müddətində gənclərimizin "orduyaqədərki" sosial xüsusiyyətləri dəyişilməz qalmır. Orduya qədəm basdığı gündən əsgərin tərbiyəsi prosesi başlanır. Bütün vətəndaşlarımızın, o cümlədən həqiqi hərbi xidmətə çağırılmış gənclərin vicdan azadlığı məsələsi demokratik ölkəmizin qanunlarında nəzərdə tutulmuşdur və toxunulmazdır. Lakin daxili aləmində dindarlıq elementlərini daşıyan əsgərlərin mənəvi tərbiyəsi məsələsində din amilinin yerini dəqiq müəyyənləşdirməklə bu gənclərin sosiallaşması prosesinin düzgün idarə olunması böyük əhəmiyyət daşıyır. Komandir əsgərin mənəvi dəyər sistemi və davranışları ilə orduda tələb olunan yeni dəyər və davranışlar arasında doğru nisbətin əldə edilməsinə nail olmağa çalışır. Bu zaman o, ilk növbədə, bir sıra amilləri nəzərə alır. Bu amillərdən birincisi gəncin ilkin sosiallaşmasıdır. Amerikalı sosioloq T.Parsonsun fikrincə, fərdin ilk sosiallaşma vasitəsi ailədir [2, s. 438]. Gəncin dinə münasibəti, dini baxışları da bir çox hallarda ailədən asılı olur. Lakin ailə heç də həmişə bu məsələdə öz rolunu və məsuliyyət hissini doğru dərk etmir. Fikrimizcə, ailənin sosiallaşma prosesində rolu düzgün dərk olunarsa, gənclərimizin tərbiyəsində, o cümlədən vətənpərvərlik istiqamətində tərbiyəsində, onların layiqli vətəndaş kimi yetişdirilməsində ailənin rolu daha da artar və dinlə bağlı meydana gələn bir sıra mənfi hadisələrin qarşısı alınar. Bununla bərabər, göstərmək lazımdır ki, müəyyən sosiallaşma vasitələri, məsələn, təhsil sahəsi xüsusilə bu funksiya üçün yaranmışdır. Məktəb gənclərin vətənpərvərlik, hərbi, mənəvi tərbiyəsi və milli özünüdərketmə şüurunun formalaşmasında mühüm rol oynayır. Eyni zamanda, gənclərin əmək prosesində iştirakı sosiallaşmada böyük rol oynayaraq onları hərbi intizam, kollektivçilik ruhunda tərbiyə edir. Bu strukturlarda gənclərin dünyagörüşü sisteminin formalaşdırılmasına diqqətin artırılması onların ordu sıralarına daha yetkin mənəviyyatla qatılmasını təmin edən mühüm faktordur.

Bütövlükdə orduya çağırış yaşına çatmış gənclərdə dindarlığın formalaşmasına aşağıdakı xarici amillər təsir göstərir:

- ✓ dünya, region, ölkə, dövlət;
- ✓ ailənin dindarlıq səviyyəsi;
- ✓ ətraf mühitin (qohumlar, dostlar, iş yoldaşları və s.) dindarlığı;

✓ kütləvi informasiya vasitələri (bir sıra internet saytları və s.).

Digər tərəfdən, dindarlığın formalaşmasında şəxsin mənəvi keyfiyyətləri, mənəvi-psixoloji halının da rolu böyükdür. İnsan hələ gənc ikən "yaxşı" və "pis" kateqoriyaları arasında öz yerini tutur. Onu bu yaşda "xeyirxahlıq", "namus", "şərəf", "hərbi borc", "qəhrəmanlıq" kimi kateqoriyalar daha çox narahat edir.

Göründüyü kimi, gənclərin həqiqi hərbi xidmətə çağırışdan əvvəl vətəndaş mövqeyinin formalaşdırılması böyük əhəmiyyətə malikdir. Lakin bu proses ordu şəraitində müstəsna əhəmiyyət kəsb edir.

Ordudakı ilk xidmət günündən əsgər şəxsiyyətinin formalaşdırılması üçün kompleks texnoloji proqram hazırlanmalıdır:

✓ burada ümumi məqsədlər, vəzifələr, mərhələlər, meyarlar, texnoloji prosedurlar və onların həyata keçirilmə şərtləri öz əksini tapmalıdır;

✓ psixoloji və sosial pedaqoji problemləri müəyyənləşdirmək üçün mütəxəssislərlə məsləhətləşmələr aparılmalıdır;

✓ hər bir əsgərdə dindarlığın hərbi xidmətə təsir dərəcəsi müəyyənləşdirilməlidir;

✓ əsgərin davranışına, dəyər yönümünə təsir göstərə biləcək imkanlar təyin edilməlidir.

Belə bir proqramın hazırlığından sonra tərbiyə işinə başlanılmalıdır.

Dinlə bağlı deviant davranış nümayiş etdirən əsgərlərdə bu prosesin doğru idarə olunması xüsusilə ciddi bilik və bacarıqlar tələb edir. Bu cür davranışların aradan qaldırılması üçün sosiallaşma prosesi iki mərhələdən keçməlidir:

1. desosiallaşma - əvvəlki dəyərlərdən, normalardan və davranış qaydalarından imtina;
2. resosiallaşma - yeni dəyərlərin, normaların və davranış qaydalarının aşılanması.

Bu zaman ən yaxşı halda xarici norma və dəyərlər daxili tənzimlənmə mexanizminə çevrilməlidir. Nəzərə almaq lazımdır ki, sosiallaşma prosesləri dərinlik dərəcəsinə görə fərqlənirlər. Göründüyü kimi, bütövlükdə orduya daxil olma resosiallaşmanın daha az dərinlik səviyyəsini tələb etsə də, dinlə bağlı deviant davranışa malik insanlarla iş zamanı bəzən belələrindən "mən"in bütünlüklə inkarını tələb edən daha dərin səviyyənin əldə edilməsi qarşıda vəzifə kimi dayanır. Bir sıra hallarda çağırışaqədərki mənfi desosiallaşma o qədər dərin olur ki, müsbət resosiallaşma artıq kömək edə bilmir. Çünki bu zaman şəxsiyyətin əsasları artıq dağılmış olur.

Bütövlükdə orduda gənclərin resosiallaşması iki mərhələdən keçir:

✓ yeni sosial mühitə adaptasiya;

✓ aşılanan norma və dəyər sisteminin gəncin daxili aləminə çevrilməsi.

Orduda sosiallaşmanın mühüm şərti yeni sosial mühitə adaptasiyadır. Tədqiqatçı S.A.Dzyubenko qeyd edir ki, orduda adaptasiya prosesinin bir sıra xüsusiyyətləri var. Burada orqanizmin yeni nizama və fiziki yükə adaptasiyası ilə bərabər, yeni şəxsiyyətlərarası münasibətlərə adaptasiya gedir. Fərd adət etmədiyi komandaya - tabelik münasibətlərinə qoşulur. Davranışlar hərbi nizamnamələrə tabe etdirilir [3, s. 49]. Göründüyü kimi, hərbi mühitin

xarakterik əlamətləri var və bu əlamətlər hərbi xidmətə çağırılmış gənclərin həyat amalları və davranış stereotiplərinə təsir göstərərək onları dəyişdirir. Fikrimizcə, bir çox hallarda əsgərlərin əvvəlki sosial mühitdən ayrı düşməsi onların yenidən tərbiyəsini asanlaşdıran faktora çevrilə bilər. Gənc hərbi qulluqçu onun üçün yeni olan ordu həyatına, yeni obyektiv aləmə qədəm qoyur. O, özü üçün yeni olan ideyalar, anlayışlar, biliklər, bacarıqlar qazanır. Dövlətçilik və vətənpərvərlik, kollektivləşmə, qanunsevərlik, hərbi intizam, şəraitə uyğunlaşma ruhunda tərbiyə olunur. Orduya adaptasiyanın nəticəsi kimi yeni sosial identiklik meydana gəlir. Bu identikliyin əsasında güclü qrup identikliyi dayanır. Total tipli təşkilat olan ordunun müxtəlif strukturlarının bütün gücü də məhz bu nəticəyə yönəlib.

Amerika sosioloqları öz tədqiqatlarında sübut etmişlər ki, ordunu motivləşdirmənin əsas mənbəyi ideoloji əsaslardan çox qrup həmrəyliyi, ilkin ordu qrupunun dəyər və ideallarına sədaqətdir. M.Lerner göstərir ki, ordunun döyüş ruhunun əsasında qrup hissi dayanır [4, s. 449]. Əsgər adaptasiya prosesində nəzərə çarpan uyğunsuzluq zamanı öz dini davranışlarını şüurlu şəkildə dəyişdirə bilər. Lakin çox zaman bunun üçün sosial, psixoloji və hüquqi amillərin təsirindən istifadə etmək lazım gəlir. Şəxsiyyətin dinlə bağlı deviant meyillərini "bloklama" vacib şərtə çevrilir.

Orduda gənclərin sosiallaşması zamanı dinlə bağlı proseslərə aşağıdakı amillər ciddi təsir göstərir:

- ✓ bütövlükdə hərbi hissənin pedaqoji mühiti;
- ✓ təsirə məruz qalan hərbi qulluqçunun şəxsi mənəvi keyfiyyətləri və psixoloji xüsusiyyətləri.

Hərbi hissənin pedaqoji mühiti sosiallaşma işində aşağıdakı istiqamətlərə yönəlməlidir:

- ✓ ordunun vəzifəsi bilavasitə vətənin müdafiəsi olduğu, Dağlıq Qarabağ münaqişəsi nəzərə alınaraq şəxsiyyətin strukturunun vətənpərvərliklə bağlı bu istiqamətinə diqqət yetirilməsi, lazım gələrsə, bu istiqamətdə desosiallaşma və resosiallaşma;
- ✓ gəncin bütövlükdə bir şəxsiyyət kimi formalaşdırılması və Azərbaycan Respublikasının layiqli vətəndaşı kimi yetişdirilməsi;
- ✓ gəncin gələcəkdə cəmiyyət həyatında öz yerini tutmasına yardım.

Bu zaman hərbi hissədə dinlə bağlı tərbiyə işi aşağıdakı istiqamətlərdə aparılmalıdır:

- ✓ multikultural yanaşma, birgəyaşayış, birgəmövcudluq vərdişlərinin aşılanması. Ətrafa sosial adaptasiya. Orduda elə şərait yaradılmalıdır ki, burada hərbi qulluqçular öz birliyini hiss edə bilsinlər. Bu, hərbi kollektivdə qarşılıqlı yardım şəklində özünü göstərir;
- ✓ hərbi qulluqçuların dini görüşlərindən asılı olmayaraq, onlarda hərbi fəaliyyətə doğru münasibətin formalaşdırılması;
- ✓ dini maarifləndirmə. Dinlə bağlı mütəxəssislər tərəfindən hazırlanmış elmi ədəbiyyatla tanışlıq. Dinə doğru mənəvi münasibətlərin formalaşdırılması;
- ✓ ordudan sonrakı həyata marağın artırılması;

✓ cəmiyyətdə mövcud norma və dəyərlər mövqeyindən hərbi qulluqçularda dini davranışın özünütənzimlənmə mexanizminin işə salınması.

Qeyd etdiyimiz kimi, sosiallaşma prosesində şəxsi mənəvi keyfiyyətlər və psixoloji xüsusiyyətlər də mühüm rol oynayır. Tədqiqatçılar sosiallaşmanın optimallaşması üçün şəxsiyyətin strukturunda mühüm yer tutan amillər kimi aşağıdakıları qeyd edirlər:

✓ dəyər yönümlərini dəyişdirmə bacarığı;

✓ şəxsi dəyərlərlə hərbi-sosial mühitin tələbləri, yerinə yetirilən sosial rol arasında balansın əldə edilməsi;

✓ ömrünü təkcə özünütəminə deyil, fövqəlşəxsi məqsədlərə - vətənə, xalqa, cəmiyyətə, dövlətə həsr etdikdə həyatın daha mənalı olduğu fikrini anlama;

✓ təkcə konkret sosial tələblərə deyil, həm də universal mənəvi dəyərlərə yönəlmə [1, s. 182].

Bu amillərə təsir prosesində dinin yerinin doğru müəyyənləşdirilməsi müvəffəqiyyətli sosiallaşmanın mühüm komponentidir.

Ordu gənclərimizi möhkəmləndirir, onları cəsarətli, şücaətli edir, mənəvi dəyər və normalara fərqli yanaşma öyrədir. Bu zaman dindarlığın müəyyən səviyyəsinə malik gənclərdə ədalət, həqiqətsevərlik, fədakarlıq kimi keyfiyyətlərin aşılanmasında başqa amillərlə yanaşı, din amilindən istifadənin mümkünlüyü də nəzərə alınmalıdır.

Orduda bəzən dinin potensialından kifayət qədər istifadə olunmur. Buna səbəb kimi aşağıdakılar göstərilə bilər:

✓ qanunvericiliyin sərhədini təyin etməkdə çətinlik çəkən komandir, ümumiyyətlə, bu məsələyə toxunmamağa çalışır;

✓ komandir hərbi qulluqçunun dini amil nəzərə alınmaqla tərbiyələndirmə istiqamətlərini təyin edə bilmir;

✓ bir sıra hallarda din amili hərbi idarəetməyə mane olur.

Lakin dinə yanaşmalarındakı bu köhnə stereotipləri dağıtmaq və yenilərini yaratmaq mümkündür. Bunun üçün, ilk növbədə, bilavasitə əsgərlərlə iş aparan komandir - rəis heyətinin özünün hazırlıqlı olması vacib şərtdir. Belə hazırlıq prosesi dörd istiqamətdə özünü göstərməlidir:

1. dinlə bağlı qanunvericiliyin öyrənilməsi;
2. xalqımızın qədim dövrlərdən gələn tolerantlıq ənənələrinin öyrənilməsi;
3. Azərbaycanda tarixən mövcud ənənəvi dinlərin elmi şəkildə öyrənilməsi;
4. xarici təriqətçi təşkilatların fəaliyyəti, dindən ideoloji silah kimi istifadənin metod və yolları haqqında biliklərin əldə edilməsi.

Hər bir hərbi kollektiv gənclərin sosiallaşması prosesində güclü təsir vasitəsidir və onların ordu həyatına, o cümlədən ordudan sonrakı həyata uyğunlaşdırılmasında mühüm rol oynayır. Buna görə də ordu gənclərin sosiallaşma prosesində dini istiqamətli təsirləri optimallaşdırmaq üçün tərbiyə prosesini məqsədyönlü idarə edərək ona vətənpərvərlik xarakteri verməlidir. Dini inamlarla bağlı deviant davranışların tənzimlənməsi üçün sosiallaşmanın xüsusi mexanizmlər

məcmusundan istifadə edilməlidir. Əgər problemə məqsədyönlü və düşünülmüş şəkildə yanaşılarsa, onun həlli mümkündür. Bu istiqamətdə ordu ilə yanaşı, ailə, kollektivlər, müxtəlif ictimai təşkilatlar və bütövlükdə cəmiyyət ciddi iş aparmalıdır.

## ƏDƏBİYYAT


1. Назаренко С.В. Социология: учебное пособие, 2 изд. Санкт-Петербург: Питер, 2009, 496 с.
2. Парсонс Т. О структуре социального действия. Москва: Академический проект, 2000, 880 с.
3. Дзюбенко С.А. Социализация военнослужащего в процессе прохождения срочной службы. Актуальные проблемы гуманитарных и общественных наук. 2016, №2 (59) – www.colloquim-publishing.ru /library/
4. Лернер М. Развитие цивилизации в Америке. Москва, Радуга 1992. Т. 2, 575 с.

Севда Гусейнова

## РЕЛИГИОЗНЫЙ ФАКТОР В ПРОЦЕССЕ СОЦИАЛИЗАЦИИ МОЛОДЕЖИ В АРМИИ


### РЕЗЮМЕ

Статья посвящена влиянию религиозного фактора на процесс социализации молодежи в армии.

В становлении личности молодежи важную роль играет армия, оказывающая влияние на воспитание необходимых качеств военнослужащих. В данной статье внимание сосредоточено на рассмотрении влияния религии на процесс социализации молодых военнослужащих для выявления особенностей и механизмов данного процесса. Цель состоит в том, чтобы исследовать проблему и таким образом помочь регулировать процесс социализации молодежи в армии.


Sevda Huseynova

## RELIGIOUS FACTOR IN THE PROCESS OF SOCIALIZATION OF YOUNG MEN IN THE ARMY


### SUMMARY

The article is devoted to the influence of the religious factor on the process of socialization of young men in the army.

Army plays an important role in the formation of the identity of the young men, influencing the upbringing of the essential qualities of soldiers. This article focuses on examining the influence of religion on the socialization process of young military personnel with the aim to reveal the peculiarities and mechanisms of this process. The objective is to investigate the problem and thus to help regulate the process of socialization of young men in the army.

# OSMANLI DÖVLƏTİNİN RƏSMİ XƏTT NÖVLƏRİ VƏ TÜRK SUVERENLİYİNİN RƏMZİ OLAN "TUĞRA"

***Səbinə NEMƏTZADƏ,***
*Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmlər doktoru pilləsi üzrə doktorantı, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru*
*nematzadesabina@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *tuğra, divani, Osmanlı dövləti, suverenlik, fərman, möhür.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *тугра, дивани, Османская империя, суверенитет, указ, печать.*
***KEY WORDS:*** *tugra, diwani, The Ottoman Empire, sovereignty, decree, seal.*

Osmanlı dövlətində inkişaf edən xətt növlərindən biri dövlətin rəsmi yazısı olan "divani"dir. Qədim təliq xəttinin Osmanlılardakı əsl təsiri Divani-Humayunda istifadə edilən tövqi və rüqə xətt növləri üzərində olmuşdur. Fatih dövründəki divan təşkilatında əsas xüsusiyyətlərindən uzaqlaşmağa başlayan bu iki xətt növü qədim təliqin təsiri ilə sürətli şəkildə dəyişikliyə uğramış və bundan divani adı verilən yeni Osmanlı rəsmi yazısı ortaya çıxmışdır. [1, s. 39]. Padşah fərmanları, mənşurları *(Osmanlı dövlətində padşah tərəfindən vəzir, bəylərbəyi kimi yüksək vəzifəli məmurların təyinatı ilə bağlı qərarlara verilən addır - Red.)*, siyakat *(dövlətin güvənliyi, önəmli məlumatların gizli saxlanılması məqsədilə qısa şəkildə qeydlər aparılmış sənədlərdir)*, mühimmə *(Osmanlı dövründə sənədlər məcmuəsi)* və əhkam dəftərləri, dövlətin rəsmi qərarları Divani-Humayunda məhz bu xətt növü ilə yazılmışdır. Tövqi və təliq xüsusiyyətləri daşıyan divani xətt növü İran *(Cənubi Azərbaycan, Təbriz - S.N.)* mənşəli olmaqla yanaşı, osmanlılar tərəfindən də inkişaf etdirilmiş, Osmanlı dövlətinin qurduğu nizamın ehtişam, əsalət və əzəmətini ortaya qoymuşdur [2, s. 83].

Tövqi və rüqə yazıları "əqləmi-sittə"yə[1] daxil olan xətt növləridir. Bu ana üslublar İbn Müqlə və İbn əl-Bəvvab tərəfindən müstədir (yuvarlaq) xüsusiyyətli yazılar arasından seçilmiş, hər birinə mənasına görə ad verilmişdir. Yaqut əl-Müstəsimi ilə klassik qaydalar ortaya qoyulmuşdur. Bunlar ikili qrup halında tövqi və rüqə, mühəqqəq və reyhani, süls və nəsx yazı növləridir. Bu yazıları bir-birindən ayıran ölçü fərqləridir. Əslində, hərf şəkillərinin əsası birdir [2, s. 73]. Tövqi və rüqə bir-birinə yaxın xətlərdir. Mühəqqəq reyhani ilə, süls də nəsxlə bir-birinə çox yaxın olan tərzlərdir, sadəcə olaraq, reyhani mühəqqəqdən, nəsx isə sülsdən ölçü baxımından kiçikdir.

1 Əqləmi-sittə İslam yazıları arasında altı növ yazıya verilən addır (şeş qələm/altı qələm).

Altı növ yazıdan biri olan, lüğətdə “əlamət, nişan, tuğra, padşah tuğrasını daşıyan fərman” anlamına gələn “tövqi” – xətt sənətində sultanlara aid sənədlərdə istifadə edilən yazı növünün adıdır. Professor Muhittin Sərin qeyd edir ki, əqləmi-sittənin ana üslublarından sayılan tövqi katib və şair Yusuf Lakve tərəfindən süls xəttinin əsasında inkişaf etdirilmişdir. Abbasi xəlifəsi Məmunun vəzirlərindən Fəzl ibn Səhl (ö.202/818) çox bəyəndiyi bu xətt növünə “ər-riyasi” adını vermiş, divandan çıxan fərman və məktubların bu xətlə yazılmasını əmr etmişdir [3, s. 36]. “Rüqə” isə lüğətdə “kağız, dəri parçası” anlamına gəlir. O, xətt sənətində tez və asan yazmaq və oxumaq ehtiyacından doğmuş, qələmin təbii axışına uyğun divani xüsusiyyətlərini daşıyan, Osmanlılar tərəfindən inkişaf etdirilən yazı növüdür. Nə zaman ortaya çıxdığı dəqiq bilinməyən rüqə yazısının XV əsrin ikinci yarısından sonra Dulqədiroğulları dövründə işləndiyi irəli sürülür. Bu xətt növü XVIII əsrin ikinci yarısından sonra Divani-Humayunda müəyyən qaydalara tabe olmuş, ana xətti ilə meydana çıxan bir xüsusiyyət qazanmışdır. XIX əsrdə gündəlik həyatda, məktublarda və rəsmi yazılarda geniş şəkildə istifadə edilmişdir. Qısa müddətdə bir çox İslam ölkəsində də bəyənilən rüqə günümüzə qədər sadəliyi və asanlığı səbəbindən təlim və tədrisdə əhəmiyyətini qorumuşdur [4, s. 108].

“Əqləmi-sittə”dən başqa, inkişaf edən yazılardan olan təliq – Təbriz xəttatlıq sənətində XIV əsrin ikinci yarısında artıq tam formalaşan, İslam dünyasında süls və nəsxdən sonra ən çox istifadə olunan xətt növüdür. Bu yazının əsl adı nəstəliqdir. İran və dünya ədəbiyyatında da bu adla tanınır. Türkiyədə təliq adlandırılmışdır. O, birləşməyən hərflərin bir-birinə bağlandığı tövqi və rüqə xəttindən doğmuş qrif və çox çətin oxunan yazıdır. Təliq nəstəliq yazısının ilk formasıdır [2, s. 81].

Təliq digər yazılara nəzərən çılpaq bir xətdir. Çünki hərəkələr və təzyini işarələr bu yazıda yoxdur. Yazıda, hətta ən kiçik qüsur belə gözə çarpdığından, yazılması çox çətindir [5, s.140].

Fateh Sultan Mehmet dövründə digər İslam xətləri kimi, divaniyə də böyük önəm verilmiş və inkişaf etdirilmişdir. Həmin dövrdə divani xəttinin bugünkü şəklinin üsul və qaydalarını ortaya qoyan Tacəddin olmuşdur. Mənbələrə əsasən, İsmayıl Çələbi, Saf Müsli Çələbi, Eyn Əli Çələbi, Hüdhüd Əli Çələbi, Tacizadə Cəfər Çələbi, Matrakçı Nasuh divani xəttinin məşhur xəttatları olmuşlar. Divanidə ideal nisbət və formalara XVII əsrdə nail olunmuş, XIX əsrdə isə ən gözəl nümunələri qələmə alınmışdır. Padşah iradəsi ilə yazanın imzası olmadığı üçün bu cür yazan xəttatlar haqqında daha çox məlumata sahib deyilik [6, s. 54].

Divaninin özünəməxsus hərf formaları vardır. Burada gizliliyi qorumaq və təhrifin qarşısını almaq məqsədi ilə hərflər və sözlər bir-birinə çox yaxın yazılır. Bu yazıda sətirlərin son qisimləri sivri ucluq şəklində yuxarıya doğru yüksəlir və hər sətrin sonunda yuxarıdan-aşağıya doğru sözün bitdiyini göstərən bir işarə çəkilir. Digər yazıların əksinə, hərflər və kəlmələr ayağa qalxmış vəziyyətdə, sola doğru meyillidirlər. Üfüqi qisimlər də sağdan-sola doğru meyillidirlər. Həmçinin hərflər önə doğru qıvrılmış vəziyyətdədirlər. (ح، س، ص، ع، ق، ك، ل، م، ن، ى) kimi hərflərin çanaq hissəsindəki alt qisimləri soldan-sağa doğru geriləmiş, (ا، د، ر، و) kimi hərflər özlərindən sonra gələn hərflərlə birləşmişlər. Hərflər və kəlmələr sanki bir-birinə bitişmişdir.

Aralarında məsafə buraxılmadan yazılır və sətir sona yaxınlaşdıqca sətir xəttindən yüksəlməyə başlayır [7, s. 445].

**Tuğra.** Osmanlı xətt sənəti formalarından biri olan tuğra türklərdə dövləti təmsil edən hökmdarlıq əlamətidir. Oğuz xaqanlarından Osmanlı padşahlarına qədər türk hökmdarlarını təmsilən istifadə olunan yazılı əlamət və işarələr tuğra adı ilə anılır. Orta əsr türkcəsində "hökmdarın möhür və imzası" mənasında "tugrag" şəklində yer alan söz farscaya "nişan", ərəbcəyə "tövqi" və "əlamət" kimi keçmişdir [8, s. 336]. İçərisində padşahın adı yazılmış xüsusi şəkil olan tuğra (möhür) fərman, hökm, namə, əmr kimi padşaha aid sənədlərdə, sikkələrdə, rəsmi sənəd və abidələrdə, nəzarət damğası olaraq qızıl və gümüş məmulatları üzərində əks olunmuşdur. Osmanlı padşahlarına aid ən qədim tuğra nümunəsi sadə xətlərdən əmələ gələn Sultan Orxan tuğrasıdır. Zamanla şəkil baxımından inkişaf edən tuğranın XVI əsrdə artıq daha bəzəkli, gözəl nümunələri işlənmişdir [2, s. 84]. Bu dövrdə tuğraların zər-mürəkkəblə (qızıl vərəqlərin əzilməsi yoluyla əldə edilir) yazılmışdır, hərflərinin fərqli rənglərlə təhrirləndiyi də görünür [9, s. 127]. III Səlimdən sonra Mustafa Rakımın sayəsində tuğra yeni üslub qazanmışdır. Sami Əfəndi adlı sənətkarla isə ən gözəl estetik ölçülərini tapmışdır [2, s. 84]. Osmanlılarda altı qələmin tövqi növü ilə çəkilən və əvvəllər sadə xətlərdən meydana gələn tuğralarda padşahın adı atasının adı ilə birlikdə ərəb söylənişinə uyğun (yəni, "bin"/"oğlu" əlavə edilərək - S.N.) yer alırdı. Zaman keçdikcə buna "şah" və "xan" sifətləri, həmçinin "əl-müzəffər daima" duası əlavə olunmuşdur [8, s. 336]. Məsələn, Qanuni Sultan Süleymanın tuğrasında "Süleyman şah bin Səlim şah xan əl-Müzəffər daima" yazılmışdır [10]. Qeyd etmək lazımdır ki, Sultan Süleymanın tuğrası ən məşhur tuğra hesab olunur.

Tuğralar şəxsən padşah tərəfindən deyil, "nişançı" və "tuğrakeş"lər tərəfindən yazılırdı. Osmanlı mədəniyyət, sənət və suverenliyini təmsil edən tuğralar Osmanlı dövlətinin mövcud olduğu dövr ərzində müxtəlif yerlərdə istifadə edilmiş, xətt sənətinin bir qolu olmuş və rəsmi vəzifəsini tamamladıqdan sonra tarixə qovuşmuşdur [11].

Tuğralar Böyük Səlcuqlular, Anadolu Səlcuqluları, Anadolu Bəylikləri, Teymurilər, Məmlüklər, Osmanlılar tərəfindən işlənilmişdir. Tədqiqatçı Nihad Boydaş qeyd edir ki, Osmanlı tuğralarında canlılıq, həyat və gücü ifadə edən əyri cizgilər Məmlüklərin və Teymurilərin tuğralarında yoxdur [12, s. 32].

Tuğraların əsas hissələri bunlardır: sərə, beyzə, tuğ (əlif), zülfə, xəncərə (qol).

a) Sərə – tuğranın mətn hissəsidir. Bu hissədə padşahın və atasının adı ilə yanaşı, yuxarıda da qeyd etdiyimiz kimi, "şah", "xan" kəlmələri ilə birgə, ritmik istif şəklində yazılır.
b) Beyzə (yumurta formasında olur) – iki hissəyə ayrılır: daxili və xarici beyzə. "Bin" və "xan" sözlərindəki "nun" hərfinin bükülməsi ilə ortaya çıxan, iç-içə yazılan iki qövsdən ibarətdir. Qeyd etmək lazımdır ki, məhz "əl-Müzəffər" sözü tuğrada yazılmağa başladıqdan sonra "n" hərfi beyzələrdən sola doğru meyillənərək beyzələri iki hissəyə ayırmışdır.
c) Tuğ (əlif) – tuğralarda yuxarıya doğru uzanan, mizraq şəklində olan üç əlifə verilən addır.

d) Zülfə (zülüf) – tuğraların üstündəki bayraq kimi bükülən hissəyə deyilir.

e) Xəncərə (qol) – daxili və xarici beyzələrin davamı olan, "əl-müzəffər" kəlməsinin və sərənin üstündən tuğları kəsib keçən, tuğranın sağına doğru meyillənən və bir-birinə paralel iki xəttə verilən addır.

Bəzi tuğralarda sağ üst boşluqda mənsub olduğu padşahın ləqəbi və ya təxəllüsü yazılır.



Tuğralı sənədlər mövzularına və yazılış formalarına görə fərqlənirlər. Xalq arasında gündəlik dildə bütün tuğralı sənədlər fərman adlandırılır. Görünür, bu, mövzuları dəyişik olsa da, görünüş etibarilə bənzərlikdən qaynaqlanır.

Osmanlı diplomatiyasında sənədlər iki cür olmuşdur:

a) Laik (dünyəvi, hüquqi) xüsusiyyətlər daşıyan sənədlər: bunlar dövlət idarəsinin dünya işləri ilə əlaqədar mövzularını ehtiva edən müxtəlif sahələrə aid sənədlərdir. Bu sənədlər padşah adına çıxarılmış fərman, bərat və b. şəklində əmr və hökmlərdir.

b) Dini xüsusiyyətlər daşıyan sənədlər: bunlar Osmanlı cəmiyyətinin dini həyatı ilə əlaqəli olan qazılıq qeydləri, vəkfiyyələr, fətvalar kimi sənədlərdir [13, s. 17].

Osmanlılarda divani xətti ilə yazılması ənənə halını alan sənədlər də fərmanlar idi. Onlar da belə bir ardıcıllıqla qələmə alınmışdır:

1. Fərmanın göndərildiyi kimsənin rütbə, dərəcə və sifətlərinin, tutduğu mövqe və önəminə görə dualar və tərifləyici sözlərdən sonra adı, sonra isə təxəllüsü qeyd olunur.
2. Mövzuya giriş cümləsi: "tevki-i refi-i humayun vasil olacak malum ola ki…"
3. Fərmanın çıxarılma səbəbi.
4. Padşahın məqsəd və arzusunun yerinə yetirilməsinin əmr etdiyinin ifadəsi.
5. "Buyurdum ki…" ilə başlayan, icrası gərəkli olan işin açıqlanması.
6. Haqqında danışılan iş və ya vəzifənin yerinə yetirilməsi xüsusunda israr və xəbərdarlıqlar.
7. Mətnin son sətrində yazılan fərmanın verildiyi tarix.

8. Sənədin sol alt küncündə və mətnin xaricində yerləşən fərmanın yazıldığı yerin adı.

Bəzi fərmanlarda tuğranın sağ və ya soluna, bəzən də tuğraları**n** üzərində padşahı**n** öz əl yazısı ilə mətndə yazılanı vurğulayan kiçik cümlələr yer alır [13, s. 17-18]. Bərat "yazılı kağız", "məktub" anlamında olub, Osmanlı dövlət təşkilatında bəzi vəzifə və məmurluğa təyin edilənlərə, vəzifələrini saxlamaqla padşahın tuğrası ilə verilən məzuniyyət və təyin əmrləri, yaxud mülkiyyət mövzularında istifadə edilən təbirdir [13, s. 18].

Hökmdarın çıxardığı mənşur və əmrnamələrə də tuğra qoyulurdu. Lüğətdə "yaymaq", "kitabı nəşr etdirmək", "diriltmək" mənalarına gələn "nəşr" kökündən qaynaqlanır. İctimaiyyətə bəyan etmək, açıqlamaq və yaymaq məqsədi ilə yazıldığı üçün bu sənədlərə "mənşur" deyilmişdir.

Əsri-səadətdə, Raşidilər və Əməvilər dövründə mənşur təbirinin "buyruq və fərman" mənasında istifadə olunduğuna dair qaydaya rast gəlinmir. Fatimilərin hər növ rəsmi yazışma və müxtəlif vəzifələrə təyin etmək üçün çox vaxt "sicil", bəzən "mənşur", bəzən isə "sicil" və "mənşur" kəlmələrinin birlikdə istifadə olunduğuna rast gəlinir. Əndəlüs Əməvi dövlətində vəzifəyə təyinat sənədlərinə mənşur, sak və sicil deyilirdi. Əyyubilərdə sultan tərəfindən təyin edilən vəzifə sahiblərinə təqdim olunan sənədə "mənşur" adı verilirdi. Lakin Əyyubilərdə "mənşur" və "sicil" sözlərinin bir-birinin yerlərinə istifadə edildiyinə rast gəlinmir. Məmlüklər dövründə hər sənəd üçün ayrı-ayrı təbirlər ortaya çıxınca "mənşur" kəlməsi, daha çox, iqta ilə bağlı olaraq istifadə edilmişdir. İqtalara dair mənşurlar həmişə Divani-İnşadan sultan adına yazılır və onun təsdiqi ilə ərz edilirdi [14, s. 148].

Anadolu Səlcuqlularında vəzir, divan üzvləri və digər məmurların təyini üçün mənşur verilirdi. Bu dövrlə əlaqəli təyin mənşurları bəzi dəyişikliklər istisna olunmaqla, Büyük Səlcuqlulardakı mənşurlarla eyni idi [15, s. 149].

Osmanlı bürokratiyasında sədrəzəm, vəzir, bəylərbəyi kimi dövlətin ən yüksək mövqelərindəki şəxsləri vəzifəyə təyin etmək məqsədi ilə verilən bir bərat növünün adı kimi keçir. Lakin rəisül-küttab tərəfindən yazılmış mənşurlar da vardır [16, s. 150].

Qeyd etmək lazımdır ki, XV əsrin sonlarından başlayaraq dövlət sənədlərində yer alan, dövlətin suverenliyini təmsil edən tuğra sanki bir təzyinat xüsusiyyəti qazanmışdır. XVI əsrdə Türk-İslam əlyazma sənətinin bütün sahələri kimi, təzhibin də zirvədə olduğunu nəzərə alsaq, bunu təbii qarşılamaq mümkündür.

# ƏDƏBİYYAT


1. Derman M. Uğur. Ta'lik. İslam Ansiklopedisi, DİA, cilt: 39. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2010.
2. Serin Muhittin. Hat Sanatı. İslam Sanatları Tarihi. Anadolu Universitesi Yayınları, Eskişehir: 2013.
3. Osmanlı padişah fermanları: sergi kataloğu: T.C. kültür ve Turizm Bakanlığı Türk ve İslam Eserleri Müzesi İbrahim Paşa Sarayı İstanbul 19 Eylül 1986 - 18 ocak 1987 = Imperial Ottoman fermans: exhibition catalogue: Turkish Ministry of Culture and Tourism Museum of Turkish and Islamic Arts Ibrahim Pasha Palace Istanbul 19 September 1986 - 18 January 1987. / haz. Ayşegül Nadir. London: 1986.
4. Serin Muhittin. Rik'a. İslam Ansiklopedisi, DİA, cilt: 35, İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2008.
5. Özcan Ali Rza. Yesarizade Mustafa İzzet Mektebi.Hat ve Tezhip Sanatı. Ankara, T.C. Kültür və Turizm Bakanlığı Yayınları, 2009.
6. Dere Ömer Faruk. Harflerin Divanı, Dîvân-ı Hurufât. İsmek El Sanatları Dergisi, Sayı 18. İstanbul: 2014.
7. Alparslan Ali. Divani. İslam Ansiklopedisi. DİA, Cilt: 9. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM.
8. Derman M.Uğur. Tuğra. İslam Ansiklopedisi, DİA, cilt: 41. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2012.
9. Derman Mustafa Uğur. Padişah tuğralarındakı şekil inkilabına dair bazı gerçekler. Hat ve Tezhip Sanatı. Ankara: T.C. Kültür və Turizm Bakanlığı Yayınları 2009.
10. Mensiz Ercan. Türk Dünyası'nda Tuğralar ve Osmanlı Padişah Tuğraları. http://www.tugra.org/tr/hakkinda.asp
11. https://usengecsef.com/2013/06/hep-dua-ile-karstrlyor-iste-aslnda/
12. Boydaş Nihat. Talik yazıya plastik değer açısından bir yaklaşım. Ankara: Milli Eğitim Bakanlığı, 1994.
13. Serin Muhittin. Rik'a. İslam Ansiklopedisi, DİA, cilt: 35, İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2008.
14. Özaydin Abdülkerim. Menşur. İslam ansiklopedisi, cilt: 29, DİA. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2004.
15. Merçil Erdogan. İlk Müslüman Türk Devletlerinde Menşur. / Menşur. İslam ansiklopedisi, cilt: 29, DİA. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2004.
16. DİA. Osmanlılar'da Menşur. İslam ansiklopedisi, cilt: 29, DİA. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, İSAM, 2004.

Сабина Нематзаде

# РАЗНОВИДНОСТЬ ОФИЦИАЛЬНОЙ ПИСЬМЕННОСТИ ОСМАНСКОГО ГОСУДАРСТВА И СИМВОЛ ТЮРКСКОГО СУВЕРЕНИТЕТА «ТУГРА»


## РЕЗЮМЕ

В период правительства османской империи на территории страны существовал ряд видов письменности. Письмена развивались под влиянием исламской культуры и искусства. В исполнении государственных законов и указов в основном преобладали черта «дивани». Влияния древнего талига на османского письма было использовано на письмах товги и рика в Дивани Хумаюн. Также как одна из форм османского искусства письма «тугра» представлял знак государственности у тюрков. От огузских каганов до османских государей, используемые письменные знаки и индикации, представляющие тюркских государей называются под именем «тугра». Еще в XVI веке уже были известны расписные, прекрасные образцы «тугры». Следует отметить, что «тугра» Султана Сулеймана считался самой известной.

В статье были исследованы разновидность официальной письменности, использования в официальных документах символа тюркского суверенитета тугра, сравнение с другими видами письма и этапы развития в османской империи.


Sabina Nematzade

# THE DIFFERENCE OF TUGRA AS AN OFFICIAL WRITING OF THE OTTOMAN EMPIRE AND SYMBOL OF TURKISH SOVEREIGNTY


## SUMMARY

During the reign of the Ottoman Empire, there were a number of official writings in the country and the writings were developed through the influence of Islamic culture and calligraphy. “Diwani” calligraphy was especially used in decrees and the implementation of state laws. The effects of ancient Taliq were mostly on Tovqi and Riqa types of calligraphy that used in the Divani Humayun. Also, tughra as one type of calligraphy was the element of one of Ottoman reign. All signs and elements that used for The Ottoman sultans and Oguz khagans called Tughra. More ornate, beautiful examples of Tugré was already known in the 16th century. We have to mention that Suleiman the Magnificent’s tuhra was the most famous one.

So, the main investigation point in this article are the types of official writings in the Ottoman Empire, the usage of tughra in documents as the symbols of Turkish sovereignty, and the comparison with other calligraphy types.


***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə yerinə yetirilmişdir.***

*Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5*

# İRAN MÜHACİRƏT ƏDƏBİYYATI

**Rauf QULUZADƏ,**
*Bakı Dövlət Universitetinin*
*Şərqşünaslıq fakültəsinin müəllimi*

**AÇAR SÖZLƏR:** *mühacirət, ədəbiyyat, iranlı mühacir yazıçılar, ədəbi ənənələr.*
**KEYWORDS:** *immigration, literature, Iranian immigrant writers, literary traditions.*
**КЛЮЧЕВЫЕ СЛОВА:** *иммиграция, литература, иранские писатели-иммигранты, литературные традиции.*

İran ədəbiyyatının tarixində mühacirətdə yaranmış bədii ədəbiyyat nümunələri əhəmiyyətli yer tutur. Mühacirət ədəbiyyatını ayrı-ayrı xarici ölkələrə gedərək orada yaşamağa məcbur olan yaradıcı qüvvələr formalaşdırmışlar. Mühacirət ədəbiyyatında vətən həsrəti, qürbət duyğuları, tarixi hadisələrə fərqli ədəbi baxış meyilləri qüvvətlidir. Çətin şəraitdə yaranan mühacirət ədəbiyyatı İranı dünyaya tanıtmağa da xidmət etmişdir.

Tarix boyu iranlılar müxtəlif ictimai-siyasi səbəblər ucbatından mühacirət etmişlər. Bəzən onlar yeni "vətənləri" olacaq qürbətdə kök salmış, bəzən isə tezliklə qayıtmaq ümidi ilə məskunlaşmışlar. Mühacirliyə müxtəlif cür yanaşmalar olmuşdur: bəziləri nostalji hisslərin təsiri altında tərk etdikləri yurdlarını "itirilmiş cənnət" kimi xatırlamış, digərləri isə keçmişin ən qaranlıq və ağrılı xatirələrini əsas götürərək mühacirliklərinə haqq qazandırmaq istəmişlər.

Gah keçmişin gözəl, gah da eybəcər tərəflərinə üz tutan mühacirlər iki sahil arasında lövbər vuran qayıqlara bənzəyirlər. Onların arasında "keçmişə qaytaran körpüləri" yandıraraq yeni "dünya"ya doğru aparan cığırları seçənlər də var, bu cığırlarda yolunu itirərək hardasa azıb qalmışlar da... Lakin bütün hallarda həm indiyə, həm də gələcəyə təsir edərək, varlıq və şəxsiyyəti təyin edən keçmişdən tamamilə qurtulmaq mümkün olmamışdır [1].

Mühacirətdə yaranmış ədəbi əsərlərin bir qismində müəlliflər vətəni tərk etməzdən əvvəl baş vermiş hadisələri əks etdirən xatirələri qələmə almaqla onları qoruyub əbədiləşdirmək, digər qismində isə mühacirlik həyatını təsvir etməklə yeni məskəndə özgə olmağın çətinliyini analiz edib anlamaq istəmişlər.

2015-ci ildə işıq üzü görmüş Sanaz Fotouhinin "The Literature of Iranian Diaspora" ("İran diaspor ədəbiyyatı") kitabı İranın mühacirət ədəbiyyatı ilə yaxından tanış olmaq istəyənlər üçün ingilis dilində yazılmış qiymətli mənbədir. İranda doğulmuş, Yaponiya, ABŞ, Honq Konq və Avstraliyada boya-başa çatmış, ingilis ədəbiyyatı üzrə doktorluq elmi dərəcəsi almış bu xanım kitabının təqdimatında yazır ki, "müəyyən bir mədəniyyətə aid olmasını" heç zaman hiss etmədiyindən, "vətəndən gələn nostalji səs və mənzərələri" görmək və duymaq üçün İran mühacir yazıçılarının əsərlərini oxumuş, digər ölkələrin mühacir ədəbiyyatı ilə İran mühacir ədəbiyyatının oxşar və fərqli cəhətlərini ayırd etməyə müfəffəq olmuşdur [2].

1979-cu il inqilabından sonra iranlıların kütləvi mühacirəti mədəni və milli ikitirəlik

daşıyan diasporun yaranmasına səbəb oldu. Köklərindən ayrılmış bir çox iranlı vətən ilə tamamilə əlaqələri kəsilmiş vəziyyətə düşdülər. Bu azmış kimi, yad ölkənin mətbuat vasitələrində İran və iranlıların yanlış təsvir və təqdimatı ilə üz-üzə qaldılar. Lila Azam Zanganehin dediyi kimi, "çox qədim zamanlardan İran Qərbin təsəvvüründə ekzotik duyğuların cənnəti və fanatik dindarlığın qalası kimi canlanırdı" [3]. İnqilabdan əvvəl iranlılar "dünyanın ən şən və mehriban insanları" olan ekzotik şərqlilər kimi tanınırdılarsa, inqilabdan sonra, xüsusilə girov böhranından sonra Qərbin İrana münasibəti kökündən dəyişdi. 1979-cu ilin noyabrında 36 Amerika vətəndaşı Tehran səfirliyində girov götürülən andan, Amerikada antiiran əhval-ruhiyyəsi qızışmağa başladı. Kütləvi informasiya vasitələri adi amerikalıların təsəvvüründə "qeyri-rasional", "işgəncəyə həris" və "kompromisə getmək istəməyən iranlılar" imicini yaratmağa başladılar. Professor Yahya Kamilpurun 1997-ci il apardığı tədqiqatın nəticələri göstərdi ki, həmin təbliğat insanların şüurunda artıq kök salmışdır [4]. Qəribə deyildi ki, bu şəraitdə bir çox mühacir iranlı özünü təcrid olunmuş hesab edirdi. Bu isə onların Qərb cəmiyyətinə inteqrasiyasını çətinləşdirirdi.

İllər boyu bu cür soyuq özgə münasibəti görən iranlılar təcrid vəziyyətindən çıxmaq üçün özlərinin media şəbəkəsi və incəsənət kanallarını yaratmağa başladılar. Bu vasitələrin ən əhəmiyyətlisi isə ingilis dilində ədəbi-bədii əsərlərin yazılması oldu.

İranlılar poeziya və ədəbiyyata dərin məhəbbətləri ilə seçilirlər. İstər klassik əsərlər, istərsə də müasir dövr müəlliflərinin ədəbi əsərlərində ölkə və onun mədəniyyəti hər rakursdan işıqlandırılır və oxucuda minillik tarixi olan mədəniyyət haqqında müəyyən bir təsəvvür yaradır.

İranlı mühacir yazıçıların əksəriyyəti milli, mədəni və ədəbi dəyərlərə sadiq qalırlar. Son illər bir çoxları məşhur fars ədəbi ənənələri və konseptlərindən istifadə edərək ingilis dilində kreativ ifadələr yaratmağa meyillənmişlər. Klassik fars ədəbiyyatı ənənələrinə görə, vətən, doğma yurd və vətənə aid olma şəxsiyyətin identifikasıyası ilə sıx bağlıdır. Əfsaneh Nəjməbadiyə görə, bu ənənə səyahət edən erkən İslam şairlərinin yazılarından başlamışdır. Onlar doğulduqları və böyüdükləri yerlərdən uzaqlaşmağın südəmər körpənin anasından ayrılması kimi ağrılı olduğunu və bu intizarın sonralar da əzab verdiyini öz əsərlərində dəfələrlə təsvir edirdilər [5]. Mənəvi səviyyədə isə sufi poeziyasında, vətən ideyası və doğulduğu yerə qayıtma alleqorik baxımdan "ilahi ilə qovuşma" kimi interpretasiya olunur. Əsrlər boyu klassik və müasir fars ədəbiyyatında "vətən" məfhumunun bu cür təsviri və yozumu iranlılarda vətənə güclü emosional, milli və mənəvi bağlılıq hisslərinin yaranmasına səbəb olmuş, onların böyük qismində "iranlı olmaq" kimi şəxsi identifikasiyanın formalaşmasına zəmin yaratmışdır.

Vətənlə bağlılıq hissinin yaşadılmasının vacibliyi Tara Bəhrampurun "Görmək və yenə görmək", Sitareh Fərman-Fərmaianın "Fars qızı", Nahid Raçlinin "Xarici" və "Xarici ilə nigah", Mənoçöhr Pərvinin "İbn Sina və mən" və s. kimi əsərlərdə xüsusilə qeyd edilmişdir. İngilis dilində yazılmış bu kitablar bir daha sübut edir ki, ana yurda duyulan nostalji hisslər təkcə yaşlanmış birinci nəsil mühacirlərə xas deyil, bu hiss xaricdə yaşayan yeni nəsillərə də aşılanmışdır. Bu cür yanaşmanın mənfi tərəfi mühacirətdə "evsizlik" hissinin yaranmasına, adaptasiyanın çətinləşməsinə səbəb olmasıdır.

Gina Nahainin "İman prospektində ay işığı" romanı Tehranda fanatik bir yəhudi ailəsindən olan, evdən qaçıb varlı bir müsəlmanla ailə quran Roksananın həyatından bəhs edir. Bu izdivacdan Lili adlı qızı doğulur, lakin Roksananın həyatı daha da çətinləşir və o, qızını da tərk edərək ölkədən qaçır. 18 illik həyatının 13 ilini anasının axtarışına sərf edən Lili onu ABŞ-da ölüm ayağında olarkən tapır. Oxucu qəhrəmanın öz vətənində, doğma evində mənəvi təzyiq, etdiyi ayıb işə görə daim "damğalanma" və təcrid olunmağa davam gətirməyərək hər şeyi arxada qoyub qaçmasını, ana ilə qızın yad ölkədə tapışıb yeni həyata başlamasını maraqla izləyir. "Vətənini istədiyin qədər sevə bilərsən, amma bəzən qaçış insanın başına gələ biləcək ən yaxşı işdir..." Bu əsərində müəllif oxucusuna özgə ölkədə "yeni başlanğıc fürsəti"nin və vətəndən uzaqda da şəxsiyyətin identifikasiya imkanı olduğuna inandırmağa çalışır [6].

Dünya ədəbiyyatsevərlərinə tanış olan və əsərləri "bestseller" hesab edilən İran yazıçıları arasında, təbii ki, mühacirətdə yazıb-yaratmışlar çoxdur. Onlardan biri - Mərcanə Sətrapi Rəştdə anadan olmuş, Tehranda böyümüş, yeniyetmə yaşlarında Vyanaya köçmüş və 1997-ci ildə Parisdə məskunlaşmışdır. Hazırda İran əsilli Fransa rəssamı, karikaturaçı, ssenarist və film rejissoru kimi tanınan M.Sətrapinin 1979-cu il inqilabından əvvəl siyasi turbulentlik dövrünə təsadüf edən İran həyatının ağ-qara qrafik romanında təsviri əsasında beynəlxalq miqyasda tanınan "Persepolis" animasiya filmi çəkilmişdir.

İrac Pezeşkzad Tehranda anadan olmuş, İran və Fransada təhsil almışdır. Ədəbiyyata gəlməmişdən əvvəl, aldığı təhsilə uyğun olaraq vəkil və diplomat kimi çalışmışdır. Ədəbi fəaliyyətə keçən əsrin 50-ci illərində qısa hekayələr yazmaq və fransız ədəbiyyatı nümunələrini fars dilinə tərcümə etməklə başlamışdır. 1973-cü ildə yazılmış "Dayı can Napoleon" romanı müəllifə dünya şöhrəti qazandırmışdır. İkinci Dünya müharibəsi dövründə bir həyətdə yaşayan 3 ailənin həyatından bəhs edən bu satirik romanın əsasında eyniadlı teleserial da çəkilmişdir.

Yazıçı Doniya Bican İranı İslam İnqilabı dövründə tərk etmişdir. Kaliforniyada Berkley Universiteti və Parisdə Kordon Bleu İnstitutunda təhsil almışdır. Tehrana qayıdışı onu "Leyla kafesinin son günləri" adlı romanını yazmağa ruhlandırmışdır. Əsərin əsas qəhrəmanı Amerikada böyümüş yeniyetmə qızı ilə birgə uzun illərdən sonra Tehrana atasının yanına qayıdan Nur adlı qadındır. O, İslam İnqilabında anasının itkin düşmə səbəbini öyrənmək istəyir. Amerikan həyatına öyrənmiş yeniyetmə qız Lili üçün İran həyatına uyğunlaşmaq çətindir. 3 nəslin həyatını təsvir edən romanda həm şəxsi, həm siyasi mövzular maraqlı şəkildə təsvir olunur [7].

Türkiyədə doğulmuş Mərcan Kəmali sonralar Keniya, Almaniya, Türkiyə, İran, İsveçrə, Avstraliya və ABŞ kimi ölkələrdə yaşamışdır. Onun bir ana ilə gənc qızı arasında olan münasibətlərə həsr olunmuş "Birlikdə çay dəstgahı" adlanan debüt povesti beş xarici dilə tərcümə edilmiş, bir sıra ədəbiyyat müsabiqəsinin finalçısı olmuş və iki antologiyada çap edilmişdir. "Dərya qızı Minanın 25 yaşı tamam olan gün ona mükəmməl bir hədiyyə – ideal ər tapır. Mina isə anasının illərlə İran-amerikan tələbələr arasından ona adaxlı seçməsindən təngə gəlib. Bu son uğursuz cəhddən sonra ana ilə qız İran səfərinə çıxırlar. Bu səyahət onların bir-birini daha yaxşı anlamalarına səbəb olur" [8]. Müdrik, duzlu-məzəli və şəfqət dolu dialoqlarla zəngin əsər oxucu sevgisi qazanmışdır.

Dina Nayeri İsfahanda doğulmuş 10 yaşında ABŞ-a köçmüşdür. Bakalavr və magistr dərəcələrini Prinston və Harvard universitetlərində almışdır. İlk romanı "Bir qaşıq torpaq və dəniz" adlanır: kiçik yaşlarında anasından və əkiz bacısından ayrı düşmüş Səba adlı qız xəyal gücü və Qərb həyatına sevgisi sayəsində bir çox çətinliyə qalib gəlir. 2017-ci ildə müəllifin "Sığınacaq" adlı əsəri nəşr olunmuşdur.

Mənoçöhr Pərvinin 2003-cü ildə çapdan çıxmış "Dərd e del: Rumi, Hafez and Love in New York" poemasını xüsusilə qeyd etmək istərdik. İranlı tənha professor Piruz özünə qəsd etmək üçün səhraya gəlir və öz problemlərini iki kaktusa danışmağa başlayır. Bu kaktuslar iki dahi şair - Rumi və Hafizin reinkornasiyalarıdır. Professoru fikrindən döndərərək evinə göndərən "şairlər" bu dəfə də müasir Nyu-York sakinlərinə çevrilərək başqalarına kömək etmək qərarına gəlirlər. Müəllif iki möhtəşəm şairin timsalında fars poeziyasını farsdilli olmayan oxuculara mükəmməl yolla tanıtdırmağa çalışmışdır [9].

Azər Nafisi Tehranda anadan olmuş, yeniyetməlik dövründə Avropaya köçmüş, ingilis və amerikan ədəbiyyatı üzrə doktorluq dərəcəsi aldıqdan sonra 1979-cu ildə İrana qayıtmışdır. Tehran universitetlərində öz ixtisası üzrə müəllimlik etmiş, sonralar isə evdə qız tələbələrinə dərs keçmişdir. 1997-ci ildə ABŞ-a qayıtdıqdan sonra "Tehranda Lolitanı oxuyarkən" adlı xatirələrini qələmə almışdır. Müəllif deyir: "Biz bədii əsərdə reallığı yox, həqiqəti dərk etməyi axtarırıq. Güman edirəm ki, əgər bizim İrandakı həyatımızı əks etdirən əsər seçməli olsaydıq, bu, "Miss Jab Brodinin ən yaxşı illəri" və ya "1984" deyil, V.Nabokovun "Edama dəvət", yaxud da ən uyğun gələni "Lolita" olardı". Nafisi İran cəmiyyətini Qərb oxucusuna Qərb ədəbi ənənələrinə uyğun elementləri vasitəsilə təqdim edir və bununla da, İran cəmiyyətini Qərb cəmiyyətinə yaxınlaşdırır, onların fərqlənmədiklərini göstərir.

Qeyd etmək lazımdır ki, bu cür hibrid yazı tərzi həm yeni məskəndə tanınma və ona aid olmanı asanlaşdırır, həm də qürbətdə iranlı olma hisslərinin qorunub möhkəmlənməsinə səbəb olur. İngilisdilli İran mühacirət ədəbiyyatı mədəniyyətlərarası məkanın formalaşmasına təkan verir, İran və Qərb mədəniyyətlərində bir-birindən fərqlənən sosial və siyasi təbəqələr arasında "uzağı yaxınlaşdırmaq", münasibətləri yeniləmək, doğru və yalanları üzə çıxarmaq məqsədini həyata keçirməyə çalışır və müəyyən qədər buna nail olur. Amerika ədəbiyyatının ən tanınmış iranlı nümayəndələrindən olan Pərsis Kərim belə demişdir: "İran mədəniyyəti özünü yeni formalarla ifadə edir. Bununla da, uzun müddət mövcud olan köhnəliyə meydan oxuyub paradiqmaları devirərək, Amerikan mədəniyyətinin formalaşmasında böyük rol oynayır".

## ƏDƏBİYYAT

1. Missaghi Poupeh. "The Literature of the Iranian Diaspora: Meaning and Identity since the Islamic Revolution" By Sanaz Fotouhi
e-mənbə: https://iran.britishcouncil.org/en/underline/literature/review-iranian-literature-in-diaspora
2. The Literature of Iranian Diaspora, a Review by Sanaz Fotouhi e-mənbə:http://www.academia.edu/1556036/Transcultural_Spaces_The_case_of_Iranian_writing_in_English_and_the_process_of_cultural_re-representation?_ga=2.256925327.549804329.1540132964-1582483191.1540132964
3. Zanganeh Lila Azam. "My Sister Guard Your Veil; My Brother Guard Your Eyes". NewYork: Beacon Press, 2006.
4. Kamalipour Yahya. "The TV Terrorist: Media Images of Middle Easterners". Global Dialogue, 2000.
5. Najmabadi Afsaneh. "The Erotic Vatan [Homeland] as Beloved and Mother: To Love, to Possess, and to Protect". Comparative Studies in Society and History, 1997.
6. Memarian Omid. "Women Writers Inject Humanity into Portrayals of Iran"// Inter Press Service English News Wire// 23 September, 2006.
http://www.highbeam.com/doc/1P1-
7. Bijan Donia. "The Last Days of Café Leila". http://www.doniabijan.com/
8. Kamali Marjan. "Tea together". http://www.marjankamali.com/
9. "Greetings from Manocher Parvin". http://mparvin.com/

Рауф Гулузаде

## ИРАНСКАЯ ИММИГРАНТСКАЯ ЛИТЕРАТУРА

РЕЗЮМЕ

Статья посвящена иранской иммигрантской литературе, которая занимает особое место в современной мировой литературе. Тоска по родине, по родному дому, литературный взгляд на разные исторические события являются основными темами. Книга Саназа Фотухина «Литература иранской диаспоры», опубликованная в 2015 году, является ценным источником, напи-санным на английском языке для тех, кто хочет познакомиться с иранской литературой иммигрантов. Англоязычная иранская иммиграционная литера-тура способствует формированию межкультурного пространства, способ-ствует продвижению к взаимопониманию между Западом и Ираном.

Rauf Guluzade

## IRANIAN IMMIGRANT LITERATURE

SUMMARY

The article has been devoted to the Iranian immigrant literature, which occupies a special place in the modern world literature. Homesickness, nostalgic feelings, literary view of various historical events are the main themes. Sanaz Fotouhi's book “The Literature of the Iranian Diaspora : Meaning and Identity since the Islamic Revolution”, published in 2015, is a valuable source, written in English for those who want to get acquainted with the Iranian immigration literature. Iranian immigration literature in English contributes to the formation of intercultural space and furthers comprehension between West and Iran.

# SƏLCUQLU DÖVRÜNÜN YAZILI ABİDƏLƏRİ

***Nailə SÜLEYMANOVA,***
*AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent*

***AÇAR SÖZLƏR:*** *qədim, əsər, nüsxə, əlyazma.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *древний, произведение, копия, рукопись.*
***KEY WORDS:*** *ancient, work, copy, manuscript.*

Azərbaycan Milli Elmlər Akademiyasının Füzuli adına Əlyazmalar İnstitutunda dünya elm və mədəniyyət xəzinəsinin dərin məzmunlu, sanballı əsərləri mühafizə edilir. Əlyazma əsərlərin tədqiqi zamanı onların köçürülmə tarixi tədqiqatlar üçün vacib məsələdir. Tarixi yazılmayan əsərlərdə isə əlyazma əsər mütəxəssislərinin müstəsna xidmətlərindən biri paleoqrafik xüsusiyyətlərinə görə, təqribi də olsa, əlyazmanın tarixinin müəyyən edilməsidir. Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən dünya elm tarixində silinməz iz buraxmış əsərlərin tədqiqatı zamanı Səlcuqlular dövrünün yazılı abidələrinə rast gəldik:

Əslən türk olan Əbu Nəsr İsmayıl ibn Həmmad əl-Cövhəri (v.400/1009) Fərab şəhərində anadan olmuşdur. İlk təhsilini Fərabda dayısı məşhur alim İshaq ibn İbrahim əl-Fərabidən (v.350/961) almışdır. Sonralar isə Əbu Səid əs-Sirafi və Əbu Əli əl-Farisi kimi alimlərin yanında təhsilini davam etdirmək üçün Bağdada getmişdir. Əl-Cövhəri ərəb dilinə daha da dərindən yiyələnmək üçün uzun müddət müxtəlif ərəb məmləkətlərində yaşamışdır. O, Şimali İraq, Hicaz və Suriyadakı qəbilələrdə olmuşdur. Bu elmi səyahətlərdən sonra alim Bağdada geri dönmüşdür. Bağdadda çox qalmayan əl-Cövhəri Xorasan bölgəsinin ən böyük elm şəhəri olan Nişapura gəlmiş, ömrünün sonunadək bu şəhərdə tədris və təhsil ilə məşğul olmuşdur. Məhz alim bu şəhərdə özünün ən məşhur əsəri olan "Tacul-lüğa və sihah əl-arabiyya" adlı əsərini yazmışdır. Əbu Səhl Məhəmməd ibn Əli ibn Məhəmməd əl-Hərəvi, İsmail ibn Məhəmməd ibn Əbdüs əd-Dəhhan və Əbu İshaq İbrahim ibn Salih əl-Vərraq əl-Cövhəri tərəfindən yetişdirilən, onun lüğətinin istinsah edilib yayılmasına yardım edən tələbələridir [1, c. VII, s. 458].

Füzuli adına Əlyazmalar İnstitutunda Əbu Nəsr İsmayıl ibn Həmmad əl-Cövhərinin "Tacu əl-lüğa və sihah əl-arabiyya", qısaca "əs-Sihah" adlandırılan əsərinin birinci və ikinci cildinin Səlcuqlular dövrünə aid bir nüsxəsi mühafizə edilir. Əlyazma qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan ahərlənmiş noxudu rəngli kağızda yazılmışdır. Vərəqlər bərpa olunmuşdur. Fəsillərin adı mətnə nisbətən daha iri hərflərlə, qalın qara rəngli mürəkkəblə qeyd olunmuşdur. Cildi yeni olan əlyazmanın həcmi 233 vərəq olub, 23x30sm ölçüdədir.

Əlyazmanın katibi və bu nüsxə haqqında məlumat birinci cildin sonunda yazılmışdır. Mətndən aydın olur ki, bu əlyazmanın birinci cildi katib Əli ibn Əbdülcəlil ibn Əli ibn Məhəmməd hicri 510-cu (m.1116/1117) ilin ramazan (yanvar) ayında Bağdadda köçürtmüşdür. Katibin bu nüsxəni əl-Cövhərinin tələbəsi Əbu Səhl Məhəmməd ibn Əli ibn Məhəmməd əl-Hərəvinin şəxsi nüsxəsindən köçürtdüyü haqqında da məlumat yazılmışdır. Həmçinin mətndə qeyd olunmuşdur ki, əl-Hərəvi öz nüsxəsini müəlliminin avtoqraf nüsxəsindən köçürtmüşdür. İkinci cild isə hicri 511-ci (m.1117) ildə rəbiülaxir (iyun) ayında köçürülmüşdür.

Bu lüğət dörd cilddir. İnstitutda isə onun ancaq iki cildi qorunmaqdadır və burada mühafizə edilən ən qədim yazılı abidədir. Əsərdə fərqli xətlə, ərəb dilində nüsxənin Dağıstanın məşhur dilçi alimi, şairi və qazısı Məhəmməd Şafii Dibir Qadi əd-Dağıstani əl-Avari əl-Taltiyə (v.1817) məxsus olduğu, Şamdan alındığı və Dağıstanın Mahaçqala şəhərinin ərəbdilli əlyazma kitab xəzinəsindən olduğu haqqında qeyd vardır. Bu qeydi oxuduqdan sonra Dağıstandakı əlyazma əsərləri internet vasitəsi ilə araşdırdıq və "Tacul-lüğə və sihah əl-arabiyya" əsərinin eyni dövrdə, eyni katib tərəfindən köçürülən III cildinin nüsxəsini tapdıq. Bu əlyazma nüsxəsi Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun Şərq əlyazmaları fondunda mühafizə edilir. Nüsxənin təsvirində bu nüsxənin Əli ibn Əbdülcəlil ibn Əli ibn Məhəmməd tərəfindən hicri 510-cu (m.1116/1117) ilin ramazan (yanvar) ayında Bağdadda əl-Cövhərinin tələbəsi Əbu Səhl Məhəmməd ibn Əli ibn Məhəmməd əl-Hərəvinin şəxsi nüsxəsindən köçürtdüyü haqqında eyni mətnli qeyd vardır. Dağıstanda mühafizə edilən əsərin IV cildi isə hicri 512-ci (m.1118) ilin rəbiüləvvəl (iyun) ayında Nizamiyyə mədrəsəsinin müəllimi Əbulmənsur əl-Cəvaliki əl-Bağdadinin iştirakı ilə orijinal nüsxə ilə tutuşdurularaq eyni katib tərəfindən köçürülmüşdür [2]. Əlbəttə ki, əldə edilən bu məlumat çox vacib bir məlumat olub, Azərbaycan və Dağıstan arasında illər boyu dostluq və elmi mübadilələrin olduğuna bariz nümunədir. Əlyazmalar İnstitutunda lüğətin daha sonrakı dövrlərdə köçürülmüş nüsxələri və Məhəmməd ibn Əbu Bəkr ər-Razi tərəfindən yazılmış müxtəsəri də qorunmaqdadır.

Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli ibn Sina (v.428/ 1037) orta əsrin ən böyük təbiblərindən biridir. Buxara yaxınlığında dünyaya göz açmış alim qısa ömründə böyük titullar qazanmışdır: Höcətülhaqq, Şeyxülrəis, Şərəfülmülk (ölkənin ən şərəfli insanı) və s. Onun ən məşhur əsəri "Kitab əl-qanun fi ət-tibb" əsəri XII yüzillikdə latın dilinə tərcümə edilmişdir. Bu əsər uzun müddət Şərq və Avropa tədris ocaqlarında yeganə tibb dərsliyi kimi istifadə edilmişdir. Kitabda insan anatomiyasından tutmuş, bir çox xəstəliklərin səbəbləri, müalicə və profilaktikası, həmçinin daxili xəstəliklər, göz və dəri, uşaq xəstəlikləri haqqında məlumatlar, cərrahi metodlar, müxtəlif məsləhətlər və s. verilmişdir. Bu əsərin ən qədim nüsxəsi Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir. Abidə süls elementli nəsx xətti ilə Səlcuqlular dövründə hicri 537 (m.1142) Bağdadda yazılmışdır. Başlıqlar əsas mətnə nisbətən böyük hərflərlə qeyd olunmuşdur. Kağızı aharlənmiş Şərq istehsalı olub, krem rənglidir. Əlyazma əsərin ikinci cildidir. Ölçüsü 17x24 sm olub, həcmi 380 vərəqdir. Cildi yenidir.

“Kitab əl-qanun fi ət-tibb” əsərinin ikinci cildinin digər nüsxəsi isə təqribən XIII əsrin ilk illərində köçürülmüşdür. Abidənin titul vərəqində vəqf tarixi hicri 657-ci (m.1259) il tarixi qoyulmuşdur. Hətta bu tarix ilə abidənin Səlcuqlular dövrünə aid olduğu aydındır. Əlyazma Şərq istehsalı olan qalın noxudu rəngli kağızda yazılmışdır. Xəstəliklərin adları qırmızı mürəkkəblə qeyd edilmişdir. Ölçüsü 24x31 sm olub, həcmi 542 vərəqdir.

Hüccətül-İslam Əbu Hamid Məhəmməd ibn Məhəmməd əl-Qəzali ət-Tusi (v. 501/1111) Səlcuqlular dövründə yaşamış, dünya elm aləminin ən məşhur simalarından biridir. O, öz istedadı və çalışqanlığı nəticəsində ilahiyyat elmlərinə dərindən yiyələnərək İslam alimi, sufi və filosof olmuşdur. Daha çox İmam Qəzali adı ilə məşhur olan alim müxtəlif elm ocaqlarında dərs verməklə yanaşı, dəyərli elmi əsərlərin müəllifi kimi şöhrət tapmışdır. Onun zəngin və çoxşaxəli elmi irsindən ədəbiyyat, kəlam, məntiq, İslam şəriəti, təsəvvüf və fiqh sahəsində yazdığı əsərləri günümüzə qədər gəlib çatmış və mühüm mənbələr kimi istifadə edilməkdədir [3]. Füzuli adına Əlyazmalar İnstitutunda Qəzalinin ən çox oxunulan və sevilən əsərlərindən biri olan “İhyəu ulum əd-din”in nüsxələri mühafizə edilir. Bu nüsxələrdən biri hicri 603-cü (m.1206) ildə köçürülmüşdür. Bu nüsxəyə əsərin ancaq üç bölməsi daxil edilmişdir. Əlyazma qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan kağızda yazılmışdır. Abidə ciddi nəm çəkdiyi üçün kağızın rəngi dəyişmişdir. Ölçüsü 16x19 sm olub, həcmi 212 vərəqdir.

Əsərin institutda mühafizə edilən digər nüsxəsi qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan kağızda yazılmışdır. Abidə ciddi nəm çəkdiyi üçün kağızın rəngi dəyişmişdir. Ölçüsü 17x25 sm olub, həcmi 131 vərəqdir. Paleoqrafik xüsusiyyətlərinə görə XII əsrdə - Səlcuqlular dövründə köçürülmüş nadir nüsxədir.

Səlcuqlular dövrünə aid yazılı abidələrimizdən ən dəyərli nüsxələr Qurani-Kərim nüsxələridir. İslamın yayıldığı bölgələrdə Qurani-Kərim nüsxələri xüsusi bacarıqlı və istedadlı xəttat, müzəhhib və cildçilər tərəfindən hazırlanırdı. Əlyazmalar İnstitutunda Qurani-Kərimin 200-dən çox tammətnli, nəfis tərtibatlı nüsxələri mühafizə edilir. Onların arasında ən qədimi paleoqrafik xüsusiyyətlərinə görə XII əsrdə hazırlanan nüsxədir. Nüsxə Şərqdə, daha dəqiq desək, Səmərqənddə hazırlanan noxudu rəngli ahərlənmiş kağızda gözəl nəsx xətti ilə yazılmışdır. Abidə böyük ustalıqla “halkar” adlanan ancaq parlaq qızıl rənglə təzhiblənmişdir. Türk təzhib sənəti Anadolu Səlcuq dövlətinin dövründə (1075-1157) ortaya çıxmışdır. XII-XIII əsrlərdən başlayaraq isə parlaq təzhiblərə digər rənglər, daha çox isə tünd mavi rənglər əlavə edilməyə başlanılmışdır. Bizim təsvir etdiyimiz Qurani-Kərim nüsxəsində cüz, hizb, səcdə yerlərinə işarə etmək üçün təzhiblənən qızılı rəngli gül motivlərində tünd mavi rənglərə rastlanır. Surələrin əvvəlində nazil olduğu yer, hərflərin, kəlmələrin və ayələrin sayı, daha sonra isə surənin oxunmasının mükafatı haqqında Həzrət Məhəmməddən (s) rəvayət olunan hədis yazılmışdır. Son on üç səhifədə isə Qurani-Kərimin oxunuşunda riayət edilən təcvid qaydaları barədə məlumat verilmişdir.

Abidənin son səhifəsində vəqf haqqında qeyd yazılmışdır. Qeyddən aydın olur ki,

bu Qurani-Kərim Şirvan əyalətinin sakini Rəhim bəy Zərdabi ibn Məlik tərəfindən Zərdab mahalının Məlik kəndinin sakini Əli Əhməd əfəndi ibn Şəfiiyə nəsildən-nəslə keçməsi üçün vəqf edilmişdir. Rəhim bəy Zərdabi ibn Məlik Azərbaycanın böyük maarifçi ziyalısı, naşiri və pedaqoqu Həsən bəy Zərdabinin babası olmuşdur.

Bir sözlə, Füzuli adına Əlyazmalar İnstitutunda Səlcuqlular dövründə yaşayıb-yaratmış müxtəlif elm sahələrində öz əsərləri ilə seçilən alimlərin, əsərlərinin əlyazma nüsxələri qorunmaqdadır. Köçürülmə tarixi baxımından xüsusi maraq doğuran bu əsərlər dünya elm xəzinəsinin zəngin irsi olduğu kimi, Azərbaycan elm tarixinin öyrənilməsi üçün də tutarlı mənbələrdir.

## ƏDƏBİYYAT


1. İslam Ansiklopedisi. VII cilt. İstanbul 1993.
2. www.islamdag.ru
3. http://filozof.net/Turkce/filozof-biyografi-

Наиля Сулейманова

## ПИСЬМЕННЫЕ ПАМЯТНИКИ СЕЛЬДЖУКСКОГО ПЕРИОДА

РЕЗЮМЕ

Различные рукописи, хранящиеся в Институте им. Физули НАНА, являются важными источниками для изучения истории азербайджанской науки. Они представляют собой ценные произведения, переписанные в различные годы в научных центрах как Ближнего и Среднего Востока, так и Азербайджана. Во время исследования мы столкнулись с древними копиями этих работ, которые были переписаны в период сельджуков. Эти произведения, охватывающие различные области науки, являются богатой страницей в истории нашего народа. В статье рассматриваются данные рукописи.

Naila Suleymanova

## WRITTEN MONUMENTS OF THE SELJUKS PERIOD

SUMMARY

Manuscripts in various contents, which are preserved in the Institute of Manuscripts Named after Fuzuli, are important resources for studying the history of Azerbaijani science. These are valuable works copied in different years in scientific centers of the Middle and Near East, as well as Azerbaijan. While researching we encountered ancient copies that belong to the Seljuks period. These works cover different scientific fields and have a resplendent page in our nation's history. This article is about all these manuscript monuments.

# ERMƏNİLƏRİN NAXÇIVANDA TÖRƏTDİKLƏRİ SOYQIRIMINA DAİR BƏZİ TARİXİ ƏLYAZMA SALNAMƏLƏRİ

***Səbuhi İBRAHİMOV,***
*AMEA-nın Naxçıvan Bölməsi,*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*ibrahimov71@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, Naxçıvan, əlyazma, mətn, tarix, "Qanlı sənələr", Məmməd Səid Ordubadi.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, Нахчыван, рукопись, текст, история, «Кровавые годы», Мамед Саид Ордубади.*
***KEY WORDS:*** *Azerbaijan, Nakhchivan, manuscript, text, history, "Bloody years", Muhammed Said Ordubadi.*

Mətnşünaslıq yalnız ədəbiyyat tarixi üçün deyil, eyni zamanda mədəniyyət tarixi üçün də böyük əhəmiyyət daşıyan zəngin elmi sahəni əhatə edir. Belə ki, Naxçıvana dair əlyazmaların filoloji-tekstoloji tədqiqi (XIX əsrin axırı – XX əsrin əvvəlləri), obyektiv şəkildə öyrənilməsi, klassik mətnlər üzərində aparılan elmi-paleoqrafik xüsusiyyətlərin dəqiqliyindən az asılı deyildir. Buna görə də, klassiklərin Naxçıvana dair əlyazma abidələrinin ayrı-ayrı yüzilliklərdə yaratdıqları əsərlərin elmi mətnlərini düzgün tərtib və müəlliflərinə mənsub etmək, hər şeydən əvvəl, ədəbiyyat və mədəniyyət tarixinin düzgün öyrənilməsi deməkdir. Bu da Naxçıvan əlyazmalarının mətnşünaslıq elminə verdiyi əhəmiyyəti səciyyələndirən başlıca amildir.

Azərbaycan mətnşünaslığının müstəqil elm sahəsi kimi tarixi azdır. Ola bilər ki, bu baxımdan Naxçıvana dair əlyazma mətnlərinin filoloji və tekstoloji təhlili indiyədək aparılmamışdır. Buna görə də, tədqiqatımız bu sahədə ilk addımdır. Belə ki, Naxçıvan tarixi və mədəniyyəti aspektindən yanaşdığımız Məmməd Səid Ordubadinin "Qanlı sənələr" adlı əlyazması ilkin tarixi material kimi qarşıya məqsəd qoyulmuşdur.

XX əsrin əvvəllərində Naxçıvanda baş verən qanlı hadisələrin şahidi kimi, M.S.Ordubadi özünün "Qanlı sənələr" kitabını yazmışdır. Müəllifin özü də qeyd edir ki, "Bunları isə gizlətmək peyğəmbərimizin lənətinə giriftar olmaq kimi Allaha xoş gəlməyən bir işdir..." [1, s. 9]. Müəllif baş verən qanlı hadisələrin canlı şahidi olaraq gördüklərini və eşitdiklərini xalq ziyalısı kimi qələmə almışdır. Kitabda ermənilərin təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda törətdikləri qanlı hadisələrdən bəhs olunur: "Ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər... Qafqazın gözəl şəhərləri dağıdılıb

yandırılıb, yurdlarımız qan çalasına döndərildi. Bunlara şahid Naxçıvan uyezdinin naçalniki Angil kimi vicdansızların fitnəkar hərəkətləridir. Belə ki, yanan atəşləri söndürməyib, əksinə, caniləri bir sıra cəmiyyətlərə sövq edirdi. Bunları izah üçün bir mübahisə yeri qalmamışdır. Zira Naxçıvan hadisəsində layiqincə söylənilmişdir. Məncə, bunları gizlətmək hər iki millətin istiqbal təşəbbüsünü zaye və xələldar edər. Angil naçalniklərinin lənətəlayiq hərəkətləri nəticəsində Naxçıvanda ermənilər qəzəbə gəlib məğlub edildi. Məğlub olub da, sonrasında Krılov kimi kazak komandaları kazakları ermənilərlə əlbir edib, müsəlman dükanlarını yandırmaqla müsəlmanları canlarından əziz olan mallarından məhrum etdi" [2, s. 8-9].

M.S.Ordubadinin bu kimi qeydlərindən olduqca əhəmiyyətli tarixi həqiqətlər aydın olur. Məlum olur ki, Naxçıvanda yerləşdirilmiş kazak dəstələri, başda komandirləri Krılov olmaqla, ermənilərlə birləşib müsəlmanlara qarşı qanlı qırğınlar törətmişlər. Bu faktlar o dövrün başqa sənədlərində də öz əksini tapmışdır.

M.S.Ordubadinin əlyazmasında 1905-1906-cı illərdə Naxçıvanda baş verən qanlı hadisələr təfsilatı ilə öz əksini tapmışdır. Müəllif hadisələri elə əks etdirir ki, oxucu həmin qeydləri həyəcansız oxuya bilmir: "1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idi. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan, müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdə də belə hallar hər dəqiqə gözlənirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira ermənilərin rəyincə, "bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın" - deyib, hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar. O zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər" [3, s. 18]. "Əlyazmadakı bu qeydlərdən məlum olur ki, Azərbaycanın hər hansı nahiyəsində baş verən siyasi hadisələr, istər-istəməz başqa nahiyəyə də təsir edir, əhalinin əhval-ruhiyyəsini dəyişirdi" [4, s. 242].

Müəllif əlyazmada hadisələri xronoloji qaydada inkişaf etdirərək yazır: "Yenə həmin gecə, yəni may ayının 11-də ermənilər bütün şəhəri (Naxçıvanı – İ. S.) atəşə tutdular. İki saat yarım müddətdə şəhərdə beşaçılan tüfənglərin sədası, alov və tüstüdən savayı bir başqa iş nəzərə gəlməz idi... eşikdə dəhşətli külək əsirdi. Heç aram tutmayaraq divarlara güllələr dəyməkdə idi. O gecəni müsəlmanlar qarışıq xəyallar ilə cəhənnəm guşəsi olan yataqları içində qovrula-qovrula sübh etdilər. Səhər tezdən, ayın 12-də yenə vitse-qubernatora şikayətə gəldilər və gecənin atışmasını deyib, əncam çəkməsini tələb etdikdə "əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız" – cavabını aldılar. Qubernator bir də "mən bilmərəm" – deyib camaatı qaytardı. O halda gözü qızmış ermənilərdən və özünü itirmiş müsəlmanlardan bir nəfər olmadı

söyləsin ki, "cənab qubernator, bəs buraya nə üçün təşrif gətiribsiniz?" [3, s. 20]. Əlyazmadakı bu qeydlərdən məlum olur ki, çar Rusiyası da milli münaqişənin qızışmasında maraqlı idi və Naxçıvan diyarı üçün cavabdeh olan qubernator milli münaqişənin qarşısını almaq üçün heç bir tədbir görmürdü, əksinə, yerli kazaklar erməniləri əl altından silahlandırırdılar.

Hətta qubernatorun özü qanlı münaqişə üçün zəmin yaradırdı: "Həmın gün şəhər ətrafı qorxulu olduğundan, Naxçıvan camaatı və iranlı fəhlələr – hamı şəhərdə və bazarda idilər. Ona görə iranlı fəhlələr qubernatorun sözünə əməl edərək, ermənilərdən bir sıra açılan şeylər zəbt etməyə başladılar. Saat on radələrində bir dəstə erməni fədailəri bazarın başında durub, ayaq tərəfdə olan müsəlmanları güllə-baran etməyə başladılar... bu müharibədə müsəlmanlardan 5 nəfər öldü və bir neçəsi yaralandı" [1, s. 20]. Əlyazmadakı bu qeydlərdən məlum olur ki, həmin dövrdə Naxçıvanda İran əsilli fəhlələr də olmuşdur. Ancaq nədənsə İran dövləti onların təhlükəsizliyi barədə düşünməmişdir. Əhalinin erməni təhlükəsi altında olduğunu bilə-bilə onları heç silahlandırmağa da cəhd etməmişdir. Baxmayaraq ki, ermənilər təkcə yerli əhalini deyil, müsəlman olan bütün camaatı öldürürdü. Elə əlyazmanın özündə də həmişə "müsəlman" sözü işlənir. Burada müharibə, sözün həqiqi mənasında, ermənilərlə müsəlman əhalisi arasında idi. Müsəlmanlar sırasında həm də qeyri-azərbaycanlılar var idi: iranlılar, kürdlər və s. erməni cəlladları onları da qətlə yetirirdi.

M.S.Ordubadi əlyazmasında bir naxçıvanlı kimi gözləri qarşısında doğmalarına, həmyerlilərinə qarşı olan ədalətsizliyi ürək ağrısı ilə qələmə alırdı: "Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, nə hökumət, nə filan sidq ilə belə işləri yoluna qoymaq fikrində deyildi" [1, s. 21]. Qeyd etmək lazımdır ki, qeyrətli naxçıvanlılar qarşısında ermənilər də özlərini təhlükədə hiss edirdilər və hər vasitə ilə münasibətləri sahmana salmağa çalışırdılar: "Noyabrın 26-na qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində, dəfələrlə, sülh edib bir-biri ilə əl-ələ vurdular. Axırda yenə bu sülh hər iki tərəfə ədavətdən başqa bir səmər vermirdi. Necə ki, hər saatda bu iki tayfanın arasında yeni bir ədavətin ortaya çıxacağı gözlənilirdi" [1, s. 21]. Əlyazmadakı bu qeydlərdən məlum olur ki, xalq dövlət tərəfindən ədavətin qızışdırılmasına qarşı tədbirlər görür. Bu siyasət o vaxt çar Rusiyasının "parçala, hökm sür" siyasi xəttinin davamı idi.

M.S.Ordubadi hadisələrin xronikasını davam etdirərək baş verən hadisələrdən bəhs edərək yazır: "Noyabrın 26-da birdən-birə camaat bir-birinə dəyib tələm-tələsik dükanlarını bağlayıb evlərinə qaçdı... Bu gün kazaklar sülh və asayişi təmin etmək üçün Çeşməbasar kəndinə gedərkən hacı Nəsir hacı Nağı oğlunun evini qarətə başlamışlar. Bu vaxt qabağa durub mane olmağa çalışan hacının bir zavallı oğlunu öldürmüşlər. Müsibətə düçar olmuş hacı oğlunu qana bulanmış görərkən çaşıb bir güllə kazaklara atmış, elə buna görə onun ailəsi biədəblər tərəfindən qətl edilmişdir. Bu xəbər Naxçıvan camaatını nəhayət dərəcədə pərişan etmişdir. Zira bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və naçalnik Angillər idi. Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi.

Həmən gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar. Həqiqətən də, o gecə atəşli, ürək dağlayan, yanğılı bir gecə idi. Həmən gecə yeddi radələrində böyük bir dəhşətli sədalar eşidildi. Məlum olduğu kimi, həmən səs bazar qaravullarının səsi imiş. Hərdən bir beşaçılan sədaları da eşidilirdi. Camaat evlərindən çıxıb bazara girmək istəsələr də, kazaklar hər tərəfdən atəş açıb mane olurdular" [1, s. 21].

Tarixi sənəd xarakteri daşıyan bu əlyazma həm də tarixin ibrət dərsləridir. Müəllif həmin hadisələri saat dəqiqliyi ilə verməklə xalqımızın həmişə ayıq-sayıq olmasını, dostu ilə düşmənini tanımasını istəmişdir. Sonrakı qeydlərdən məlum olur ki, Naxçıvanda olan gürcülər yerli əhaliyə yardım etmək istəmişlər: "Bu vaxt dəmir yol vağzalında olan insanpərvər gürcü qardaşlardan müsəlmanların köməyinə gəldilərsə də, artıq iş-işdən keçmişdi (Allah onlardan razı olsun). Sübhə kimi bazar tamam yanıb kül oldu" [2, s. 22]. Bu qeydlərin də olduqca böyük tarixi əhəmiyyəti var. İlk baxışdan gürcülər də xristiandır və çar Rusiyasının murdar siyasətini dəstəkləyib kazaklarla birlikdə müsəlmanlara qarşı qətllər törədə bilərdilər. Ancaq onlar qonşu xalqlara qarşı rusların əlində alətə çevrilmədilər və bölgənin milli maraqlarına xəyanət etmədilər. Ermənilər isə öz xəyanətkar xislətləri ilə bunları çox asanlıqla etdilər.

XX əsrin əvvəllərinə dair əlyazma mətnlərindən biri də Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" adlı gündəliyidir. Bu əlyazma 1918-1920-ci illərdə Naxçıvanda baş verən siyasi hadisələrin xronologiyasını əks etdirən olduqca sanballı elmi mənbədir. Əsərdə Naxçıvanda baş verən siyasi hadisələr, xüsusilə erməni vəhşilikləri konkret faktlarla verilir. Əski əlifbada yazılan əlyazmanı professor T.Quliyev 1993-cü ildə transliterasiya edərək Kiril əlifbası ilə dövlət nəşriyyatında "Qanlı günlərimiz" adı ilə çap etdirmişdir. Kitabın redaktoru H.Əlibəyli yazır: "Əsərdə türklərin Naxçıvana köməyə gəlməsi, İran, Rusiya, İngiltərə, Fransa, Amerika dövlətlərinin Naxçıvanda baş verən hadisələrə müdaxilə etmələri, həmçinin naxçıvanlıların düşmənə qarşı mərdlik və qəhrəmanlıqla vuruşmaları günbəgün, saatbasaat təsvir olunur. Əsərin bir əhəmiyyəti də ondadır ki, bu əlyazma bizə tariximizin ən qaranlıq səhifələri haqqında dəqiq məlumatlar verən mənbələrdən biridir" [5, s. 4].

Əlyazma müqəddimə və "Ərzi-məqsəd" adlanan xüsusi proloqla başlayır. Müəllifin "Müqəddimə"dəki qeydlərindən məlum olur ki, o, 1905-ci ildə olan qanlı Naxçıvan hadisələrindən xəbərdardır və gündəliyinə yazdığı hadisələr 1917-ci il 21 dekabr tarixindən sonrakı dövrü əhatə edir: "1917 miladidə 21 dekabrdan etibarən Naxçıvan erməni-müsəlman millətlərinin arasında sərzadə zühur edən və hər iki millətin tarixinə bir xətti-yadigar çəkdirən vüquat... Etiraf etməliyik ki, 1905-ci ildə may ayının 12-ci günü Naxçıvanda erməni-müsəlman davası qopmuşdur... Gündə bir iki nəfər müsəlmanlardan qətlə yetirib 1905-ci tarixdə üz verən... qanlı sənənin intiqamını alıb Naxçıvan və həvalisində milləti-islamı məhv edib istiqlaliyyət ilə yaşamaq fikrinə düşdülər" [6, s. 5-7].

Belə qənaətə gəlmək olar ki, Azərbaycan xalqı üçün lazım olan hər bir mətn nümunəsi Naxçıvanın mədəni həyatına dair əlyazmaların zənginliyinə gətirib çıxarır. Bütün Azərbaycanda

olduğu kimi, Naxçıvanda da XX əsrin 20-ci illəri olduqca qanlı-qadalı olmuşdur və M.S.Ordubadinin "Qanlı sənələr" əsəri, Mirzə Bağır Əliyevin "Qanlı günərimiz" adlı gündəliyi məhz bu illərə dair ən qiymətli əlyazmalardandır. Hər iki müəllif baş verən qanlı hadisələrin canlı şahidi kimi gördüklərini və eşitdiklərini xalq ziyalısı kimi qələmə almış, gələcək nəsil üçün bir örnək olsun deyə əbədiləşdirmişdir.

## ƏDƏBİYYAT


1. Ordubadi M.S. Qanlı sənələr. Bakı: Səda, 1911, əski əlifbası. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, saxlanma vahidi: XVI-1359/5582 və X-836/5815.
2. Ordubadi M.S. Qanlı sənələr. Bakı: Səda, 1911, əski əlifbası. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu.
3. Ordubadi M.S. Qanlı illər. (çapa hazırlayan Ə.Bağırov). Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 s.
4. İbrahimov S.M. Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri. Bakı: Elm və təhsil, 2017, 336 s.
5. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 142 s.
6. Əliyev M.B. Qanlı günlərimiz. 1918, əlyazması, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr: B-3337/22389.

Сабухи Ибрагимов

## НЕКОТОРЫЕ ИСТОРИЧЕСКИЕ ЛЕТОПИСИ О СОВЕРШЕННЫМ АРМЯНАМИ ГЕНОЦИДЕ В НАХЧЫВАНЕ КОНЦА XIX-НАЧАЛА XX ВЕКОВ

### РЕЗЮМЕ

В статье проведен философский анализ произведения Магаммед Саида Ордубади «Кровавые годы» и изучена его книга, напечатанная в 1911 году в издательства «Сэда». Так, в данном произведении нашли отражение подробности кровавых событий, происходивших в Нахчыване в 1905-1906 годах. Из основных заметок рукописи становится известно, с какими несправедливостями встречалось население Нахчывана в начале XX века, какие трагедии выпали на его долю, как попирались права людей, подвергавшихся на государственном уровне дискриминации по национальному признаку.

Рукописи, являясь одним из ценных источников сокровищницы культуры, играют беспримерную роль в просвещении современников, в донесении до них истории прошлого в литературной форме. С этой точки зрения одной из важных задач, стоящих перед нами, является исследование и обнародование произведений азербайджанских мыслителей-классиков, в том числе писателей и поэтов Нахчывана.

Sabuhi Ibrahimov

## SOME HISTORICAL CHRONICLES ABOUT THE PERFECT ARMENIANS GENOCIDE IN NAKHCHIVAN OF THE END OF THE XIX-BEGINNING OF THE XX CENTURIES

### SUMMARY

The philosophical analysis of Muhammed Said Ordubadi's work of "Bloody Years" is carried out in this paper, and his book, published in 1911 by the "Seda" Publishing House is studied. Thus, in this work are reflected the details of bloody events that took place in Nakhchivan in 1905-1906. It becomes known from the main manuscript notes what injustices the population of Nakhchivan encountered at the beginning of the 20th century, what tragedies fell on their lot, how the people's rights were violated, and they were nationally discriminated on the state level.

Manuscripts as one of valuable sources of culture treasury play an unprecedented role in enlightening contemporaries, in conveying to them the past history in literary form. From this point of view, one of our important tasks is the research and publication of works of Azerbaijani classics and thinkers, including writers and poets of Nakhchivan.

# ORTA ƏSRLƏR DÖVRÜNDƏ NAXÇIVANDA BAZARLARIN İNKİŞAFI

***Sara HACIYEVA,***
*AMEA-nın Naxçıvan bölməsinin Tarix,*
*Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*hacyevasara@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *Naxçıvan bölgəsi, bazar münasibətləri, iqtisadiyyat, ticarət əlaqələri.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Нахчыванский регион, рыночные отношения, экономика, торговые связи.*
***KEYWORDS:*** *The Nakhchivan region, market relations, economy, commercial relations.*

Qədim dövrlərdən başlayaraq şərqin əksər şəhərlərində bazarlar fəaliyyət göstərmişdir. Orta əsrlər dövründə isə ticarət üçün beynəlxalq pul sistemi nə qədər aparıcı təsisat rolu oynayırdısa, bazarlar da o dərəcədə təcrübi əhəmiyyətli, həm də zəruri fəaliyyət məkanı idi. O dövrdə bazar şəhərin əsas göstəricilərindən biri sayılırdı. IX-X əsr ərəb coğrafiyaçıları istənilən iri yaşayış məntəqəsini xarakterizə edərkən, onun “şəhər” olaraq təyini üçün əsas əlamətlərdən biri kimi bazarın mövcudluğunu göstərirdi [1, s. 165]. Müsəlman şəriət qanunlarına görə, bazarda ticarətlə məşğul olmaq dindar üçün məqbul və savab əməl hesab edilirdi. Həmçinin İslam dininə görə, “Bazar – Tanrının açdığı süfrədir və hər gələn buradan öz payını götürür”, “Bazar – Şeytanla cihad etmək üçün bir məkandır” deyə söylənilmişdir [2, s. 139].

Bəhs olunan dövrdə Naxçıvanda sənətkarlığın, kənd təsərrüfatının inkişafı ticarətin genişlənməsinə və bölgədə yeni bazarların meydana gəlməsinə şərait yaratmışdır. Tarixin müxtəlif dövrlərində olmuş bir çox müharibələr dəfələrlə buradakı digər maddi mədəniyyət nümunələri kimi ticarət məkanlarının– bazarların da dəfələrlə yerlə yeksan olunmasına səbəb olmuşdur. Lakin Naxçıvanın əlverişli coğrafi mövqeyi, onun Şərqdən Qərbə və əksinə gedən ticarət yollarının üzərində yerləşməsi burada çoxsaylı karvansaraların, məscidlərin, bazarların tikilməsinə səbəb olmuş və zaman-zaman dağıdılan mədəniyyət və ticarət obyektləri yenidən bərpa edilmişdi. Dövrün digər tikililəri ilə yanaşı ticarət mərkəzlərinin (Rasta və Çarşı bazarların) tikilməsi şəhərlərin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Müxtəlif ticarət yollarının kəsişdiyi şəhərdə çoxlu sayda bazarlar, dükanlar, sənətkar emalatxanaları və s. iqtisadi baxımdan əhəmiyyətli obyektlər var idi ki, onlar sənətkarlıq, kənd təsərrüfatı və ticarət mallarının alqı-satqısını genişləndirirdi. Qeyd edək ki, bazar bütün növ məhsulların satışı və alışı üçün əlverişli olduğundan sənətkarların da çox hissəsinin əsas iş yerləri bazarlarda yerləşmişdi.

Naxçıvan bazarları böyük və izdihamlı olurdu. O dövrdə Naxçıvan özünün məhsuldar

bazarları ilə şöhrət tapmışdı. Ölkənin digər yerlərində olduğu kimi Naxçıvan şəhərində də alver pərakəndə və topdansatış ticarəti şəklində aparılırdı. Topdansatış ticarətlə əsas etibarilə iri və gəlmə tacirlər məşğul olurdular. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi. Bazarlarda Çindən, Misirdən, İrandan, Türkiyədən, Hindistandan, İraqdan, Orta Asiyadan gətirilmiş müxtəlif növlü mallarla yanaşı, azərbaycanlı sənətkarlar tərəfindən yüksək zövqlə hazırlanmış əşyalar – saxsı və mis qablar, xalçalar, parçalar, zərgərlik məmulatları və s. satılırdı. Naxçıvan bazarlarında yerli ustaların hazırladıqları gümüş, mis, saxsı qablar, zərif parçalar, o cümlədən qanovuz, atlas, zərbaft, tafta, cavahir, çit, silah, bəzək əşyaları ilə yanaşı, xarici tacirlərin gətirdikləri mallar da satılırdı [3, s. 112].

Rus müəllifi V.Qriqoryevin verdiyi məlumata görə, Naxçıvan şəhər bazarı üstü qamışla örtülmüş kiçik daş dükanlardan ibarət olmuşdur [4, s. 68-69]. Avropa səyyahlarının məlumatına görə, Naxçıvan şəhərində üstüörtülü küçələrdə ticarət cərgələri təşkil edilir, müxtəlif yerli və gətirilmə mallar satılırdı. Naxçıvan bazarlarında intensiv ticarət gedirdi. J.Şardenin qeyd etdiyi kimi, "uzun və üstüörtülü küçələrin hər iki tərəfində köşklər qurulur, müxtəlif sənətkarlıq və ərzaq məhsulları satılırdı. Orada böyük bazarlar deyilən hər iki tərəfi müxtəlif cür mal və yeyinti məhsulları satılan dükanlarla dolu qalereyalardan, yaxud örtülü küçələrdən ibarətdir. Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır" [5, s. 20, 45].

Yaşlı əhalinin verdikləri məlumatlarla Şardenin məlumatları üst-üstə düşür. Əhali şəhər mərkəzini belə təsvir edir. Bazar çayının yuxarısında dördkünc bazar, bu bazarda karvansara və örtülü dükanlar var idi. Orta əsrlər dövründə müsəlman şəhərlərində bazar adətən cümə məscidinin yaxınlığında salınırdı və müsəlman tacirinin "həm ziyarət, həm ticarət" işini unutmaması məqsədi daşıyırdı. Naxçıvanın şəhər əhalisi arasında "Anbar" məhəlləsi adı ilə tanınan ərazi vaxtilə şəhər meydanından indiki Cümə məscidinə qədər uzanan məsafədə yerləşən alış-veriş mərkəzinin –"Rasta bazar" – qızıl, zərgərlik dükanları yerləşən örtülü bazardan və "Çarşı bazar" da topdansatış ticarəti ilə məşğul olanların yerli tacirlərlə alış-veriş mərkəzi olmuşdur. Mərkəzi bazarla şəhər çayı arasında Cümə məscidi yerləşir. Məscidin qarşısında mədrəsə binası ucalırdı. Şəhərin mərkəzindən keçən şəhər çayı Cümə məscidinin qarşı tərəfindəki həyətindən keçərək Bazar gölünə tökülürdü. Bazar çayının üzərində məsciddən şimal və bazar gölünün yuxarısında Şərq üslubunda tikilmiş hamamlar var idi [6].

Bəhs olunan dövrlərdə bazarların zahiri görkəmi şəhərdən asılı olaraq fərqlənirdi. Bazarlar qapalı (üstü örtülü) idi. Bazarlarla yanaşı, yarmarkalar da ticarətin ayrılmaz tərkib hissəsini təşkil edirdi. Topdansatış ticarəti ilə məşğul olan tacirlər yarmarkalarda görüşür və ən iri ticarət əməliyyatları burada aparılırdı. XVI əsrdə Naxçıvandakı tacirlər zümrəsi şəhərdə hakim mövqe tutan feodallardan fərqli olaraq kəndlilərin istismarında vasitəli şəkildə iştirak edir, ticarət kapitalının artmasına səbəb olurdu. Həmin dövrdə Azərbaycanda yerli bazarların formalaşmasında müəyyən inkişaf nəzərə çarpırdı. Avropa ölkələrini Səfəvi torpaqları ilə birləşdirən yollar Naxçıvan ərazisindən keçdiyindən burada ticarət üçün böyük bazarlar və digər alış-satış məntəqələri fəaliyyət göstərirdi. Böyük İpək Yolu bu dövrdə də Naxçıvan ərazisində

iqtisadiyyatın və mədəniyyətin inkişafına güclü təsir göstərmişdir. XVI əsrdə nəinki Naxçıvan, həmçinin Ordubad, Əylis Culfa kimi şəhərlərin böyük ticarət əhəmiyyəti vardı. Səfəvi şahları sonuncu iki şəhəri xüsusilə himayə etmişlər. F.Səfərli yazır ki, orta əsrlər zamanı Ordubad rayonunun Əylis kəndində böyük ticarət mərkəzi olmuş, müxtəlif ölkələrdən gələn tacirlər burada alver etmişlər. Bazarda çoxlu dükanlar, dükanların altında zirzəmilər olmuşdur. Bu zirzəmilər anbar rolunu oynamış, kənar yerlərdən gətirilən mallar bu anbarlarda saxlanılmışdır. Həmçinin Kəndin cənub girişində son zamanlaradək qalıqları qalan və el arasında "Qala qapısı" adlandırılan yer var idi. Bu yer orta əsrlər zamanı gömrük məntəqəsi rolunu oynamış, cənub yolu ilə şəhərə daxil olan və şəhəri tərk edən adamlar və mallar burada yoxlanılaraq, qeydiyyatdan keçmişdir [7, s. 11-17].

XVI-XVII yüzilliklərdə ölkənin ayrı-ayrı bölgələri arasında iqtisadi əlaqələrin güclənməsi, ictimai əmək bölgüsünün dərinləşməsi, əmtəə istehsalının artması və əmtəə təsərrüfatının təkamülü kimi mühüm iqtisadi amillərdən asılı olaraq Azərbaycan Səfəvi dövlətində daxili bazarın təşəkkülü prosesi gedirdi. İqtisadiyyatın bir sıra mühüm sahələrinin (sənətkarlıq, ipəkçilik və s.) inkişafı, əmtəə təsərrüfatının təkamülü, daxili və beynəlxalq ticarət əlaqələrinin güclənməsi bir çox şəhərlərin yüksəlişinə, bəzi qəsəbə və kəndlərin tədricən iqtisadi mərkəzlərə çevrilməsinə şərait yaratmışdı [8, s. 11-17]. Bu baxımdan XVI əsrin II yarısından başlayaraq karvan yollarının üzərində yerləşən Culfa şəhərinin əhəmiyyəti daha da artmış, xüsusilə beynəlxalq ipək ticarətində o mühüm rol oynamış və ticarətdə əsas məntəqələrdən birinə çevrilmişdir [9, s. 10].

Bölgənin zəngin mədəniyyəti, gözəl sənətkarlıq malları, əla növ kənd təsərrüfatı məhsulları ilə diqqəti cəlb edən geniş bazarları yolçuları buradan etinasız keçib getməyə qoymurdu. Bu işdə onlara yaşadıqları yerin Avropa ilə Yaxın Şərq ölkələrini birləşdirən Böyük İpək Yolunun üzərində yerləşməsi də kömək edirdi. Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Culfa, Qarabağlar şəhərləri xüsusilə fərqlənirdilər. Təbii ki, bu ticarətlərin baş tutması üçün vacib olan məkan bazarların mövcud olması idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də daxili ticarətin təşkilində bazarlar mühüm yer tuturdu. Ə.Fərəcovun yazdığına görə bəzi vaxtlarda, xüsusilə Novruz bayramı ərəfəsində Ordubad bazarı yarmarkaya çevrilirdi. Bazarlarla birlikdə mağaza və dükanlar şəbəkəsi də genişlənirdi [10, s. 88-89]. Göstərilənlərin bir nümunəsi kimi, bu gün də Ordubad şəhərində öz möhtəşəm memarlıq xüsusiyyətləri ilə seçilən Qeysəriyyə bazarını qeyd etmək olar. Orta əsrlərdə üstüörtülü Qeysəriyyə bazarları Şərq ölkələrində mövcud olmuşdur. XVII əsr holland səyyahı Yan Streysin qeydlərindən məlum olur ki, belə ticarət obyektlərində mahud, ipək, qızıl və gümüş saplardan toxunmuş parçalar, bahalı daş-qaşlar, xalçalar və s. qiymətli malların satışı həyata keçirilmişdir. XVII əsrə aid Ordubad şəhərinin mərkəzində salınmış bu bazar müəyyən sənət sahələrinə aid qiymətli malların ayrıca satışının təşkil edildiyini göstərir ki, bu da ticarətin və sənətkarlığın inkişafından xəbər verir [11, s. 267]. Tarixçi alim F.Səfərli yazır ki, "Qeysəriyyə" orta əsrlər zamanı şəhər ticarətində böyük əhəmiyyət kəsb edən bazarlar qrupuna aiddir. Bəzən "Bədistan" da adlanan bu bazarlar üstüörtülü bazarlar tipinə aiddir. Adətən bahalı

mallar, xüsusilə daş-qaş, cavahirat satılan bu cür bazarlara xalq arasında «Şah bazarı» da deyilirdi [12, s. 51-53].

S.Budaqova yazır ki, XVIII əsrdə Naxçıvan bazarında irili-xırdalı 138 dükan olmuşdur. Onlardan yeddisi papaqçı, on biri çəkməçi, ikisi zərgər, beşi yəhər hazırlayan, biri qalayçı və digər sənətkarlara məxsus idi. Naxçıvan bazarında dükansız fəaliyyət göstərən peşə sahibləri də var idi ki, onları peşələri üzrə bu və ya digər yerlərə işləmək üçün dəvət edirdilər. Həmin peşə sahiblərinə daşyonan (daşkəsən), bənna, xarrat, dülgər və b. daxil idilər. Naxçıvan diyarında maldarlığın inkişafı burada gön və dəri işləmə üzrə sənətkarlığın inkişafı üçün əlverişli zəmin yaratmışdı. Şəhərdə bu sahədə on dükan (emalatxana) fəaliyyət göstərirdi [13, s. 26].

Naxçıvan şəhəri inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdü: 1. Əlixan; 2. Şahab; 3. Qurdlar; 4. Sarbanlar. Şəhərin mərkəzində dördkünc bazar var idi. Bu bazarda üç karvansara yerləşirdi. Dükanların hamısı, demək olar ki, bazarda mərkəzləşmişdi [14, s. 27].

Tarixçi alim R.Məmmədov yazır ki, tarixi hələ çox qədim dövrlərə gedən Naxçıvan bazarları XVIII–XIX əsrlərdə özünün məhsul bolluğu ilə şöhrət tapmışdı. Həmin dövrdə də ticarət əsasən iki cür aparılırdı: topdansatış və pərakəndə. Lakin bazarlarda pul, çəki və ölçü vahidlərinin müxtəlifliyi ticarətin normal aparılmasında ciddi çətinliklər törədirdi. Naxçıvan bazarlarında İran, Türkiyə, Rusiya və Gürcüstanda, habelə Şuşada, Xoyda, Təbrizdə və digər şəhərlərdə kəsilmiş pullar dövriyyədə idi. Müxtəlif şəhərlərdə zərb olunmuş pulların dəyəri də bir-birindən fərqlənirdi. Xüsusilə yerli pul vahidlərinin sabit olmaması ticarətin gedişini çətinləşdirirdi. Siyasi hadisələr, habelə şəraitlə əlaqədar olaraq xanlar özlərinin pul vahidlərinin dəyərini dəyişməyə məcbur olurdular. Belə hallar da bazarlarda pul dövriyyəsini ləngidirdi [15, s. 111-112].

Başqa şəhərlərdən gələn tacirlər adətən karvansaralarda yaşayırdılar. Şəhər bazarında münasib yer olmadıqda gəlmə tacirlərə yer pulu vermək şərti ilə karvansaralarda ticarət etmək ixtiyarı verilirdi. Naxçıvan şəhərində isə ticarət əsasən bazarda aparılırdı. Bu da bazarda satılmaq üçün gətirilən mallar üzərində yerli hakimlərin nəzarət etməsinə, satıcı və alıcılardan lazımi gömrüyü vaxtında toplamaq işinə kömək edirdi. Bazar şəhərin ticarət mərkəzi olmaqla yanaşı, eyni zamanda onun ictimai həyatının da mərkəzi idi. Ölkədə baş verən bir çox yeniliklər haqqında məlumatı, son xəbərləri bazarda eşitmək olurdu. Bazar meydanında camaata carçılar vasitəsilə şəhər hakiminin, bəylərbəyinin və hətta şahın əmrləri belə çatdırılırdı [16]. Naxçıvan şəhərindəki 279 sənətkar emalatxanasından 31-i karvansaralarda, 248-i isə bazarda yerləşirdi [17, s. 51-52].

Ordubad da ticarət dükanlarının və sənətkar emalatxanalarının cəmləşdiyi əsas mərkəzlərdən biri idi. Burada dükan və emalatxanaların sayı 197-yə çatırdı. Yerli əhalinin verdiyi məlumatlara görə, sənətkarlar əsasən Ordubad bazarının yerləşdiyi ərazidə fəaliyyət göstərmişdir. Bazar ərazisində dükan və emalatxana sahəsi tutan hər bir sənətkar, xırda tacir, xüsusi sənət və ticarət vergiləri (dəzgahbaşı, toxucu pulu və s.) ilə yanaşı, şəhər əhalisinin aşağı təbəqəsi kimi dəyər vergiləri də verməli, mükəlləfiyyətlər daşımalı idi [17, s. 51-52].

Bazarda ticarətin bütün növləri üzərinə ağır vergilər – gömrük haqqı qoyulmuşdu.

Xanlıqlar dövrü xanlığın hər bir bucağında – qala qapısından tutmuş çayların keçidlərinə qədər, hətta dini ocaqlara gedən yolların hamısında xanın adamları – rahdarlar və bacdarlar durub, gedib-gələnlərdən ağır vergilər alırdılar. Rahdarlar və bacdarların vəzifəsi, demək olar ki, eyni idi. Onların hamısı vergi toplayırdı. Buna baxmayaraq, onların fəaliyyətində müəyyən fərq var idi. Bacdarlar gələn tacir və səyyahlardan, bir növ, "torpaq-basdı" gömrüyü alırdılar. Rahdarlar isə yalnız xanlığın daxilində gömrük toplayırdılar. Satılmaq məqsədilə gətirilən mallardan həm şəhərə daxil olmaq üçün, həm də bazar meydanında satmaq üçün ayrıca gömrük haqqı alınırdı. Birincisi "rahdar", ikincisi isə "mizan" gömrüyü adlandırılırdı. Mizan pulu bazarda mizan tərəzisinə nəzarət edən mizandar tərəfindən yığılırdı. Bazara gətirilən mal tərəzidə çəkilir, sonra isə keyfiyyətinə və ağırlığına görə mal sahibindən pul alınırdı. Rahdar gömrüyünü təkcə şəhərdə deyil, bir şəhərdən başqasına gedəndə də vermək lazım gəlirdi. Əks təqdirdə rahdarlar taciri yolunu davam etdirməyə qoymurdular. Rahdar gömrüyünün miqdarı müxtəlif idi və hər şeydən əvvəl, aparılan malın sayı, ağırlığı və hansı bazarda satılacağından asılı olurdu [16].

Naxçıvan gömrükxanası Araz çayının sahilində yerləşirdi. Burada toplanılan vəsait ticarətlə əlaqədar olan müxtəlif işlərə və başlıca olaraq ticarət yollarının qorunmasına sərf edilirdi. Satılmaq məqsədilə gətirilən mallardan həm şəhərə daxil olmaq üçün, həm də bazar meydanında satmaq üçün ayrıca gömrük haqqı alınırdı. M.Heydərov tədqiq olunan dövrdə iki cür ticarət rüsumunun olmasını qeyd edir: 1. Adi rüsum (gömrük). Bu rüsum şəhər gömrükxanasında mal bazara çıxarılanadək alınırdı. 2**.** "Rəhdari" adlanan və ticarət yolları üzərində yerləşən müxtəlif gömrük məntəqələrində alınan yol rüsumu. Bundan başqa, ticarət yollarının qorunması üçün toplanan rüsum da "rəhdari" adlanırdı. Sadalanan rüsumlarla yanaşı, tacirlərdən əlavə olaraq, xidmət haqqı ("xuddamiyə"), malların böyük tərəzilərdə çəkilməsi üçün "rəsm-i qapan" kimi digər rüsumlar da toplanırdı. Mal bazara çıxarıldıqdan sonra onun kəmiyyət və keyfiyyəti nəzərə alınaraq, "rüsum-i mizan" adlanan bazar rüsumu alınırdı.

Beləliklə, Azərbaycanda, o cümlədən Naxçıvanda hələ orta əsrlərdən meydana gəlmiş bazar münasibətlərinin yaranması sonrakı dövrlərdə daha da inkişaf etmiş və bununla da ölkə iqtisadiyyatının əhəmiyyətli inkişafına təkan vermiş, həmçinin Yaxın Şərq ölkələrində bölgəyə olan diqqət daha da artmışdır.

# ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə. II c. Bakı: Elm, 2007, 491 s.
2. Gözəlova Y.H. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. Bakı: 2012, 295 s.
3. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
4. Статистическое описание Нахичеванской провинции. Составитель В. Г. Санктпетербургъ: 1833, 284 с.
5. Şarden C. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994. 96 s.
6. Qənbərova G. Azərbaycanın memarlıq tarixində Naxçıvanın şəhərsalma mədəniyyəti. http://www.qedim.nakhchivan.az/index.php
7. Səfərli H.Y. Yuxarı Əylis: tarixi və abidələri AMEA Naxçıvan Bölməsinin Xəbərləri: Naxçıvan: Tusi, 2007, № 3, s. 11-17.
8. Süleymanov N. Səfəvi dövlətində ölkədaxili iqtisadi əlaqələrin qurulmasinda şəhərlərin rolu. Tarix və onun problemləri. 2013, № 3, s. 11-17.
9. Səfərli H.Y. Culfa bölgəsinin epiqrafiк abidələri. Bakı: Elm, 2002, 80 s
10. Фараджев А.С. Ордубад. Историко-экономический очерк. Баку: Азернешр, 1970, 151 с.
11. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 520 s.
12. Səfərli H.Y. Ordubad qeysəriyyəsi. “Elm və həyat” jurnalı, 2011, № 4, s. 51-53.
13. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
14. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, Bakı: 1964, 124 s.
15. Nəcəfli T. XV-XVI əsrlərdə Naxçıvanın ictimai-iqtisadi həyatı www.strategiya.az/old
16. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 284 с.
17. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.

Сара Гаджиева

## РАЗВИТИЕ БАЗАРОВ В НАХЧЫВАНЕ В СРЕДНИЕ ВЕКА

РЕЗЮМЕ

В статье говорится о развитии торговли в средние века, положение базаров в Нахчыване, которое имеет важное значение в Нахчыванском регионе. Отмечается, что в средние века базары, как обьект торговли, приобретают важное значение в мировой и региональной торговле, а также в развитии экономики и торговых связей. В результате в Нахчыванском регионе развивалась торговля и повысились интересы стран Ближнего Востока и Европы к региону.

Sara Hajiyeva

## THE DEVELOPMENT OF BAZARS (MARKETS) IN NAKHCHIVAN IN THE MIDDLE AGES

SUMMARY

The article deals with the development of trade in the Middle Ages, the position of bazaars in Nakhchivan, as an important feature of the Nakhchivan region. It is noted that, bazars as an object of trade in the Middle Ages have become important in world and regional trade, as well as in the development of the economy and trade relations. This led to the development of trade in the Nakhchivan region and increase of the Middle Eastern and European countries in the region.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, "14" ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.

# К СВЕДЕНИЮ АВТОРОВ

1. В журнале издаются безукоризненно отредактированные, краткие научные статьи, которые являются результатом новейших исследований, не предоставленных другим изданиям.

2. Текст статьи предоставляется ответственному секретарю журнала в электронном варианте, напечатанном в 1 экземпляре, шрифтом Times New Roman на азербайджанском и русском языках, в формате А4, с “14” размером букв, в интервале 1,5, на расстоянии от полей страницы сверху и снизу 2 см, слева 3 см, справа 1 см.

3. В статье должно быть указано учреждение, где работает автор, адрес данного учреждения и электронная почта автора.

4. В заключение статьи в ясной форме необходимо показать соответствующий характеру статьи научный результат, к которому пришёл автор, научное новаторство работы, практическую значимость и прочее.

5. Научная ссылка в связи с темой обязательна. Список литературы, данный в конце статьи должен быть пронумерован по порядку встречаемых в статье ссылаемых литератур и обозначен как {1} или {1, стр.119}. Если в статье будет ссылка на одинаковую литературу, тогда данная литература должна быть помечена прежним номером.

6. Информация о каждой ссылке в списке литератур должна быть полной и точной. Библиографическое описание ссылаемого источника зависит от её типа (монография, учебник, научная статья и т.д.). При ссылке на одинаковые статьи, симпозиумы, конференции и тезисы прочих влиятельных научных мероприятий должно быть указано название доклада или же тезиса. При библиографическом описании ссылаемого источника необходимо основываться на требования имеющей силу инструкции о “Порядке оформления диссертаций” Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики пункта 10.2-10.4.6 части “Использованная литература”.

7. В списке литературы, данной в конце статьи нужно отдать предпочтение научным статьям, монографиям и прочим надёжным источникам последних 5-10 лет.

8. Должно быть дано резюме на языке статьи и ещё 2 языках дополнительно. Рекомендуется, чтобы объём статьи был в пределах 8-10 страниц, а резюме 5-8 строк.

9. Резюме статьи на разных языках должно быть идентичным и соответствовать содержанию статьи. Научный результат, к которому пришёл автор или авторы, новаторство научной работы, практическая значимость и прочее должны быть в краткой форме отображены в резюме. Резюме должно быть серьёзно отредактировано с научной и грамматической точки зрения. В каждом резюме нужно в полном виде указать название статьи, имя автора или же авторов.

10. В каждой статье следует указать индексы UOT или коды типа PACS и ключевые слова. Ключевые слова должны быть даны на трёх языках (на языках статьи и резюме).

11. Автор несёт ответственность за качество статьи, достоверность указанных фактов и прочих сведений.

12. При упоминании имён святых и видных религиозных деятелей считается целесообразным использовать особую форму обращения, основываясь на международную практику относительно подготовки к печати научно-популярных статей, написанных на религиозную тему.

# QEYD